## Ailə üzvləri Anar Məmmədli ilə görüşüb



**Yanvarın 5-də ailə üzvləri 13 saylı həbsxanada saxlanılan vicdan məhbusu Anar Məmmədli ilə görüşüblər. Yaxınlarının verdiyi məlumata görə, A.Məmmədlinin karantin müddəti bitib.**

Onlar deyiblər ki, A.Məmmədlinin səhhətində müəyyən problemlər yaranıb və o, müalicə olunur. " Səhhətində problemlər olmasına baxmayaraq Anar özünü yaxşı hiss edir, əhvalı da yaxşıdır, hər kəsə salam göndərdi. Saxlanma şəraitindən şikayətlənmədi, amma onu da bildirdi ki, saxlandığı cəzaçəkmə müəssisəsi ekoloji cəhətdən çox pis yerdə yerləşir" deyə, yaxınları qeyd edib.

Onu da bildirdilər ki, A.Məmmədli artıq qaldığı şəraitə uyğunlaşıb.

A.Məmmədli 2013-cü il dekabrın 16-da həbs olunub. Bakı Ağır Cinayətlər Məhkəməsi onu 5,6 il müddətinə azadlıqdan məhrum edib. O, vergi ödənişindən yayınmaq, qanunsuz sahibkarlıq, vəzifə səlahiyyətindən sui-istifadədə təqsirli bilinir.

"Amnesty İnternational" A. Məmmədlini "vicdan məhbusu" kimi tanıyıb. Sentyabrın sonlarında o, Vatslav Havel adına mükafata layiq görülüb.

❑ **Sevinc TELMANQIZI**

## Rəsul Cəfərovun məhkəməsi yanvarın 15-nə təyin edilib

**İnsan Haqları Klubunun həbsdə olan sədri, hüquq müdafiəçisi Rəsul Cəfərovun cinayət işi üzrə məhkəmənin başlama vaxtı məlum olub.**



Vəkil Fariz Namazlının APA-ya verdiyi məlumata görə, cinayət işi üzrə məhkəmənin hazırlıq iclası yanvarın 15-nə təyin edilib.

Prosesə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Eldar İsmayılov sədrlik edəcək.

Qeyd edək ki, R. Cəfərov ötən il avqustun 2-də həbs edilib. Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsində ifadə verdikdən sonra ona qarşı Cinayət Məcəlləsinin qanunsuz sahibkarlıq, vergidən yayınma və vəzifə səlahiyyətlərini aşma maddələri ilə ittiham irəli sürülüb. Nəsimi Rayon Məhkəməsi tərəfindən onun barəsində həbs-qətimkan tədbiri seçilib.

İstintaq dövründə R. Cəfərova qarşı Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə) və 313-cü (sənədləri saxtalaşdırma) maddələri ilə əlavə ittiham da elan olunub.

## Rusiyada xərçəng xəstəsi olan general özünü güllələdi

**Rusiya Hərbi-Hava Qüvvələrinin istefada olan general-leytenantı Anatoli Kudryavçev intihar edib. O, özünü güllələyib. Musavat.com-un Rusiya qaynağına istinadən verdiyi xəbərə görə, general mədə xərçəngindən əziyyət çəkirmiş.**

Hüquq-mühafizə orqanlarındakı mənbənin bildirdiyinə görə, hadisə yerində mərhumun ölümqabağı yazdığı məktub tapılıb. Orada 77 yaşlı general ölümündə heç kimi suçlu saymamağı xahiş edir və "dözülməz ağrılara görə" həyatla könüllü vidalaşdığını qeyd edir. Faktla bağlı araşdırma aparılır.

Xatırladaq ki, bir neçə gün öncə Rusiyada başqa bir general - Mari El Respublikasının daxili işlər naziri Vyaçeslav Buçnev iş kabinetində özünü güllələyərək intihar eləmişdi.

❑ **musavat.com**

## Quldarlıqda ittiham olunan fermerin vəkili danışdı

**Ağstafa sakini, fermer Şahin Əliyev Ukrayna vətəndaşı Aleksandr Zıkovu məcburi əməyə məcbur etməkdə təqsirli bilinərək həbs olunub. Hazırda Gəncə Ağır Cinayətlər Məhkəməsində Ağstafa rayonu, Köçəsgər kənd sakini, 1960-cı il təvəllüdlü Şahin Kərəm oğlu Əliyevin cinayət işi üzrə məhkəmə prosesi keçirilir. Bu haqda virtualaz.org saytı xəbər yayıb. Xəbərdə Ş.Əliyevin A.Zıkovu qul kimi saxlayıb işlətməkdə, onun sənədlərini əlindən almaqda ittiham olunduğu qeyd edilirdi.**

Müttəhimin vəkili Ceyhun Yusifov "Yeni Müsavat"a deyib ki, əslində Ukrayna vətəndaşının qul kimi saxlanılması faktı baş verməyib: "Şahin Əliyev Aleksandr Zıkova bir insan kimi yaxşılıq etməsinin bədəlini çəkir. Onu həbs edib aylardır yaxınlarından ayırıblar. Zıkov Ukrayna vətəndaşıdır. O, Azərbaycana 1992-ci ildə gəlib. Ölkəmizin hər bir rayonunu tanıyır. Çünki bu adam demək olar ki, Azərbaycanın bütün rayonlarında işləyib. Son iş yeri də Ağstafa rayonu olub. Spirtli içkilərə meyllidir. Şahin Əliyev onun küçələrdə yaşadığını görüb və özünün fermasında, çobanlarının yaşadığı evdə qalmağa yer verib. Zıkov fermada işləyib və Şahin Əliyev də bunun müqabilində onun ehtiyaclarını qarşılayıb".

**Vəkil deyib ki, müvəkkili ittihamı qəbul etmir:** "Çünki Zıkovu məcburi əməyə cəlb etməyib. Bu necə qul kimi saxlamaqdır ki, Aleksandr Zıkovun sərbəst hərəkət etmək imkanı olub? Bundan başqa, o, Şahin Əliyevin fermasında qaldığı dövrdə ferma sahibi - yeni Şahin Əliyev 2 il Rusiyada olub. Bu adam qul idisə, niyə həmin dövrdə qaçıb getmirdi? Və ya niyə gedib hüquq-mühafizə orqanlarına şikayət etmirdi? Qulun da əlində mobil telefon olar? Qul kənddə toylara gedib yeyib, içib şənlənər? Axı bu videolar da var. Hətta Şahin Əliyev bir neçə il Rusiyada olarkən Zıkov digər rayonlarda könüllü şəkildə vətəndaşların fermer təsərrüfatlarında çalışıb. Onun üzərində daim mobil telefon olub. Əgər Zıkovun dediyi kimi, Şahin Əliyev tərəfindən məcburi saxlanılmışdısa, ferma sahibi uzun müddət Rusiyada olan zaman həmin ərazini tərk edərdi".

Vəkil məhkəmənin müvəkkili barəsində ədalətli qərar veriləcəyinə ümid etdiyini də açıqlayıb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Müəllim və həkimlərin maaşı artacaq

**"Yaxın günlərdə bəzi sahələrdə maaş artımı olacaq. Lakin elə etmək lazımdır ki, inflyasiya baş verməsin". Bunu azvision.az-a Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, millət vəkili Vahid Əhmədov deyib. O bildirib ki, elə sahə var, orada maaş orta aylıq əmək haqqından aşağıdır. Odur ki, büdcədə həmin sahədə işçilərin maaşının artırılması nəzərdə tutulub:**



"Təbii ki, burada söhbət həkim və müəllimlərin əmək haqqından gedir. Çünki onların maaşı orta aylıq əmək haqqından aşağı olduğundan bu məsələyə baxmağa ehtiyac var. Büdcə müzakirələri zamanı müəllim və həkimlərin maaşı məsələsinə toxunulub. Təhsil naziri də əlavə məlumat verdi ki, Azərbaycan hökuməti bunun üzərində iş aparır".

Deputatın sözlərinə görə, müəllimlərin maaşları artırılmamışdan öncə onların ixtisasları yoxlanılır.

**Millət vəkili qeyd edib ki, müəllimlərin akkreditasiyası artıq başa çatıb. Yəqin ki, bu yaxınlarda stimulverici maaş artımı olacaq:** "Müəllimlərin maaşı ilə yanaşı həkimlərin maaşlarının artırılması üçün dövlət büdcəsində müəyyən vəsait nəzərdə tutulub. Lakin bunun nə zaman veriləcəyi bəlli deyil".

**Millət vəkilinin sözlərinə görə, əmək haqqının nə qədər artırılacağı isə dövlət büdcəsinin vəziyyətindən və digər problemlərdən asılı olacaq:** "Maaş artımını elə etmək lazımdır ki, inflyasiya yaratmasın. Çünki maaş artımı digər problemlər də yarada bilər. Hazırda maaş artımının nəzərdə tutulduğu sahələr müəllim və həkim ixtisaslarıdır".

**Deputat sonda onu da bildirib ki, maaşların artımı dövlət başçısının səlahiyyətində olan məsələdir.** "Biz büdcəni təsdiq etmişik. Büdcədə həmin məbləğlər salınıb. Ölkə başçısı nə zaman məsləhət bilsə, o zaman qərar veriləcək",-deyəVahid Əhmədov vurğulayıb.



## Azərbaycanlı oliqarxın daha bir gəmisi tutuldu

**Türkiyədə mənzillənmiş azərbaycanlı oliqarx, gəmiçilik maqnatı Mübariz Mənsimovun daha bir tankerinə həbs qoyulduğu məlum olub.**

Virtualaz.org saytı Türkiyənin dənizçilik tematikası üzrə ixtisaslaşmış "Deniz Haber" portalına istinadən xəbər verir ki, oliqarxa məxsus neft tankerinə bu dəfə Yunanıstan limanında həbs qoyulub.

Xəbərdə deyilir ki, Rusiyanın Krımı ilhaq etməsinə cavab olaraq ABŞ və Avropa İttifaqının bu ölkəyə qarşı tətbiq etdiyi sanksiyaların əhatə dairəsi genişləndirilir. Bu sanksiyaların nəticəsi olaraq Avropa İttifaqı (Aİ) ölkələrinin limanlarına yan alan və Rusiya bayrağı altında üzən gəmilərə PSC nəzarətindən (Port State Control-Liman Dövləti Nəzarəti) sonra həbs qoyulur.

Bildirilir ki, bu üzdən Mənsimovun Aİ limanlarına yan alan gəmilərinə də həbs qoyulmaqdadır. Son bir həftə ərzində "Palmali Denizçilik" şirkətinə aid olan, Rusiya bayrağı altında üzən M/T "Armada Explorer" adlı tanker Rumıniyanın Kostence limanında həbsə məruz qalıb. Ardınca "Palmali"nin digər tankeri M/T "Brothers-5" adlı tankerinə Yunanıstanın Elefsis limanında PSC yoxlaması tətbiq edilib və Paris memorandumu çərçivəsində gəmiyə həbs qoyulub.

Portalın əldə etdiyi məlumata görə, ABŞ və Avropa İttifaqının Rusiyaya qarşı tətbiq etdiyi iqtisadi və siyasi embarqoların çərçivəsi qeyri-rəsmi olaraq genişləndirilib. Nəticədə Rusiya neftinin daşınmasında iştirak edən dənizçilik şirkətlərinə ABŞ və Aİ tərəfindən intensiv nəzarət tətbiq olunub.

Qeyd edək ki, "Palmali"nin tankerləri Azərbaycanla yanaşı Rusiya neftinin də daşınmasını həyata keçirir.

Bundan əvvəl şirkətin "Armada Explorer" tankerinə Rumıniya limanında həbs qoyulmasına dair xəbəri "Palmali" şirkətinin rəsmisi İbrahim Nəbioğlu təkzib etmişdi. Bu haqda xəbərin virtualaz.org saytında yayılmasından sonra Nəbioğlu KİV-lərə açıqlama verərək bildirib ki, tankerə həbs qoyulduğu barədə xəbər yalandır. Tanker sadəcə olaraq yoxlanılıb və onun limanı tərk etməsinə heç bir məhdudiyyət qoyulmayıb.

## Deputatın mandatı ləğv ediləcək

### Milli Məclisdə boş yerlərin sayı 5-ə çatdı

**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) Parlament Assambleyasının (PA) baş katibi seçilən Asəf Hacıyevin deputat fəaliyyətinə xitam veriləcək. Məlumata görə, məsələ MSK-nın növbəti iclasında müzakirəyə çıxarılacaq və qərar veriləcək. Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu azvision.az-a açıqlamasında bildirib ki, deputat Asəf Hacıyevin özü mandatını təhvil verəcəyini deyib: "Görünür, təşkilatın tələbi ondan ibarətdir ki, baş katib seçilən şəxs yalnız o işlə məşğul olmalıdır. Bu baxımdan deputat statusunda qala bilməz".**

Qeyd edək ki, A.Hacıyev 1995-ci ildən Milli Məclisin deputatıdır. Parlamentdə 8 saylı Nizami ikinci (Gəncə) seçki dairəsini təmsil edir. Elm və təhsil komitəsinin üzvüdür. Hakim Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələr şöbəsinin müdiridir. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş Katibliyi İstanbulda yerləşdiyi üçün o, Türkiyəyə köçəcək.

Xatırladaq ki, Azərbaycan Respublikası Konstitusiyasının 89-cu maddəsinin 4-cü hissəsinə əsasən Milli Məclisin üzvü dövlət orqanlarında vəzifə tutduqda Milli Məclis üzvlüyündən istefa verməlidir. Dövlət orqanında vəzifə tutan Milli Məclis üzvü MSK-ya müraciət edir, MSK isə bu müraciətə 2 ay müddətində baxıb, millət vəkilinin mandatdan məhrum edilməsinə dair qərar verməlidir.

Həmçinin bundan əvvəl dörd mandat yeri boş qalmışdı. Belə ki, 110 saylı Zaqatala dairəsi Hikmət Atayevin faciəli ölümündən sonra boş qalır. Bundan əlavə, 19 saylı Nərimanov birinci seçki dairəsindən seçilən deputat, Yeni Azərbaycan Partiyasının icra katibi - sədr müavini Əli Əhmədov baş nazirin müavini təyin olunduqdan sonra onun da mandatı geri alınıb. Analoji olayla hakim partiyanın icra katibinin müavini Mübariz Qurbanlı da üzləşməli olub. O, prezident İlham Əliyevin sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunandan sonra deputat mandatı ilə vidalaşdı. Göründüyü kimi, hazırda Milli Məclisdə 4 deputat yeri boşdur.

Yeri gəlmişkən, spiker Oqtay Əsədov payız sessiyasının son iclasında A.Hacıyevlə bağlı hələlik konkret qərarın olmadığını bildirmişdi. Görünür, artıq MM rəhbərliyi onun mandatdan imtinası barədə qəti qərara gəlib.

Milli Məclisin daxili nizamnaməsinə uyğun olaraq, növbəti plenar iclas fevralın 1-də başlayacaq. Fevralın 1-i bazar gününə düşdüyündən plenar iclas fevralın 2-nə nəzərdə tutulub". Bunu isə modern.az-a açıqlamasında Akif Təvəkküloğlu deyib. Onun sözlərinə görə, komitələrin öz işinə başlaması vaxtı artıq dəqiqləşib. "Yanvar ayının 15-dən etibarən Milli Məclisin komitələri öz işinə başlayacaq. Qanun layihələrini komitələr ayrı-ayrılıqda müzakirəyə çıxaracaq. Komitələrdə müzakirə olunduqdan sonra həmin qanun layihələri Milli Məclisin yaz sessiyasına salınacaq".

❑ **ELŞAD**

## Ağdamda gizirimiz ağır yaralanıb

**Ağdamın Xındırıstan kəndi ərazisində ordumuzun giziri, 1979-cu il təvəllüdlü Şamo Əhməd oğlu Məmmədov ağır yaralanıb. Redaksiyamıza daxil olan məlumata görə, gizir döyüş zamanı bir ayağının itirilməsi ilə nəticələnən ağır xəsarətlər alıb. Digər bir məlumatda gizirin minaya düşdüyü bildirilir. Yaralı gizir Sarıcalı hospitalına aparılıb. Yaxınlarının verdiyi məlumata görə, durumu ağır olduğundan onu təcili yardım maşını ilə Bakıya göndəriblər. Məlumatı dəqiqləşdirmək üçün Müdafiə Nazirliyinə sorğu ilə müraciət etmişik. Sorğumuza veriləcək cavabı da təqdim edəcəyik.**

❑ **E.MƏMMƏDƏLİYEV**



Mahir Aslanov

## Bakıda deputat oğlu "avtoşluq" etdi

**Bayram günlərində Bakı küçələrində qadağan olunmuş səs siqnallarından istifadə edən, bununla da asayişi pozan sürücü saxlanılıb.**

Aznews.az xəbər verir ki, avtoxuliqanlıq edən sürücünün 10 GV 888 dövlət nömrə nişanlı "Maserati" markalı bahalı avtomobili isə cərimə meydançasında saxlanılıb. Həmin avtomobil hazırda Badamdarda yerləşən cərimə meydançasında saxlanılır.

Məlum olub ki, dəbdəbəli maşınla "avtoş"luq edən sürücü Famil Mahir oğlu Aslanovdur. Onun iş adamı, Milli Məclisin Aqrar siyasət komitəsinin üzvü Mahir Aslanovun oğlu olduğu müəyyən edilib.

Məsələyə münasibət bildirən millət vəkili Famil adlı oğlunun olduğunu bildirsə də, onun idarə etdiyi "Maserati"nin cərimə meydançasına aparılmasını təsdiqləməyib: "O, orqan işçisidir. Onun qayda pozması və maşınının cərimə meydançasına aparılması inandırıcı deyil. Ancaq hər birimiz qanun qarşısında cavabdehik və bu baxımdan əgər yol hərəkət qaydalarını pozuruqsa, avtomobilimiz cərimə meydançasına aparıla bilər".

Yeri gəlmişkən, prezident sərəncamı ilə qadağan olunan bu səs siqnallarından istifadə etmək ən ağır qayda pozuntusu hesab edilir və bu əməli törədən şəxsin işi məhkəmədə həll olunur.

Qeyd edək ki, Mahir Aslanov Gorbanboy-Naftalan seçki dairəsindən Milli Məclisə deputat seçilib. Onun digər oğlu Məhəmmədəli Aslanov "Bank of Azerbaijan"ın İdarə Heyətində çalışır.

## Ermənistan ordusu daha 2 hərbçi itirdi

**Yanvarın 5-dən 6-na keçən gecə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinin cənub səmtində 2 erməni hərbi qulluqçusu həlak olub. Modern.az Ermənistan mətbuatına istinadən xəbər verir ki, erməni tərəfi hərbi qulluqçuların təmas xəttində baş verən atışma nəticəsində öldürüldüklərini bildirib. Onların adları hələ ki açıqlanmır.**

Erməni tərərfi Azərbaycanın da itki verdiyini iddia edib.

Azərbaycan Müdafiə Nazirliyi isə Ermənistan mətbuatında yanvarın 5-dən 6-na keçən gecə 3 hərbçimizin düşmən tərəfindən öldürüldüyü haqda məlumatın qətiyyən həqiqətə uyğun olmadığını bəyan edib.

Xatırladaq ki, yanvarın 3-də də Dağlıq Qarabağda, qoşunların təmas xəttində iki erməni hərbçisi - Karen Qriqoryan və Vardan Mkrtçyan öldürülüb, 1-i isə yaralanıb.

YENİ MÜSAVAT
N 2 (6030) 7 yanvar 2015

**Amerikada yaşayan məşhur əfqan yazıçısı, "Çərpələng uçuran" romanının müəllifi Xalid Hüseyni AzadlıqRadiosunun həbsdə olan müxbiri Xədicə İsmayılın müdafiəsinə qoşulub. Onun da qoşulduğu "PEN Amerika Mərkəzi"nin bəyanatında deyilir ki, X.İsmayılın həbsi Azərbaycanın beynəlxalq imicinə ləkədir.**

Jurnalistin həbsinin "qurama" adlandırıldığı bəyanatda qeyd edilir ki, X.İsmayıl ölkədə aparıcı araşdırmaçı jurnalistlərdəndir və geniş yayılmış korrupsiya, insan haqları pozuntuları hallarını üzə çıxarır.

X.İsmayıl həm də Xalid Hüseyninin "Çərpələng uçuran" romanını Azərbaycan dilinə tərcümə edib.

"Mən X.İsmayılın Azərbaycan hökuməti tərəfindən həbsindən çox məyus olmuşam. Yazıçı olaraq mən yazmaq və ideyaları təqiblərdən ehtiyat etməyərək paylaşmaq azadlığını müqəddəs dəyər sayıram. Bu azadlıq istənilən, mənalı dialoq üçün vacibdir. Azərbaycan hökumətinin Xədicəni susdurmaq üçün çoxsaylı cəhdləri və onu bu azadlıqdan məhrum etməsi onun cəsarəti və aşırı təqiblər qarşısında nüfuzunu göstərir" - deyə, Hüseyni qeyd edib: "Mənim üçün şərəfdir ki, səsimi Azərbaycan oxucusuna X.İsmayıl çatdırıb. İndi mənim onun səsinə səs vermək növbəm çatıb. Ümid edirəm ki, dünya onun dərhal azadlığa buraxılması və qeyd-şərtsiz jurnalistlik kimi mühüm işinə qayıtması çağırışlarıma qoşulacaq".

***



# AzadlıqRadiosu ətrafında aparılan istintaq dayandırılıb?

"Azadlıq"ın ətrafında aparılan istintaq hərəkətləri isə dayanmış kimi görünür. Çünki yeni il girəndən bəri nə radionun işçiləri dindirməyə çağırılıb, nə də hər hansı istintaq hərəkəti aparılır. Radionun Bakı bürosunun direktoru Zeynal Məmmədli "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Yeni il başlanandan heç kim istintaqa çağırılmayıb. Son dəfə dekabrın 30-da AzadlıqRadiosu əməkdaşlarının istintaqa çağırılmasından sonra bu istiqamətdə hər hansı gəlişmə olmayıb.

**Müsahibimiz xatırladtı ki, Respublika Prokurorluğunun ötən ilin son iş günündə "Azadlıq"da maliyyə pozuntuları olması ilə bağlı yaydığı açıqlama da həqiqəti əks etdirmir. Onun sözlərinə görə, ortada heç bir maliyyə pozuntusu yoxdur və bununla bağlı hüquqşünasların rəyi də yayılıb:** "Hər hansı maliyyə pozuntusundan söhbət gedə bilməz. 7800 manat vəsaitdən söhbət gedir və bu vəsaitin də vergisi artıq ödənilib. 5 ilə 7800 manat vəsait hansı məntiqlə korrupsiya elementi sayılır?"



**Arif Əliyev:** "İlin ortalarına doğru bu istiqamətdə yumşalma olacaq"



**Zeynal Məmmədli:** "Bütün işçilər həyəcanlıdır"

**AzadlıqRadiosu Bakı bürosunun bundan sonrakı fəaliyyətinə gəlincə, müsahibimiz dedi ki, bu məsələni ümumən radio rəhbərliyi həll etməlidir. Onun sözlərinə görə, Bakı bürosunun bütün işçiləri həyəcanlıdır:** "Məişət problemləri, kreditlər, ipoteka kreditləri ödəyənlər var. Bundan başqa, dolanışıq qayğılarını da nəzərdən qaçırmaq olmaz. Bütün bunların fonunda isə qeyri-müəyyənliklər özünü göstərir. O biri tərəfdən isə ortada heç nə yoxdur. Bəs nəyə görə və hansı əsasla fəaliyyəti davam etdirməyə qoymurlar?"

**Radionun keçmiş əməkdaşı Rövşən Əliyev isə öz bloqunda yenidən AzadlıqRadiosu barədə yazıb. "Yeni Müsavat" qəzeti də daxil olmaqla, media orqanlarında daha öncə yazdığı yazının yanlış anlaşılmasını qeyd edən jurnalist bildirib ki, o, "Azadlıq"ın bəzi məsələlərdə peşəkar davranmadığını yazıb:** "Bu o demək deyil ki, Azərbaycanda onu tənqid eləyən xəbər mediasının radioya qarşı hücumlarını, arqumentlərini, ittihamlarını bölüşürəm. Bu o demək deyil ki, radionun tənqidçiləri süddən çıxmış ağ qaşıqlardır. AzadlıqRadiosunun Azərbaycan xidmətini həmişə redaktor əvəzinə briqadir idarə eləyib. Ancaq bu o demək deyil ki, radionun əməkdaşları əyri işlərlə məşğuldurlar, hansısa kəşfiyyata işləyirlər, kiməsə qarşı qəsd planının iştirakçılarıdır. Mən peşə kodeksinə əməl eləməyin önəmini irəli çəkmişəm. Peşə kodeksi jurnalisti siyasi fəaliyyətdən çəkindirir və bilərəkdən, yaxud bilməyərəkdən hansısa daxili, xarici qüvvənin, kəşfiyyatın alətinə çevrilməkdən sığortalayır. Peşə kodeksinə əməl olunmasına normal idarəçilik, hazırlıqlı, prinsipial jurnalistlər, onların alternativ iş yeri imkanlarının olması, yayım şurası, peşəkar redaktorlar, səviyyəli auditoriya təminat verə bilərlər, briqadirlər yox. Azərbaycanda kimlərin bəhanə axtarıb, fürsət tapıb ölkənin kursunu Rusiyaya doğru yönəltmək istədiyi bəllidir. Peşəkar media qurumu da siyasi gündəm güdməməli, belə bəhanələrə imkan verməməli, siyasi marağı olan mənbələrdən gələn kompromatlarla ehtiyatlı davranmalıdır. Araşdırmaları öcəşməyə çevirməməlidir. Oyun oynamamalıdır... Bir daha təkrar eləmək istəyirəm. Radionu Ağ Evlə eyniləşdirən siyasətçi yanır. Yanır-yansın, özü bilər. Ən pisi odur ki, ölkə ilə birlikdə yana. Azərbaycanın yanğın kursu götürdüyü bir vaxtda haqq-hesab çəkmək yox, bu yanğını körükləyən istənilən tərəfin oyununa mane olmaq lazımdı. Deyəsən, heç kəslə razılaşmamağımın səbəbini anlada bildim".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev isə xüsusən bayram günlərində radio ilə bağlı baş verən gəlişmə və yayılan açıqlamalarla bağlı danışdı. Müsahibimiz dedi ki, ümumən radio ilə bağlı "korrupsiya ittihamları"nın olması həqiqəti əks etdirmir:** "Radio dövlət orqanı deyil ki, orada korrupsiya faktı olsun. Hər hansı maliyyə pozuntularının baş verməsinə gəlincə, deyə bilmərəm ki, nəsə baş verib, olub, ya yox. Amma mən deyim ki, bizdə jurnlistlərin bir-biri haqqında, köhnə iş yerləri ilə bağlı qəribə açıqlamalarla çıxış etməsi geniş yayılıb. Kimi bəlkə köhnə heyfini çıxır, ya da hansısa çatışmazlığı, maliyyə pozuntusunu bilərəkdən qabardır. Amma hər halda, hətta o deyilənlərin müəyyən bir qismi də doğrudursa, bunu KİV-in fəaliyyətini məhdudlaşdırmadan da araşdırmaq mümkün idi. Burda başqa proseslər gedir. Bunlar yəqin ki, əsl mahiyyətdən kənarda olan proseslərdir".

**Bundan sonra radio ilə bağlı hansısa addımların atılacağı ehtimalına gəlincə, müsahibimiz hesab edir ki, həbs olunan jurnalistlər, KİV-in fəaliyyəti ilə bağlı ilin ortalarına doğru yumşalma olmalıdır:** "Birincisi, ona görə ki, əsas oyunçular sıradan çıxarılıb. İkincisi, Azərbaycanın daxilində siyasi aksiyalar və böyük beynəlxalq tədbirlər gözlənilir. Neftin qiyməti ilə bağlı ciddi proseslər baş verir. Məsələlərin məntiqi araşdırılmasına doğru meyl olmalıdır. Bu mühit bəlkə imkan verə bilər ki, problemləri ağıllı-başlı müzakirə üsulu ilə yoluna qoysunlar".

**A.Əliyevin fikrincə, indiki halda söhbət problemlərin həllindən yox, sanki ayrı-ayrı oyunçuların, tərəflərin sıradan çıxarılmasından gedir. Müsahibimiz dedi ki, hər hansı dövlət orqanında korrupsiya faktı aşkarlananda o orqanı bağlamırlar, onun qapısına möhür vurmurlar:** "Eyni məntiqlə AzadlıqRadiosu ilə bağlı da eyni ssenari olmalı idi. Yəni fəaliyyəti dayandırma olmamalı idi. Bütün bunlar ətrafa yayılan dalğalardır".

**Respublika Prokurorluğunun mətbuat xidmətindən isə AzadlıqRadiosu ilə bağlı aparılan istintaqın gedişatı ilə bağlı məlumat almaq mümkün olmadı.**

❑ **Sevinc TELMANQIZI**



## İslam Partiyasının sədri atasının dəfninə buraxılmadı

### AİP ölkə başçısına müraciət edəcək

**Hazırda həbsdə olan İslam Partiyasının sədri Mövsüm Səmədovun atası Mərdan Səmədov vəfat edib. M.Səmədov yanvarın 5-də axşam saatlarında vəfat edib, mərhumun dəfn mərasimi yaşadığı Quba şəhərində keçirilib.**

Bu barədə M.Səmədovun vəkili Anar Qasımlı məlumat yayıb. Vəkil vaxt itirmədən müvəkkilinin dəfn mərasiminə buraxılması üçün dərhal aidiyyəti qurumlara müraciət edib. Ancaq gün ərzində gözlənilsə də, M.Səmədovun atasının dəfn mərasimində iştirak etməsinə icazə verilməyib.

Bizimlə söhbətində İslam Partiyasının sədr əvəzi Elçin Manafov bildirdi ki, M.Səmədovun vəkili və eləcə də bir neçə QHT AİP sədrinin atasının dəfnində iştirakına şərait yaradılması üçün müraciət etsə də, müraciət nəticəsiz qalıb. E.Manafov partiya rəhbərliyinin ölkə başçısına müraciət etməyə hazırlaşdığın bildirdi: "Biz özümüz də hazırlaşırıq ölkə başçısına müraciət edək. Mövsüm Səmədov atasının yeganə oğlu idi. Dəfnində iştirakına icazə verilmədi, heç olmasa yas mərasimində iştirak etməsinə şərait yaradılsın".

❑ **KƏNAN**

## Sevinc Osmanqızına qarşı cinayət işi açıldı və məhkəməsi başladı

### Tanınmış jurnalisti məhkəməyə verən şəxs keçmiş həyat yoldaşıdır



Sevinc Osmanqızı

**Tanınmış jurnalist Sevinc Osmanqızına qarşı cinayət işi açılıb. Bu barədə jurnalistin hüquqlarının müdafiəçisi Elmira Sarıyeva modern.az-a məlumat verib. Jurnalistə qarsı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147-ci (böhtan atma) və 148-ci (təhqir etmə) maddələri ilə cinayət işi açılıb.**

İş Nərimanov Rayon Məhkəməsinin hakimi Məzahir Sadıxovun icraatına verilib. Hüquq müdafiəçisinin verdiyi məlumata görə, bundan əvvəl qarşı tərəf tanınmış jurnalisti xarici xidmət orqanları ilə əməkdaşlıq etməkdə ittiham edib.

Teleqraf.com xəbər verib ki, hakim Məzahir Sadıqovun sədrliyi ilə keçirilən prosesdə iddiaçı tərəf, S.Osmanqızının keçmiş həyat yoldaşı Azər Xəlilovun nümayəndələri vəsatətlə çıxış edib. Onlar Sevinc Osmanqızının məcburi şəkildə gətirilməsini tələb ediblər. Sevinc Osmaqızının vəkili bildirib ki, uşaqları xarici ölkədə təhsil alır və onun Bakıya gəlmək imkanı yoxdur. Məhkəmə isə vəsatəti baxılmamış saxlayıb.

Daha sonra hakim bildirib ki, Sevinc Osmanqızı ilə bağlı Dövlət Statistika Komitəsinə, Dövlət Sərhəd Xidməti və digər dövlət qurumlara sorğular göndərilib. Hakimin sözlərinə görə, hələlik sorğuya cavab verilməyib. Məhkəmə iclası yanvarın 13-ü davam etdiriləcək.

S.Osmanqızı "Yeni Müsavat"ın bu mövzu ilə bağlı sualına cavabda isə bildirib ki, məsələni araşdırandan sonra bu barədə ətraflı danışacaq.

**"Yeni Müsavat" xatırladır ki, keçmiş ər-arvad arasında qarşılıqlı ittihamlar ötən ilin may ayından başlanıb. Həmin vaxt jurnalist Eynulla Fətullayevin "Ceyhun Osmanlının erotik kino biznesi" adlı araşdırmasında ANS-in Vaşinqton müxbiri Sevinc Osmanqızının da adı çəkilmişdi. Həmin vaxt S.Osmanqızı bütün yazılanları keçmiş əri Azər Xəlilov və qardaşı Vüqar Xəlilov xəstə təxəyyülünün məhsulu adlandırmışdı:** "Mən ayrılandan və uşaqlarımla bərabər Amerikaya yola düşəndən bəri mənə və ailə üzvlərimə qarşı, özlərinin dediyi kimi,"vendetta" elan ediblər. İki ildir ki, haqqımda anonim yazmaqla məşğuldurlar. Öz adlarını göstərməyə də cürət etmirlər. Bu həmin qardaşlardır ki, analarını İngiltərəyə aparmaq üçün Azərbaycan rəhbərliyinə qara yaxır. BBC jurnalistlərinin guya Azərbaycanda sıxışdırıldığını iddia edirdilər. Onların siyasi sığınacaq üçün müraciəti bu gün də Böyük Britaniyanın Azərbaycandakı səfirliyindədir. Mən elə bu ailənin çirkin əməllərinin, vətənə, dövlətə xainliyinin şahidi oldum və birdəfəlik ayrıldım. Onların bugünkü əməlləri bir daha sübut edir ki, düz hərəkət etmişəm".

**V.Xəlilov isə cavabında S.Osmanqızını uşaqlarını Amerikaya qeyri-qanuni yolla, icazəsi olmadan, xəlvəti şəkildə aparmaqda ittiham etmişdi:** "ABŞ səfirliyi onlara viza verərkən mənim icazəmin olub-olmadığını nəzərə almayıb və beləliklə, azərbaycanlı uşaqları qanunsuz şəkildə Amerikaya qaçırılmasında sabiq əməkdaşı S.Osmanqızına (çox guman ki, xidmətlərinə görə) köməklik edib. Uşaqlarımın Azərbaycandan Türkiyə üzərindən Amerikaya aparılmasında Amerikanın xüsusi xidmət orqanlarının və ölkəmizdəki nurçu şəbəkənin bəzi üzvlərinin müəyyən rol oynadığını istisna etmirəm. Hesab edirəm ki, S.Osmanqızının bəyanatı yalan və böhtanlardan başqa bir şey olmamaqla yanaşı, onun arxasında duran "dirijorları" da açıq-aşkar ifşa edir. Təbii ki, böhtan və iftiralar yayan hər bir kəs, buna görə qanun qarşısında məsuliyyət daşımağa da hazır olmalıdır".

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 2 (6030) 7 yanvar 2015



# Ağ qaranı üstələməsə...

Hüseynbala SƏLİMOV

**Yaxşı ədəbiyyat qəliz ölkələrdə, bəzən insanların əsl azadlığa tamarzı olduğu bölgələrdə yaranır. Ona görə də eşidəndə ki, 2015-ci ili Rusiyada ədəbiyyat ili elan ediblər, bu, mənə o qədər də təəccüblü görünmədi.**

Həm də ümidsiz olmadım. Düzdür, son illərin rus ədəbiyyatı və kinosu ilə elə bir tanışlığım yoxdur. Baxdıqlarım, oxuduqlarım isə məndə elə bir ruh yüksəkliyi yaratmayıb...

Amma inanıram ki, Rusiyada nəsə yarana bilər, o səbəbdən ki, burada ədəbi ənənələr də var və bu ənənələr müəyyən qədər ümidvericidir...

Lap uzağı bu ölkədə layiqli bir ədəbiyyatın yaranması mənim problemim deyil, indi biz bir o qədər də rus ədəbi proseslərindən asılı deyilik, baxmayaraq ki, dünya ədəbiyyatının da əksər nümunələri bizə rus dilində gəlib çatır...

Mənim qayğım daha böyükdür. Mən özümüzü, öz cəmiyyətimizi başa düşməyə cəhd edirəm. Amma hələ bir nəticə hasil etməmişəm. Maraq məni Erix Fromma qədər aparıb çıxardı. O, maraqlı suallar qoyur. Biz normal insanlarıqmı? Cəmiyyət ruhi baxımdan xəstə ola bilərmi? Demirəm ki, onun bütün baxışlarını bölüşürəm.

Amma bir cəhət mənə maraqlı göründü: söhbət normallıqdan gedir... Tez-tez deyirik ki, filankəs normal alamdır, bizim cəmiyyətimiz normal cəmiyyətdir...

Amma bəzən bu normallıq şərtilikdən uzağa getmir, bizim normal adlandırdığımız nəsnələr çox problemli subyektlər kimi təzahür edir. Amma o da var ki, normal və anormal bölgüsü tək bizim üçün xarakterik deyil...

Fəqət, bu, mütləq bölgü də deyil və bəzən özündə elə bir dərin mənanı ehtiva etmir: təxminən ona bənzəyir ki, siz nöqtə boyda olan ulduzları normal, amma bir az parlaqlarını anormal adlandırasınız...

İnsanların normal adlandırdıqları şeylər həmişə mübahisəli olur. Əvvəldə rus ədəbiyyatının adını nahaq yerə çəkmədim...

F.Dostoyevskinin knyaz Mışkini o qədər anormal görünürdü ki, onu hətta ən liberal adamlar belə normal insan kimi qəbul edə bilmirdilər... Amma Dostoyevski bu obrazla əsl "gözəl insan" surətini yaratmağa cəhd etmişdi...

Bizdə vəziyyət daha qəlizdir. Amma niyə ki? Kamil insan axtarışları Şərqin, elə o cümlədən də, Azərbaycanın ictimai-ədəbi fikrinin əsas problemi olmayıbmı? Olub. Nizami buna cəhd edib, Füzuli buna çalışıb...

Amma mənim sözüm bunda deyil. Məni bu günün insanı və cəmiyyəti maraqlandırır. Erix Fromm yazır ki, heç bir ictimai quruluş insanlara yeni və fövqəladə keyfiyyətlər vermir, onlar insanda lap əvvəldən olur. İctimai quruluş sadəcə, selektiv lakmus kağızı kimi bu və ya digər rəngləri üzə çıxarır.

Bunu necə başa düşmək olar? Deyirlər ki, vərəm çöpləri hamıda olur. Amma o xəstəliyə xüsusi şəraitlərdə çevrilə bilir.

Görünür, mənfi sosial keyfiyyətlər də belədir. Onlar hamıda ta əzəldən olurlar.

Sadəcə, bəzi ictimai quruluşlar onları qabardır. Tutaq ki, rüşvətə və yaxud da ki, "seksual ekzotikalara" meylli insanlar hər yerdə var. Amma fərqli quruluşlar onlara müxtəlif dərəcədə reaksiya verir, elə quruluşlar var ki, rüşvət alan adam orada sözün əsl mənasında çiçəklənir. Elə quruluşlar da var ki, orada əksinə, bu hisslər tamam cilovlanır...

Bunun məğzi budur. Amma mən bu fikirlərdə bi qədər natamamlıq görürəm.

Əgər bizim hiss və duyğularımız, keyfiyyətlərimiz ictimai quruluşa yalnız və yalnız passiv reaksiya versəydi onda ictimai quruluşlar heç dəyişməzdi, onlar əbədi olardı. Amma quruluşlar dəyişir...

Mənə həmişə elə gəlib ki, bütün insanlarda müsbət başlanğıclar olur. Bütün insanlarda azacıq da olsa müsbət keyfiyyətlər mənfi keyfiyyətləri üstələyir və müəyyən mənada ictimai quruluşların yaxşılığa doğru dəyişməsinə təkan verir.

Bu keyfiyyətlər hamıda var. İnsanlar ağ və qara, yalnız yaxşı və pis olmurlar.

Bayaq dediyim kimi, bütün insanlarda ağ rəng azacıq da olsa qara rəngi üstələyir. Buna həm də inanmaq lazımdır. Bir neçə dəfə yazmışam ki, dünya bu vaxta qədər iki böyük partiyanın meydanı olub: tərəqqiyə inananlar olub və bir də inanmayanlar...

Tərəqqiyə o insanlar inanıblar ki, onlar əvvəldən ağ rəngin qara rəngi azacıq da olsa üstələdiyinə inanıblar. Buna inanmasan yaşamaq, mübarizə aparmaq və dəyişikliklərə nail olmaq qeyri-mümkün olar. Bizim nağıllarda var bu: iki qoç, ağ və qara qoçlar haqqındakı əfsanəni xatırlayırsınızmı? Qara qoç qaranlıq, ağ qoç isə işıqlı dünyaya aparırdı. Qəhrəmanlar həmişə ağ qoçu seçir və işıqlı dünyaya can atırdı, çünki işığın cazibəsi daha böyükdür...

**Son bir ildə ölkənin QHT qanunvericiliyinə edilən dəyişikliklər ictimai qurumların işinə bir çox problemlər yaratdı. Bu dəyişikliklər media əhlindən də yan ötmədi. Çünki QHT-lərlə jurnalistlər arasında həmişə sıx əməkdaşlıq olub.**

# "Başqa yolumuz qalmadı..."

## "Mediaforum.az"ın baş redaktoru: "Kollektiv 2014-cü ilin tən yarısını maaşsız işləyib"

*Bu əməkdaşlıq problemlərin də yükünün birgə çəkilməsinə gətirib çıxardı. Yerli QHT-lərdən birinin - "İnternyus Azərbaycan" İctimai Birliyinin layihəsi olan "Mediaforum.az" saytı bu ilin əvvəlindən fəaliyyətini dondurub, kollektivini məzuniyyətə göndərməyə məcbur oldu.*

*Səbəb budur: qanuna edilən dəyişikliyə görə, hər hansı QHT öz layihəsini qrant müqaviləsi əsasında reallaşdırırsa, həmin müqaviləni Ədliyyə Nazirliyində qeydiyyatdan keçirib bildiriş almalıdır. Nazirlikdən bildiriş ala bilməyən QHT öz layihəsi ilə bağlı bank əməliyyatı apara bilməz. "İnternyus Azərbaycan" İctimai Birliyi öz layihələrinə, eləcə də "Mediaforum.az" layihəsinə nazirlikdən bildiriş ala bilməyib.*

*Nəticədə bu layihələrin hamısının fəaliyyətini dondurmaq məcburiyyətində qalıb. "Mediaforum.az" saytının baş redaktoru Azər Qaraçənli "Yeni Müsavat" qəzetinə müsahibəsində hazırkı vəziyyətlə bağlı suallarımızı cavablandırıb.*

***- "İnternyus Azərbaycan" İctimai Birliyi öz layihələrinə Ədliyyə Nazirliyindən bildiriş almaq üçün hansı addımları atır?***

- Lazım olan bütün addımlar atılıb. "İnternyus Azərbaycan" İctimai Birliyi özünün hər bir layihəsi, o cümlədən "Mediaforum.az" layihəsi ilə bağlı Ədliyyə Nazirliyinə tələb olunan bütün sənədləri, məlumatları təqdim edib.

Bu proses aylarla davam edib, nazirliklə dəfələrlə yazışmalar, məktublaşmalar olub. Təşkilatımız xarici donorlarla bağladığı qrant müqavilələrini, layihə mətnlərini tərcümə etdirib, sənədləri, tərcümələri rəsmi şəkildə notariusda təsdiqlədib nazirliyə göndərib. Aydın məsələdir ki, bu işləri reallaşdırmaq üçün vəsait xərclənib. Heç kim o sənədləri havayı tərcümə etməz, notarius da ödənişli əsasda işləyir.



**Azər Qaraçənli: "6 ay gözlədik ki, bildiriş veriləcək, maaşımızı alacağıq, deyirlər mexanizmin işə salınmasını gözləyin, biz də gözləyirik"**

Ancaq indiyədək bildiriş verilmədiyinə görə nəticə belə alınıb ki, təşkilat qrant vəsaitini almaya-almaya həmin qranta pul xərcləməli olub. Yəni qrantı alıb layihəyə sərf etməli olduğu halda, almadığı qranta pul sərf edib. Bütün bunlar isə borc-xərc hesabına başa gəlib və təşkilatı əlavə ziyana salıb. Hazırda bizim edə biləcəyimiz bir iş qalmayıb. Eləcə bildiriş verilməlidir.

***- Nə üçün verilmir?***

- Bunun rəsmi izahı belədir ki, layihələrin qeydiyyata alınıb bildirişlərin verilməsi mexanizmi hələ hazırlanıb başa çatmayıb, yəni bu mexanizm hələ işə salınmayıb, ona görə də gözləmək lazımdır.

Biz də gözləyirik. Biz bunu 6 aydan çoxdur gözləyirik. 2014-cü ilin iyul ayının 3-dən "İnternyus Azərbaycan" İctimai Birliyi öz layihələri ilə bağlı qrant vəsaitini bankdan çıxara bilmir, yəni bank əməliyyatı apara bilmir. Çünki həmin vaxtdan bank qanuna edilmiş dəyişikliyə əsaslanaraq bizdən tələb edir ki, Ədliyyə Nazirliyindən bildiriş gətirin. Bildiriş isə yoxdur.

***- Deyirsiniz 6 aydan çoxdur "İnternyus Azərbaycan" İctimai Birliyi bankdan pul çıxara bilmir. Deməli, 6 aydan çoxdur təşkilatın pulu yoxdur. Amma bu müddətdə təşkilatın layihəsi olan "Mediaforum.az" saytı fəaliyyət göstərib axı. Pulsuz işləmisiniz?***

- Bəli. "Mediaforum.az" saytının kollektivi 2014-cü ilin tən yarısını maaşsız işləyib. İyul, avqust, sentyabr, oktyabr, noyabr və dekabr aylarının maaşlarını almamışıq. Həm də məsələ tək "Mediaforum.az" layihəsində deyil, "İnternyus Azərbaycan" İctimai Birliyinin bütün layihələrində vəziyyət belədir.

6 ay işləyə-işləyə gözlədik ki, bildiriş veriləcək, maaşımızı alacağıq. Ancaq bu məsələ həllini tapmadığına görə, nəhayət, dayanmalı olduq. Başqa yolumuz qalmadı. "İnternyus Azərbaycan" İctimai Birliyi qeyri-kommersiya təşkilatıdır, onun qrant vəsaitindən ayrı bir maliyyə mənbəyi yoxdur.

"Mediaforum.az" saytı da həmişə qrant müqaviləsi əsasında, yəni maliyyə yardımı ilə fəaliyyət göstərib. Saytımızın reklam gəliri yoxdur. Üstəlik, aydın məsələdir ki, sayt işləyəndə maaş almasaq belə, yenə xərclər, telefon haqqı, internet pulu, kommunal xərclər çıxır. Bütün bunların hamısı isə dediyim kimi, bu yarım ildə borc-xərc hesabına olub.

Bir mühüm məqamı da deyim: "İnternyus Azərbaycan" İctimai Birliyinin əməkdaşları 6 ayın maaşlarını almasa da, təşkilat bu dövrün yarısının - 3 ayının əmək haqları ilə bağlı bütün vergi ödənişlərini yerinə yetirib, yəni maaşların vergisini ödəyib. Daha bundan artıq biz heç nə edə bilmərik. Bildirişin verilməsini gözləyirik.

***- Necə fikirləşirsiniz, Ədliyyə Nazirliyindən bildiriş almaq mümkün olacaqmı, yoxsa "Mediaforum.az" saytının birdəfəlik bağlanma təhlükəsi var?***

- Deyirlər, mexanizmin işə salınmasını gözləyin, biz də gözləyirik. Hər halda, mexanizm işə düşəndən sonra nəhayət ki, nazirlik bizim müraciətlərə ya hə, ya da yox deyəcək. Məntiqlə nə vaxtsa belə olmalı, qeyri-müəyyənlik aradan qalxmalıdır. Sualınızın cavabı da onda bilinəcək.

❑ Emil SALAMOĞLU

# İTV Anar Yusifoğlunun təyinatını təsdiqlədi

**İctimai Televiziya və Radio Yayımları Şirkətində yeni təyinat olub. "Aktual.az-ın redaktoru Anar Yusifoğluna İctimai Televiziyada vəzifə verilməsi xəbəri doğrudur. O, yaxın günlərdə İTV-də işə başlayacaq".**

Bu barədə modern.az-a İctimai Televiziyanın İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat veriblər.

Məlumatda qeyd edilir ki, Anar Yusifoğlu İctimai Televiziyanın İnformasiya və İctimai-Siyasi Proqramlar Departamentinin direktor müavini təyin edilib.



Anar Yusifoğlu

YENİ MÜSAVAT
N 2 (6030) 7 yanvar 2015

**Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla 17 partiya liderinin görüşündən 1 aya yaxın vaxt keçir. 13 dekabr görüşündə əsas müzakirə olunan məsələlər sırasında siyasi məhbusların azad olunması məsələsinin olduğu bildirilirdi. Həmin görüşdən təxminən 15 gün sonra ölkə prezidenti İlham Əliyev əfv fərmanı imzaladı. Əfv fərmanı ilə azadlığa buraxılan 87 nəfərdən 10-u adları siyasi məhbus siyahısında olan şəxslər idi.**



Musavat

# Əli Həsənovla görüşün davamı və nəticəsi olacaq?

## Müxalifət "bir ay da gözləyək" deyir

Əli Həsənovla görüşün təşəbbüskarlarından olan və görüşün baş tutmasında kuratorluq missiyasını həyata keçirən KXCP sədri Mirmahmud Mirəlioğlu ilə dünən əlaqə saxladıq. Növbətin görüşün olub-olmayacağı, aradan keçən müddətdə görüşün nəticələrindən razı qalıb-qalmadıqları ilə maraqlandıq.

**Mirmahmud Mirəlioğlu bildirdi ki, 13 dekabrda keçirilən görüşün üstün cəhətlərindən biri bu idi ki, kənardan kimsənin təşkilatçılığı, təşəbbüsü olmadan bu görüş reallaşdı:** "Təşəbbüs Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzindəki partiyalar tərəfindən qaldırıldı. İqtidar tərəf təşəbbüsə qatıldı və müsbət qarşılıq verildi. Ötən müddətdə çeşidli münasibətlər, addımlar oldu. Görüşdə də siyasi məhbuslarla bağlı məsələlərin ölkə başçısına məruzə ediləcəyi razılaşdırıldı. Bundan sonra əhatəli dialoqun olması da razılaşdırılıb. İlkin addım atılıb. Görüş baş tutub. Amma o görüşdə əldə olunan razılıqlar var idi. Siyasi məhbuslarla, dialoqla bağlı razılıqlar idi. Başlıcası isə siyasi məhbuslarla bağlı məsələ. Cəmiyyətin gözləntiləri özünü doğrultmadı. Daha çox siyasi məhbusun əfvi gözlənilirdi, istənilirdi. Danışıqlarda da əsas prioritet mövzu bu idi. Təəssüflər olsun ki, gözləntilər özünü doğrultmadı. Əfvlə azad olunan siyasi məhbusların sayının azlığı baxımından özünü doğrultmadı. Təbii ki, biz azad olunan şəxslərin də azadlığa buraxılmasını, ailələrinə qovuşmasını alqışlayırıq".

**KXCP sədri onu da dedi ki, 13 dekabr görüşündə bir razılaşma var ki, iki ay müddətində yeni bir addım atılacaq. Ona görə də gözlənilən odur ki, yaqin yaxın bir ayda yeni gəlişmələr olacaq:** "Addımlar hakimiyyət tərəfindən atılmalı olacaq. Bizim də bu məsələyə münasibətimiz ortadadır. 11 partiyanın iştirak etdiyi Demokratiya və İnsan Haqları Mərkəzinin yanvarın 7-də keçiriləcək toplantısında da bu məsələlər müzakirə ediləcək".

❑ **E.SEYİDAĞA**

# YAP-dan Kramerin sanksiya və boykot çağırışına reaksiya

**"Freedom House"un sabiq prezidenti, hazırda Vaşinqtondakı McCain İnstitutunun baş direktoru Devid Kramerin Azərbaycana qarşı sanksiya çağırışı gündəmin əsas müzakirə mövzularındandır. Kramer AzadliqRadiosunun ofisinin bağlanması ilə Azərbaycana qarşı sanksiyaların tətbiq olunmasını tələb edib.**

O, müəllif məqaləsində Azərbaycanda keçiriləcək Avropa Yay Oyunlarının boykot edilməsi haqda təşəbbüs irəli sürüb, həmçinin Avropa liderlərini Soçi Olimpiadasında olduğu kimi açılış mərasimində iştirakdan imtina etməyə çağırıb.

Müəllifin fikrincə, belə bir addım bu oyunların Bakıda keçirilməsini "tarixi hadisə və böyük uğur" kimi qələmə verən Azərbaycan hakimiyyətinə cavab olardı. Xatırladaq ki, 2013-cü ildə Soçi Olimpiadası Almaniyanın kansleri Angela Merkel, ABŞ prezidenti Barak Obama, Litva prezidenti Dalya Qribauskayte, Böyük Britaniyanın baş naziri Devid Kemeron, İsrailin baş naziri Netanyahu, Polşa prezidenti Bronislav Komorovski, Gürcüstanın dövlət başçısı Georgi Marqvelaşvili, Moldova prezidenti Nikolay Timofti, Estoniya prezidenti Toomas Xendrik İlves və bir sıra digər dövlət və hökumət başçılarının iştirakı olmadan keçirilmişdi. Azərbaycanın xüsusi önəm verdiyi birinci Avropa Yay Oyunlarının boykot edilməsi çağırışları bu mənada narahatlıq doğurur. Bəs ekspertlər nə düşünür, Avropa oyunlarını Soçi Olimpiadasının taleyi gözləyə bilərmi?



**Hikmət Hacızadə:**
"Ola bilsin, kimsə yarışlara gəlməsin..."



**Aydın Mirzəzadə:**
"Devid Kramer bu açıqlaması ilə Azərbaycana olan nifrətini ifadə edib"

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyir ki, Avropa oyunları kimi mötəbər tədbirə hazırlaşan ölkə gərək özü "sanksiya olsun, olmasın" kimi müzakirələrin genişlənməsinə rəvac verməsin:** "Hələ ki Kramerin xaricində hansısa amerikalı və avropalı rəsminin və diplomatın dilindən "Avropa oyunları boykot edilsin" kəlməsini eşitməmişəm. Birincisi, bu, Avropa oyunlarıdır, Kramer isə ABŞ vətəndaşıdır. ABŞ Avropaya aid olmadığından onsuz da bu oyunlara qatılmayacaq. Digər tərəfdən, əgər Kramerin sanksiya tələbinə Vaşinqtonda diqqət yetirmirlərsə, Brüsselin ciddi yanaşacağını güman etmək çətindir". **Ancaq E.Şahinoğluna görə, bu, o demək deyil ki, Avropa Oyunlarını heç bir təhlükə gözləmir:** "Hələ vaxta var və rəsmi Bakı mübahisəli məhbus problemini həll etməlidir. Əgər əsas məqsəd xarici qrantların Azərbaycana axınını əngəllmək idisə, rəsmi Bakı bu istəyinə nail oldu. Bu gün yerli QHT-lərdən heç biri ABŞ və Avropa Birliyindən maliyyə almır. Bank hesabları dondurulub, yeni qrantlardan isə söhbət belə getmir. Vaşinqton və Brüssel isə rəsmi Bakıya "qrant layihələrini niyə əngəlləyirsiniz" kimi sual ünvanlamır. Odur ki, vaxtilə qrant layihələri əsasında fəaliyyət göstərən şəxslərin həbsxanada saxlanılmasına ehtiyac yoxdur. Məsələnin hüquqi tərəfi bir yana, həmin şəxslər siyasi mənada artıq hakimiyyət üçün təhlükə mənbəyi deyillər. Ona görə də ən yaxşısı Avropa Yay Oyunları başlayana qədər mübahisəli məhbus mövzusunun gündəmə qaldırılmasıdır. Əks halda, həm "olimpiya boykot edilsin" mövzusu gündəmdən düşməyəcək".

**Politoloq Hikmət Hacızadə deyir ki, Avropa Oyunları ərəfəsində Azərbaycana qarşı sanksiya çağırışı gözlənilən idi:** "Çünki Qərbin idman mədəniyyəti ələhiddə anlayış deyil. Bu, böyük Qərb, Avropa mədəniyyətinin içərisində gedir. O mədəniyyətin də böyük hissəsi humanistlik, insan haqları, azadlıqdır. Ona görə də biz hamımız belə çağırışların olacağını gözləyirdik. Hamı da gözləyirdi ki, bizim hakimiyyət bu oyunlar ərəfəsində siyasi dustaqları buraxmağa başlayacaq. Ancaq hələ ki biz ilk addımları görürük. Buna da şükür, baxaq görək başqa bayramlarda necə olacaq. Prinsipcə, əgər hökumətiniz tərəfindən heç bir addım olmasa, bu çağırışlar güclənəcək". **H.Hacızadə Avropa Oyunlarının boykot edilməsi ehtimalına konkret fikir bildirməyin çətin olduğu qənaətindədir:** "Ola bilsin, kimsə yarışlara gəlməsin, yaxud turistlərin sayı azala bilər. Bu, dünya təcrübəsində ilk mübahisəli beynəlxalq yarış deyil. Biz tanış bir mənzərə ilə rastlaşırıq, yeni bir şey görmürəm. Ancaq sanksiyalar asan deyil".

**Məsələyə hakim partiyadan da reaksiyalar gəlib. Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin sədr müavini, YAP-çı deputat Aydın Mirzəzadə "salamnews"a açıqlamasında bildirib ki, Devid Kramer bu açıqlaması ilə Azərbaycana olan nifrətini ifadə edib. Deputat "Fredoom House" təşkilatının əvvəllər də Azərbaycana qarşı qeyri-obyektiv və aqressiv mövqe tutduğunu diqqətə çatdırıb:** "Bu təşkilatın məqsədi ölkəmizi dünyada müxalifətsiz və qeyri-demokratik ölkə kimi tanıtmaqdır. Ancaq Azərbaycan öz dövlətçiliyini və vətəndaşlarına qarşı münasibətini hansısa kramerlərin verdiyi qiymətlə deyil, özünün tarixi məsuliyyəti və qayğısı sayəsində həyata keçirir. Əslində Devid Krameri danışdıran anti-Azərbaycan qüvvələridir. Bunlar erməni diaspor təşkilatları, Azərbaycanda öz şəxsi mənafeləri üçün çalışan, ancaq heç nə əldə edə bilməyən və ölkəmizin müstəqilliyini istəməyən müəyyən siyasi-iqtisadi dairələrdir".

❑ **Cavid TURAN**

# Ziyarətin cinayətə bərabər tutulduğu ölkə



**Xalid KAZIMLI**

**Məhkumları Fəxri Xiyabanı ziyarət etmək şərti ilə əfv edib azadlığa buraxmaq ənənəsi nə qədər qeyri-humanist aktdırsa, ziyarət edənlərin üzərində qınama kampaniyası təşkil etmək də eyni işdir.**

Hər şeyi insanların öz vicdanına buraxmaq lazımdır: ziyarət etmək istəyən etsin, etmək istəməyən, etməsin.

Biri heykələ baş əyməyi əfv edənə minnətdarlıq jesti kimi anlayırsa, qəbul edirsə, onu bundan məhrum etmək olmaz. Qoy borcunu ödəsin.

Başqa biri üçün bu sınmazlığın, əyilməzliyin simvoludursa və heç cür etmək istəmirsə, hesab edirsə ki, bu hərəkət onun avtobioqrafiyasına yazıla bilər, gələcəkdə baş töhmətinə çevrilər, siyasi karyerasına zərbə vurar, qoy etməsin.

Adam baş əymir və əfv olunmur, bir neçə il artıq cəza, əziyyət, iztirab çəkir. Nəhayət, o da azadlığa çıxır. Məlum olur ki, azadlığa çıxıb baş əyənlə onun siyasi statusu, ictimai nüfuzu, maddi durumu arasında fərq ya yoxdur, ya da o birisi daha üstündür, amma bunun da mənəvi rahatlığı var.

Bununla belə, əfv ərizəsi yazmağın, Fəxri Xiyabanı ziyarət etməyin, heykələ baş əyməyin gələcəkdə ona hər hansı bir problem yaratmayacağını düşünən, siyasi karyera hayında olmayan məhkumlar da var ki, onları nə qınamaq olar, nə də bu qınaqla nəsə əldə etmək.

Belə şəxslərə qarşı hücumçu mövqeyində o şəxslər ola bilər ki, onlar da eyni maddələrlə, eyni şərtlərlə, eyni müddətdə cəza çəkiblər, amma sona qədər dəyanət göstəriblər, bağışlanma xahişi etməyiblər.

Hətta yenə də özünə, öz əqidəsinə hörmət edən səbatlı, təmkinli keçmiş məhkum özünə sığışdırıb sabiq türmə yoldaşına "bax, sən əfv yazdın, baş əydin, çıxdın, amma mən yazmadım" deməz.

İndiyədək Fəxri Xiyabanı ziyarət etmək və heykələ baş əymək şərti ilə azadlığa çıxanlar çox olub. Onların bir çoxunun sonrakı fəaliyyəti tamamilə başqa cür alınıb, bu adamlar yenə də müxalif mövqedə dayanıblar və bir də heç vaxt hakimiyyətə yarınmaq, xoş gəlmək üçün hansısa addım atmayıblar. Bir çoxlarının başəymə prosedurundan keçməsi də unudulub. *(Hərçənd o hərəkəti yadda saxlayanlar da olmamış deyil. Bir gün adam rəqibə çevrilendə mütləq "türmədən çıxanda baş əydin" ittihamı ilə üzləşəcək).*

Hazırda jurnalist Əvəz Zeynallıya qarşı da bənzər ittihamlar var. O, iki gün öncə Şəhidlər Xiyabanında, Fəxri Xiyabanda olaraq bir çox tarixi şəxsiyyətlərin məzarını ziyarət edib. Ancaq bu ziyarətlər barədə informasiya verərkən daha çox Zeynallının Əliyevlərin məzarını ziyarət etməsinə vurğu salınır.

Əslində məsələyə bu cür yanaşan jurnalistlərin hərəkəti də normaldır. Çünki Əvəz Zeynallı həbsdən çıxandan sonra yüzlərlə şəxsiyyətin məzarını ziyarət etsə də, jurnalistlər onu məhz Fəxri Xiyabanın darvazaları önündə gözləyəcəkdilər. Bu, daha maraqlıdır və əsas məsələ budur: Əvəz Zeynallı Heydər Əliyevin məzarını ziyarət edəcəkmi?

Bu ziyarəti iqtidar düşərgəsi də, müxalifət cinahı da məhək daşına çevirib. İqtidarın qənaətinə görə, Fəxri Xiyabanı ziyarət etmək təslim olmaq deməkdir, tərk-silahdır. Müxalifətin qənaəti də elədir, məsələyə "o heykələ baş əyən bizdən deyil" ehkamı var.

Ancaq Əvəz Zeynallı nə iqtidarçıdır, nə müxalifətçidir, adam azad jurnalistdir, heç kəsin qabağında haranısa ziyarət etməmək, baş əyməmək kimi öhdəliyi yoxdur.

Bu hərəkəti onun sonrakı azadlıqlarını da məhdudlaşdırmır. O, sabah mövcud hakimiyyətin ünvanına tənqid yazsa, ona "axı baş əymişdin, indi tənqid edirsən?" sualı ünvanlaya bilməyəcəklər. Ünvanlayanlar olsa da, ağır cavab alacaqlar. Eyni zamanda sabah Əvəz Zeynallı meydana çıxıb hamıdan artıq müxalifətçi olduğunu iddia etsə və bunu sübut etməyə cəhd göstərsə, ona həmin epizodu xatırladacaqlar.

Yəni nə qədər ki, Əvəz Zeynallı jurnalist kimi fəaliyyət göstərmək fikrindədir, siyasi ambisiya nümayiş etdirmir, onun həbsdən çıxdıqdan sonra atdığı bütün addımlara dözümlü yanaşmaq, öz vicdanına buraxmaq lazımdır.

İllərdən bəri mühakimə olunan bir qələm adamını simvolik xarakter daşıyan addımlara görə qınamaq olmaz və heç birimizə bu haqq verilməyib.

Ümumiyyətlə, bu sayaq bolşevik yanaşmaları ilə birdəfəlik qurtarmaq lazımdır. Bu cür qınama-pisləmələrlə, damğalamalarla siyasi uğur qazanmaq mümkün deyil.



# Demokratiyanın taleyini həll edəcək yay oyunları

Azər RƏŞİDOĞLU

**Mühüm bir il başladı. Bu il Azərbaycanda həm Avropa Yay Oyunları, həm də parlament seçkiləri keçiriləcək. Bu mühüm idman yarışının Bakıda keçirilməsi dünyanın nəzərini Azərbaycana cəlb edir. Eyni ilə "Evrovision" mahnı yarışmasında olduğu kimi "insan haqları pozulan bir ölkədə belə nüfuzlu toplantılar keçirilə bilərmi" sualı meydana çıxır.**

Avropa Yay Oyunlarının Bakıda keçirilməsi iqtidara manevr imkanları ilə yanaşı xeyli problemlər də yaradır. Neftin qiymətinin ucuzlaşdığı bir zamanda havaya milyonlarla vəsait sovrulur. Digər tərəfdən, seçki ilində Bakı diqqət mərkəzinə çıxır və istər-istəməz insan haqlarının vəziyyəti dünya mətbuatının müzakirə predmetinə çevrilir.

Şübhəsiz ki, siyasi məhbuslar azad edilməsə Avropa Yay Oyunlarının boykot olunmasının gündəmə gələcəyi gözlənilir. Artıq dünya gücləri tərəfindən belə çağırışlar eşidilməkdədir. Belə ehtimallar mövcuddur ki, bu məsələ ilə bağlı rəsmi Bakı qarşısında şərt qoyula bilər. Beynəlxalq aləm son həbslərdən çox narahatdır və hakimiyyətdən heç olmasa Avropa Yay Oyunları ərəfəsində bu siyasətə son qoymasını tələb edir.

İstisna deyil ki, yaxın aylar ərzində dünya KİV-i bu məsələni diqqətdə saxlayacaq. Siyasi məhbus problemi Azərbaycan hakimiyyəti ilə Qərb arasında prinsipial məsələyə çevrilib. Odur ki, Avropa Yay Oyunlarına qədər rəsmi Bakıdan sərt idarəçiliyə son qoyulması tələbləri daha da arta bilər. Hakimiyyət Azərbaycan üçün beynəlxalq aləmdə problemlərə yol açan siyasi məhbuslar məsələsi ilə bağlı Olimpiya oyunlarına qədər konkret addımlar atmasa bunun fəsadları ola bilər. Avropa Yay Oyunlarına siyasi məhbuslarla getməmək tələbi qarşısında iqtidar geri çəkilməyə məhkumdur. Əks təqdirdə, Avropa Yay Oyunlarının boykot təhlükəsi reallaşa bilər.

Xatırlatmaq yerinə düşərdi ki, Soçidə keçirilən Olimpiya Oyunlarını dünyanın nüfuzlu ölkələri boykot etmişdilər. Azərbaycanda keçirilməsi nəzərdə tutulan Avropa Yay Oyunlarını da eyni tale gözləyə bilər. Bu zaman isə həm Azərbaycanın imicinə böyük zərbə ola bilər, həm də ölkəyə iqtisadi ziyan dəyə bilər. Odur ki, hakimiyyət bu barədə ciddi düşünməlidir.

Avropa dəyərlərinə hörmətlə yanaşmayan bir ölkədə Avropa oyunlarının keçirilməsi məntiqə ziddir. Vətəndaş cəmiyyəti institutlarına, demokratik qüvvələrə qarşı sərgilənən davranış Avropa dəyərlərinə ziddir. Azərbaycan hakimiyyəti ölkənin zərər görməməsi naminə bu ziddiyyətin aradan qalxması üçün addımlar atmalı, ilk növbədə siyasi məhbusları azad etməlidir.

Lakin əgər bu dəfə də Qərb siyasi məhbus probleminə göz yumaraq Avropa Yay Oyunlarını iqtidarın seçkiqabağı təbliğatı aparatına çevrilməsinə rəvac verəcəksə, bu halda vəziyyət daha kritik çalar ala bilər.

Bir sözlə, iqtidar yay oyunlarını payız oyunları üçün baş məşqə çevirə bilər.

İstənilən halda, müxalifət Avropa Yay Oyunlarından bəhrələnərək, hakimiyyəti demokratiyanın inkişafı istiqamətində addımlar atmağa vadar edə bilər.

Bu baxımdan, bu mötəbər yarışla bağlı sərt mövqe sərgiləmək parlament seçkilərinə hazırlığın birinci mərhələsi hesab oluna bilərdi.

Bir sözlə, 2015-ci il Azərbaycan demokratiyasının taleyində önəmli olacaq. Bu məsələdə "qızıl orta" mövcud deyil. Ya qələbə, ya məğlubiyyət.

Müxalifətin birlik nümayiş etdirməsi və beynəlxalq təşkilatlarla daha sıx təmasda olması son dərəcə vacibdir. Yayda baş tutacaq idman yarışı payızda olacaq seçkilərin taleyini həll edə bilər...

# "Sevil Massivi"ndəki gizli sövdələşmələr ört-basdır olunur

## Adı böyük fırıldaqda keçən Mirnemət Miradiyev bələdiyyə sədri postunu oğluna ötürmək istəyir

**"Sevil Massivi"ndəki qanunsuzluğa görə barəsində cinayət işi başlanan keçmiş bələdiyyə sədri öz yerinə oğlunu gətizdirir. Son illərin ən böyük mülkiyyət qalmaqalının əsas qəhrəmanlarından olan Abşeron rayon Hökməli kəndinin sabiq bələdiyyə sədri Mirnemət Miradiyev barədə ilginc məlumatlar yayılıb. Aznews.az xəbər verir ki, "Sevil Massivi"ndəki qanunsuzluqlara görə barəsində cinayət təqibi olan və bu səbəbdən də vəzifəsindən azad olunan bələdiyyə sədri M.Miradiyev öz postuna oğlu Mirəziz Miradiyevi gətirtməyə çalışır.**




Dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mirəziz Miradiyev Hökməli bələdiyyə üzvlüyünə namizəd olub və seçilən 11 nəfərin siyahısında onun da adı var. Məlumata görə, onun seçilməsi və yanvarın sonlarında keçiriləcək ilk iclasda sədr postunu tutması əvvəlcədən planlaşdırılıb. Bunun üçün Hökməli bələdiyyəsinə namizədlərin kimliyindən tutmuş onların toplayacaqları səslərə qədər hər şey dəqiqliklə hesablanıb. Bələdiyyə üzvlüyünə namizədliyini irəli sürmüş şəxslərin əksəriyyəti illərdir bələdiyyə sədri işləyən M.Miradiyevin öz adamlarıdır. Məhz onların köməkliyi ilə bu ayın sonunda keçiriləcək sədr seçkisində oğul Miradiyevin seçiləcəyi artıq qətiləşdirilib. Onun sədr postuna hazırlanması seçkidə topladığı səslərin sayında da özünü göstərir.

Sayt Hökməli bələdiyyəsinə seçilənlərin siyahısının screen-shot-unu da təqdim edib. Həmin siyahıdan bəlli olur ki, oğul Miradıyev 1398 səslə 11 nəfər arasında birincidir. Məlumatlı şəxslər bilir ki, sədr seçkisində adətən ən çox səs toplayan şəxs sədr seçilir.

Yada salaq ki, "Sevil Massivi"ndə həyata keçirilən həbslərlə bağlı ilk məlumatı "Yeni Müsavat" qəzeti yaymışdı. M.Miradıyevi massivin rəhbəri Aynur Zeynalovla eyni gündə saxlamışdılar. Onu ilkin olaraq Vergilər Nazirliyinə çağırıb sorğu-sual edərək nəzarət altında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərmişdilər. M.Miradıyev "Sevil" MTK-ya Hökməli bələdiyyəsinin balansında olan hektarlarla torpaq sahəsini ayırıb. Bundan başqa, M.Miradıyev ərazidə qanunsuz tikintilərin aparılmasını, xüsusən vəhhabi məscidinin tikilməsini himayə etməkdə suçlandırılıb. M.Miradıyev istintaqda dindirildiyi zaman Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov dövlət orqanlarına bələdiyyə sədrinin azad edilməsi üçün müraciətlər edib.




Son nəticədə siyasi rəhbərliyi inandıra bilib ki, M.Miradıyevin vəhhabi təriqətinə aidiyyəti yoxdur, onun bu işə qol qoyması sadəcə tamahından irəli gəlib. Bundan sonra sinəsi "Tərəqqi" medallı bələdiyyə sədrini azad edibLər. "Yeni Müsavat"a daxil olan son məlumatda bildirilir ki, M.Miradiyev Hökməli bələdiyyəsinin sədri postuna oğlunu təyin etdirməklə bu postda özünün etdiyi qanunsuzluqların ört-basdır olunmasına nail olmaq istəyir. Bu posta M.Miradiyevin iradəsindən kənar digər şəxsin təyinatı Hökməli bələdiyyəsində illərlə baş verən qanunsuzluqların üzə çıxması deməkdir. Odur ki, M.Miradiyev oğlunu öz postuna gətirməklə faktiki olaraq bələdiyyə sədri postunu özündə saxlamış olacaq. Bu isə ona gizlinlərinin faş olmasını əngəlləməyə imkan verəcək.

Baş Prokurorluğun yaydığı rəsmi məlumatda bildirilirdi ki, aparılmış istintaq zamanı kooperativin həmin kooperativin direktoru Aynur Zeynalovun təsisçisi Elçin İsmayılov və digərləri ilə qabaqcadan əlbir olub 2013-2014-cü illərdə 172 min 507 manat məbləğində sadələşdirilmiş vergini dövlət büdcəsinə ödəməkdən yayınmalarında, habelə xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq alınmadan qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq 99 min 597 manat məbləğində gəlir əldə etmələrində şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən onlara Cinayət Məcəlləsinin 192.2.2 (qanunsuz sahibkarlıq) və 213.2.2-ci (vergi ödəməkdən yayınma) maddələri ilə ittiham elan edilməklə barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Eyni zamanda Abşeron rayonu Hökməli bələdiyyəsinin sədri Mirnemət Miradiyevin bələdiyyə ərazisində yerləşən torpaq sahələrini A.Zeynalov və E.İsmayılovun bilavasitə şərait yaratmaları ilə müxtəlif şəxslərə sataraq ümumilikdə sonunculardan 170 min manat məbləğində rüşvət almasında şübhələr üçün əsaslar olduğundan Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən ona Cinayət Məcəlləsinin 311.3.3-cü (rüşvət alma) maddəsi ilə ittiham elan edilməklə ağır xəstəliyi ilə əlaqədar barəsində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib. İstintaqla həmçinin müəyyən edilib ki, "Sevil Massivi" MTK-nın məsul şəxsləri M.Miradiyevlə əldə etdikləri şifahi razılaşmaya əsasən bələdiyyənin mülkiyyətində olan 30 hektar perspektiv inkişaf torpaqlarını, eləcə də ayrı-ayrı şəxslərin mülkiyyətində olan "At yalı" və "Sonalı sahəsi" adlandırılan 110 hektar örüş torpaqlarını qanunsuz olaraq zəbt edərək həmin torpaqların vətəndaşlara faizsiz kreditlə satışını həyata keçiriblər. Vətəndaşlar tərəfindən isə həmin torpaq sahələrində layihə-smeta sənədləri olmadan, dövlət qeydiyyatına alınmadan 200 fərdi yaşayış evinin tikintisi həyata keçirilib. Kredit ödənişləri başa çatdıqdan sonra bələdiyyəyə məxsus olmayan sahələr bələdiyyə tərəfindən hərraca çıxarılmaqla satılaraq vətəndaşların adlarına rəsmiləşdirilib. İstintaqın bu qərarından sonra isə bələdiyyə üzvlərinin iştirakı ilə iclas keçirilib. İclasda M.Miradiyevin bələdiyyə sədri vəzifəsindən çıxarılması barədə qərar qəbul olunub.

❑ E.HÜSEYNOV

***P.S. Yazıda adıçəkilən hər bir kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.***

# Marneulidə azərbaycanlılar "tüstü" aksiyası keçiriblər

**Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonunun Yuxarı Saral kəndində etiraz aksiyası keçirilib. APA-nın Gürcüstan bürosunun məlumatına görə, aksiyaya səbəb kəndin yaxınlığında pomidor becərmək üçün qurulan istixanaların qızdırılmasında sobada yandırılan köhnə maşın təkərlərindən yanacaq kimi istifadə edilməsi olub.**

Aksiya iştirakçıları istixanalardan çıxan tüstü ilə ətraf mühitə zəhərli maddələr yayıldığını bildiriblər. 100 nəfərdən çox kənd sakinini ərazi inzibati cəhətdən Dəmyə Görarxı icra nümayəndəliyinə daxil olan istixana təsərrüfatının rəhbəri Abbas Musayev dinlədikdən sonra onların tələblərini yerinə yetirəcəyinə söz verib.



**Dəmyə Görarxı kənd icra nümayəndəsi Heydər Həsənoğlu isə APA-ya açıqlamasında aksiya iştirakçılarının tələblərini yerinə yetirməyə çalışacaqlarını bildirib:** "Artıq kənd əhalisi ilə razılığa gəldik. Sabahdan başlayaraq sobalar yenidən təmizlənəcək və zəhərli maddələr süzən köhnə filtrlər yenisi ilə əvəz olunacaq, tüstünün ətraf ərazilərə yayılmamasının qarşısını almaq üçün qaynaq işləri aparılacaq. İstixanada çalışanlar etiraz edənlərə söz veriblər ki, bundan sonra belə sobalar kömürlə işləyəcək. Mən Dəmyə Görarxı kəndinin icra nümayəndəsi olaraq texniki nasazlığın aradan qaldırılması və sobaların standartlara uyğun istifadə edilməsinə nəzarət edəcəyəm. Çalışacam ki, Yuxarı Saral kəndinə yaxın ərazidə tikilən istixanalardan zəhərli maddələr yayılmasın".

**Öz növbəsində Yuxarı Saral kənd sakini Əli Abbasov problemin artıq həll edildiyini bildirib:** "Məqsədimiz kimisə cəriməlthmək deyil. Sadəcə olaraq, evlərimizin içinə qədər yayılan zəhərli qara tüstünün yayılmasının qarşısını almaqdır. Üzümüz, gözümüz, paltarımız, maşınlarımız qara rəngdə idi. Dəmyə Gorarxı kəndinin ərazisində qurulan və kəndimizə yaxın olan istixana təsərrüfatının rəhbərləri bizə söz verdilər ki, sabahdan problemləriniz həll olunacaq".

YENİ MÜSAVAT
N 2 (6030) 7 yanvar 2015

**2015-ci ilin gəlişi ilə Azərbaycanın siyasi mühitində canlanma hiss olunur. Demokratik düşərgə yeni illə bağlı planlarını açıqlamağa başlayıb. Noyabrda ölkəmizin siyasi mühitini əhəmiyyətli şəkildə dəyişə biləcək parlament seçkiləri keçiriləcək. Bu, ilin gərgin keçəcəyindən xəbər verir.**



# Müxalifət etiraz aksiyalarına hazırlaşır

## Düşərgə seçki ili ilə bağlı fəallığı birə-üç artırmaq niyyətindədir, siyasi dustaqlara görə mitinqlər davam edəcək; marta kimi onlar azad edilməsə, taktikaya düzəliş ediləcək...

Bu il ölkəmizdə bir sıra başqa tarixi hadisələr də yaşanacaq. Yayda Bakıda Avropa Yay Oyunları keçiriləcək. Ölkə müxalifətinin böyük kəsimi bu tədbiri boykot eləməyə çağırır. Səbəb də Azərbaycandakı siyasi məhbuslardır. Artıq Azərbaycan hakimiyyətinin qarşısına yay oyunlarına qədər siyasi məhbusları azad etmək tələbi qoyulub. Əks təqdirdə, yarışma keçiriləcəyi müddətdə etiraz aksiyalarının olacağı istisna edilmir.

Bəs müxalif düşərgə ümumiyyətlə, bu il aksiyalara nə zaman başlayacaq? Mitinqlər yenə də ayrı-ayrılıqda, yoxsa birgə keçiriləcək?

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı tezliklə aksiyaların keçiriləcəyini istisna etmir:** "Dəqiq tarixini söyləmək çətindir. Amma biz hesab edirik ki, mart ayınadək - Avropa Oyunları ərəfəsində siyasi məhbuslarımızın hamısı azadlığa buraxılmalıdır. Müsavat Məclisinin bu barədə qərarı var. Qərarda göstərilir ki, əgər həmin vaxtadək siyasi dustaqlar azadlığa buraxılmasa, Müsavat yarışları boykot edəcək, tədbiri boykota çağıracaq. Bu özü bir aksiyadır. Eyni zamanda həmin vaxta qədər məhbuslarımız yenə azad olunmasa, o zaman Müsavat Partiyası aksiyalara başlaya bilər. Bütün bunlar siyasi məhbuslarla bağlı planlarımızdır".

**Müsavat funksioneri parlament seçkiləri ərəfəsində də aksiyaların keçiriləcəyini qeyd etdi:** "Bildiyimiz kimi, bu il parlament seçkiləri olacaq. Seçki islahatlarının aparılması tələbi ilə aksiyalar ola bilər. Bununla bağlı Müsavat Partiyası yanvarın sonunda bəyanatla çıxış etmək fikrindədir".

**Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev də kütləvi aksiyaların olacağı anonsunu verdi:** "Milli Şura qarşısına qoyduğu məqsədlərin reallaşması, ölkədə söz və mətbuat azadlığının təmin olunması, insan haqlarının qorunması, sərbəst toplaşmaq azadlığının ifadə edilməsi, siyasi məhbusların azadlığa buraxılması, ölkədə normal seçki mühitinin yaradılması və digər bu kimi məsələlərin həlli ilə bağlı müxtəlif tədbirlər həyata keçirir. Belə tədbirlərdən biri də təbii ki, kütləvi aksiyalardır. Biz kütləvi aksiyaların keçirilməsinə son məqsəd, hədəf kimi baxmırıq. Sadəcə, bu, mübarizə metodlarından biridir. Milli Şuranın gündəmində bu mövzu daim var. Bundan sonra da atılacaq addımlar sırasında kütləvi aksiyaların keçirilməsi gündəmdə olacaq. Bildiyimiz kimi, yola saldığımız ilin son iki ayında Milli Şura iki belə aksiya keçirdi. Yəni bunların davamı olacaq. Çünki ölkədə bizləri narahat edən problemlər aradan qalxmayıb. Bu il seçki ilidir. Hələ də normal seçki komissiyaları yoxdur. Əgər normal cəmiyyətdə yaşasaydıq, müxtəlif mübarizə formalarından istifadə edərdik. Bütün imkanlar tükəndiyindən biz kütləvi aksiyaları zəruri addımlardan biri kimi qəbul edirik".

**Oqtay Gülalıyev Avropa Oyunları ərəfəsində həyata keçirəcəkləri planlardan da danışdı:** "Biz aksiyaları hansısa zamana uyğun seçmirik. Amma ola bilər ki, həm seçki, həm də Avropa Oyunları ərəfəsində müəyyən kampaniyalar həyata keçirilsin. Yəqin ki, zamana uyğun olacaq. İndidən bu barədə hər hansı bir fikir bildirmək tez olar".

❑ **Cavanşir ABBASLI**

# Rəsul Quliyev neft pullarına təhlükədən yazdı

## "24 milyard dollarlıq büdcəsinin azı 18 milyardı neft sektorundan əmələ gələn Azərbaycan iqtisadiyyatını ciddi sınaq gözləyir"

**"Qonşu Rusiyaya baxıb ibrət dərsi götürmək lazımdır. Neft pullarının hesabına özünü super dövlət hesab edən Putinin prezidentliyinin 2015-ci ildə başa çatması reallıqdır. 15 il hakimiyyətdə oturub neft və qazdan başqa heç bir eksport məhsulu istehsal etməyən, öz daxili tələbatının azı 40 faizini import malların hesabına bağlayan dövlətin və onun prezidentinin taleyi ancaq belə qurtara bilər".**

Azərbaycan parlamentinin sabiq sədri Rəsul Quliyev "Neft faktoru və Azərbaycan" adlı məqaləsində belə yazıb. Eks-spiker moderator.az saytında yayımlanan məqaləsində qeyd edib ki, dünya bazarında neftin qiymətinin aşağı düşməsinin Azərbaycan iqtisadiyyatına ciddi mənfi təsiri olacaq.

"Neftin qiymətinin aşağı düşməsi, büdcə gəlirlərinin 50 faizi və ondan artığının bu sektorun payına düşdüyü ölkələrin hamısının iqtisadiyyatını ağlar vəziyyətə qoyacaq, bu aksiomadır. Neftin qiymətindən asılı olan keçmiş sovet respublikaları arasında iqtisadiyyatının birinci çökəcəyi ölkə Rusiya Federasiyası olacaq. Çünki Putin Rusiyası toyuğun həmişə qızıl yumurta verəcəyinə inanıb maaşları ən azı 2-3 dəfə artırıb, hərbi xərclərini ildə 90 milyard dollara qədər qaldırıb, lazımsız inşaat işləri ilə *(əzəmətli binalar, lazımsız körpülər və sair)* neftdən gələn pulları sağa-sola dağıdıb".



Rəsul Quliyev

**R.Quliyev qeyd edir ki, 24 milyard dollarlıq büdcəsinin azı 18 milyardı birbaşa və ya bilavasitə neft sektorundan əmələ gələn Azərbaycan iqtisadiyyatını da ciddi sınaq gözləyir:** "Neftin qiymətinin iki dəfə aşağı düşməsi bu 18 milyardın azı 2 dəfə aşağı düşməsi deməkdir. Azərbaycan büdcədən maaşlara ildə 6 milyard ayırıb. Əslində neft sektoru nəzərə alınmasa, Azərbaycan maaşlara 1 milyarddan artıq pul ayıra bilməz. Deməli, maaşlara ayrılmış ələvə 5 milyard neftin satışından gələn pullardır. İndi əgər neftin satışından gələn pullar iki dəfə azalırsa, maaşları bu səviyyədə saxlamaq üçün Azərbaycan Neft Fondunda yığılmış pullardan istifadə etməlidir. Əgər tikinti üçün nəzərdə tutduğu 6 milyardı xərcləmək niyyətindədirsə, mənbə olaraq ancaq neft fondunun pulları ola bilər. Əgər manat-dollar nisbətini əvvəlki illər səviyyəsində saxlamaq istəyirsə, deməli, əlavə 8-10 milyard yenə həmin neft fondundan xərcləməlidir".

**R.Quliyevin fikrincə, hökumət maaşları aşağı sala bilməz, çünki bu azı 3 milyon insanın maraqlarına toxunar:** "Hərbi xərclərini aşağı sala bilər, məsələn, 2 dəfə, ancaq bu onun bağladığı kontraktların şərtlərindən asılıdır.

Mənasız və bu gün lazımsız tikintiləri saxlaya bilər. Ancaq saxlasa, 10 minlərlə işsizlər ordusu yaranar.

Belə bir vəziyyətdə Qərblə bağlı riskli siyasət aparmaq Azərbaycan üçün çox ciddi və ağır nəticələrə səbəb olar".

**R.Quliyev Rusiyanın düşdüyü vəziyyətə baxıb, ibrət götürməyə çağırır:** "Rusiya neftdən gələn pulları Azərbaycandan da çox xərcləyib. Saysız-hesabsız bahalı binalar tikdirib, hərbi xərclərini 3 dəfə artırıb, maaşları daha böyük sürətlə qaldırıb, indi dövlətinin iflası ilə üz-üzədir. Sanksiyalar təbiq olunmasa idi, Rusiyada iqtisadiyyatın iflası bir neçə il çəkərdi, sanksiyalar bu iflası bir ilə çatdırıb. Putinin Avrasiya İttifaqı çox ucuz siyasi blefdir. Heç bir iqtisadi əhəmiyyəti olmayan bu ittifaqı Putin siyasətinin böyük qələbəsi kimi öz xalqına sırımaq istəyir. Qazaxıstan və Ermənistan qorxularından, Belarus və Qırğızıstan isə Rusiyadan pul qoparmaq üçün bu ittifaqa giriblər. Bu ittifaq maksimum iki ilə dağılıb gedəcək. İttifaqda Ermənistandan başqa kimsə qalmaz".

# Azərbaycan bayrağı ilə şəklə görə 22 aylıq həbs!

## Arazın o tayından yeni həbs xəbərləri gəlir; "Laçın" qrupunun üzvü də cəzalandırıldı...



**Güney Azərbaycanlı 4 milli-mədəni fəal məhkəmə tərəfindən 22 ay həbs cəzasına məhkum edilib. Urmiyanın İnqilab Məhkəməsinin qərarına əsasən Nima Həsəni, Əta Kərimi və Yasir Əkbəri hərəsi 6 aylıq, Məhəmməd Təməddün isə 4 aylıq həbs olunub.**

Məhkəmə iclasında Məhəmməd Təməddün və Yasir Əkbəri sistemin əleyhinə təbliğ və ümumi asayişi pozmaq kimi qondarma ittihamlarla suçlanıb. Fəallar ötən ilin yazında Urmiyanın Ğədir stadionunda Azərbaycan Cümhuriyyətinin bayrağı ilə şəkil çəkdirdikdən sonra tutulmuşdular.

O da bildirilir ki, Təbrizin mərkəzi zindanında məhbuslara öz yaxınları ilə görüş icazəsi verilmir. Təxminən 1 ildir tətbiq olunan qadağa bütün məhbuslara şamil olunur, yalnız şüşə arxasından görüş mümkündür. Bəzi mənbələr bu qadağanı narkotik maddələrin zindan daxilinə aparılmaması ilə əlaqələndirir, lakin buna baxmayaraq, zindanda narkotik maddələri əldə etmək çətin deyil.

Təbrizin mərkəzi zindanı İranda ən ağır zindanlardan biridir. Burada siyasi məhbuslar digər məhbuslarla birlikdə saxlanılır. Qeyri-rəsmi statistikaya əsasən, həbsxanada bir neçə azərbaycanlı milli-mədəni fəal da daxil olmaqla, təxminən 4000 məhkum həbsdə saxlanılır.

Bu arada azərbaycanlı milli-mədəni fəal Baqir İbrahimpur də təhlükəsizlik qüvvələri tərəfindən tutulub. O, yanvarın 3-də barəsində çıxarılan 6 aylıq həbs qərarını çəkmək üçün Təbrizin mərkəzi zindanına göndərilib. Fəalın məhkəmə iclası 2014-cü il oktyabrın 20-də Təbrizin inqilab məhkəməsində keçirilib. O, hakim İmaninin sədrliyi ilə keçirilən iclasda sistemin əleyhinə təbliğ və qanunsuz qrup yaratmaq kimi saxta ittihamlarla suçlanıb və 6 ay azadlıqdan məhrum edilib.

Azərbaycanlı fəal bundan öncə də müstəntiq tərəfindən çağırılaraq qanunsuz qrup yaratmaqda günahlandırılmışdı. O, "Laçın" uşaq qrupuna üzv olmaq üçün ittihamlarla üzləşib və mülki vəsiqə qarşılığında sərbəst buraxılıb. "Laçın" qrupu Azərbaycanın milli musiqi və rəqsi kimi mədəni və incəsənət sahəsində fəaliyyət göstərir (GünAzTV).

Qeyd edək ki, ötən yazda İran Kəşfiyyat Nazirliyi (ETTELAAT) Təbrizdə fəaliyyət göstərən "Laçın" qrupunun İstanbulda keçiriləcək Türk Dünyası Uşaq Festivalına qatılmasının qarşısını alıb. Belə ki, qrup üzvü Baqır İbrahimpur 2014-cü il mayın 28-də ETTELAAT-ın Təbriz şöbəsinə çağırılaraq dindirilib. Ona deyiblər ki, "Laçın" qrupunun üzvləri İstanbula aldıqları biletləri qaytarmalı, festivala qatılmaqdan imtina etməlidirlər.

"Laçın" qrupu 1998-ci ildə yaradılıb. Qrupun əsas fəaliyyəti azərbaycanlı uşaqlara pulsuz ana dili kursları təşkil etmək, onlara Azərbaycan rəqs və musiqisini öyrətmək, Azərbaycan mədəniyyətini təbliğ etməkdir.

❑ **Cavid TURAN**

# Ziya Məmmədovun oğlu yeni media layihəsini açıqladı

## Anar Məmmədov "National Geographic Kids" dərgisini Azərbaycan dilində nəşr etdirəcək



Anar Məmmədov

**"Garant Media Holding"in rəhbəri Anar Məmmədov yeni layihəsi haqda məlumat verib. Modern.az-ın məlumatına görə, A.Məmmədov bu haqda bildirib:**

"Dünyanın ən məşhur jurnalı "National Geographic"in Azərbaycana gətirilməsindən sonra "Garant Media Holding" növbəti böyük uğuruna imza atdı!

Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq, dünyada uşaqlar üçün nəzərdə tutulmuş ən məşhur və dəyərli jurnal - "National Geographic Kids" dərgisinin doğma dilimizdə nəşrinə başlamaq barədə razılıq əldə etdik!

Beləlikdə, indi Azərbaycanın kiçik sakinləri, bizim doğma və əziz balalarımız dünyanın ən məşhur jurnalını oxumaq, öz biliklərini, dünyagörüşlərini daha da genişləndirmək imkanı əldə edəcəklər.

Bu jurnalın doğma dilimizdə nəşri daha çox azərbaycanlı balamızın savadlanması, Vətəni üçün layiqli övlad kimi böyüməsi işində mühüm rol oyanacaqdır.

"National Geographic" jurnalının uşaqlar üçün nəzərdə tutulmuş "National Geographic Kids" versiyasında balacalar bizi əhatə edən dünya, təbiət haqqında, müxtəlif coğrafi proseslər barədə geniş məlumat əldə etmiş olacaqlar.

Artıq fevral ayının 1-dən həmin jurnalın Azərbaycanda, doğma dilimizdə nəşri başlayacaq.

Mən ölkəmizin gələcəyi olan balalarımız üçün belə bir gözəl jurnalın doğma dilimizdə dərc olunacağı xəbərini sizə çatdırmaqdan çox məmnunam!"



# İş başlanır

Zamin HACI
zaminhaci@gmail.com

**Neftin dünya bazarında qiyməti dünən 51 dollara düşmüşdü. Şəxsən mən bu enmədən çox sevincliyəm, hər yerdə də bunu göstərirəm. Bu zaman bəzi adamlar - çox yaxşı ki, beləları azdır, tanışlarımın 4-5 faizi olar ya olmaz - etiraz edirlər, neftin ucuzlaşmağının bizə mənfi təsir edəcəyini söyləyirlər.**

Onların əsas arqumentləri budur ki, bizim dövlət büdcəsi əsasən neft gəlirləri ilə formalaşır, neft ucuzlaşdıqca büdcə zəhmətkeşlərinin, kasıb təbəqənin pulu azalacaq. “Varlılara, oliqarx-nazirlərə, hakimiyyətdəkilərə bir şey olmayacaq, onların pulu çoxdur, nə olsa kasıba olacaq” - onlar belə deyirlər. Çox çürük arqumentdir.

Birincisi, neft gəlirlərinin artımı, ümumiyyətlə neftin özü Azərbaycanın hazırkı pis durumunda əsas günahkarlardan biridir. Hətta iddia edirəm tarixən belə olub. Misal üçün, bizim Bakı şəhərinin formalaşmasında neft gəlirləri böyük rol oynayıb. Küçələr salınıb, evlər tikilib, amma Bakı milli Azərbaycan şəhərinə çevrilməyib. Neftlə gələn nə varsa, qazla uçub gedib. Məsələn, mən özümü cəmi 1-2 ay yolüstü qaldığım Şəki və Gəncədə daha yaxşı hiss edirəm, nəinki 25 il yaşadığım Bakıda.

Qonşu Ermənistan və Gürcüstanda neft yoxdur, bəyəm məhv olublar? Hələ əksinə, bizim mədəni paytaxtımız uzun illər Tiflis olub. Özü də neftin bum vaxtında! Yeri gəlmişkən, bəlkə çoxları bilmir, Qafqazda ilk buxar maşını ilə çalışan manufaktura 19-cu əsrin əvvəlində Şəkidə açılmışdı. İpək istehsal edirdilər. Bakıda neft tapılmasa azərbaycanlılar Qafqazda indi gürcülərin oynadığı roldan daha artığını oynamaq iqtidarında idilər. Hər şey neft gölməçələrində boğuldu. Mədəni inkişafdan tutmuş iqtisadi təşəbbüskarlığa qədər. Neft bizim feodalizmdən kapitalizmə keçidimizə imkan vermədi.

İndinin özündə neft gəlirləri Bakıya nə qazandırıb? Nəcisli-mazutlu bulvar uzanıb, “Alov qülləsi” binaları qayırılıb. Nədən ötrü? O binaların önündə şəkil çəkdirirsiniz, bir fikirləşin ki, “Alov qüllələri”nin funksiyası nədir, Azərbaycana, onun büdcəsinə hansı xeyri verib? Yoxdur. Əksinə, üstündəki idiot, kitç işıqlandırmaya hər ay bir rayonun enerji israfı gedir.

Baobab ağacının nümayişi, Sumqayıtda divarda pəncərə şəkli çəkilməsi, bütün ölkə boyunca uzanan “Potyomkin hasarları” - neftin xeyri budur. Bir də seçkiləri saxtalaşdıran Əfruz xala-lar var. O büdcə zəhmətkeşləri ki, neft iynəsinə oturmuşdular, avtoritarizmin haram süfrəsinin artıqlarından yemlənirdilər və bütün Azərbaycanın kanalizasiya borusunda batmasına hər cür dəstək verirdilər. Tumanlarında bülleten daşımaqdan tutmuş, müxalif fikirli insanın uşağını məktəbdən qovmağa qədər hər cür yaramazlığa getdilər. Bunların hamısını neft 100 dollar ətrafında cövlan edəndə gördük. Neftin ucuzlaşması o qara kütlənin bir qarın çörək naminə yaltaqlıqdan aralanması deməkdir. Buna niyə sevinməyək?

Mətbuat sahəsini götürürəm, öz sahəmizdir. Bakı-Ceyhan kəməri işə düşənə qədər Azərbaycan müxalif qəzetlərində reklamlar olurdu! Rejim jurnalist öldürmək qədər ağ eləməmişdi - hələ repressiv aparatın baxları boş idi. Zindanlar bu qədər jurnalist üzü görməmişdi. Bir yeni jurnalistin işə başlamaq üçün azı 6-7 qəzet varianti olurdu, indi isə birini tapanda sevinirik.

Neftin ucuzlaşması müftə gəlirlərin bitməsi deməkdir. Tənbəllikdən qurtulmaq, işləmək deməkdir. Demokratiya qurub nefti tapan ölkələri çıxsaq, nefti olan dövlətlərə, əsasən ərəb ölkələrinin gününə baxın. Nə kökdədirlər... Bəzəkli binalar var, çoxlu pullar var, şokolad vannası qəbul edən piyli şeylər var, millət və dövlət isə yoxdur. İnsanlıq yoxdur ümumiyyətlə. Gələcəyi olmayan bir sürüdür. Hamısı bir-birinin başını kəsməyə hazırlaşır, ya da hazırda kəsir.

Bir məsəl var, deyir, yerdən göyə küp düzsələr, altdan bir küpü çəksələr, gəl indi daramduruma bax. Bax, neftin qiyməti belə küpün çəkilməsidir, qiymət çox yox, 2-3 il belə ucuz qalsın, daramdurum olacaq. Amma müvəqqəti. Sonra hər şey aydın və gözəl olacaq, buna əmin olun. O zaman biz hamımız işləməyə başlayacağıq.

# Müxalifət yeni birlik modeli axtarışında

## Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin seçki blokuna çevrilməsi üçün müzakirələr başlayıb

**Azərbaycanın bir sıra müxalifət partiyaları 2015-ci il parlament seçkilərində bir araya gəlmək üçün birlik formatı axtarışındadır. Bunu son vaxtlar düşərgə təmsilçilərinin açıqlamalarından görmək mümkündür. Məsələn, AXP sədri Pənah Hüseyn müxalifətin yenidən birləşə biləcəyinin anonsunu verib.**

AXP lideri hesab edir ki, hər bir müxalifət təşkilatı doğru hesab elədiyi addımları atmalıdır və bir qədər cəsarətli olmaq lazımdır. 2015-ci ilin parlament seçkiləri ilə əlaqədar müxalifətin konsolidasiyasının getməsi ehtimalı böyükdür. Artıq bu istiqamətdə müəyyən işlər və axtarışlar da getməkdədir.

Qeyd edək ki, hazırda müxalifət düşərgəsində ən çox partiyaların təmsil olunduğu qurum Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzidir. Burada Müsavat Partiyası, KXCP, ADP, Ümid Partiyası, AXP, Azadlıq Partiyası, ALDP, Vətəndaş və İnkişaf Partiyası, Böyük Azərbaycan Partiyası, Azad Demokratlar Partiyası təmsil olunur. Mərkəz ölkədə siyasi məhbuslar problemi ilə bağlı yaradılıb və seçki bloku deyil.

**Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində təmsil olunan Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər** də ötən ilin sonunda “Yeni Müsavat”a bildirmişdi ki, qurumdakı partiyaların arasında müəyyən əməkdaşlıq qurum yarandıqdan



başlayıb. Amma hələlik parlament seçkiləri ilə bağlı hansısa blok yaratmaq, mərkəzin seçki blokuna çevrilməsi kimi məsələlər müzakirə olunmayıb: “Bu da, görünür, siyasi qüvvələrin hələ müxtəlif axtarışları ilə bağlıdır. Vəziyyəti analiz edib gələn illə bağlı proqnoz vermə prosesinin başa çatmaması ilə bağlıdır. Düşünürəm ki, yeni ilin ilk günlərindən bu istiqamətdə məsləhətləşmələr başlayacaq. Böyük ehtimalla bu baş verəcək”.

Yeni ilin ilk həftəsi arxada qaldı. Bəs 11 partiyanın funksional əməkdaşlıq münasibətlərində olduğu Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin bazasında parlament seçkilərinə hədəflənən blok yaratmaq istiqamətində müzakirələr başlayıbmı?

Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinin rəhbəri, KXCP sədri Mirmahmud Mirəlioğlu dünən “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, mərkəzin parlament seçkilərində birlik olaraq iştirak etməsi istiqamətində müzakirələr, məsləhətləşmələr başlayıb.

Müxalifət partiyalarının parlament seçkilərində blok kimi iştirakı mümkündür və lazımdır. Amma reallaşıb-reallaşmayacağı zamanın işidir".

**M.Mirəlioğlu sədri olduğu partiyanın 2015-ci il parlament seçkilərində ciddi şəkildə iştirak etmək tərəfdarı olduğunu da bildirdi. O qeyd etdi ki, KXCP parlament seçkilərində iştirak etməklə bağlı 2014-cü il dekabrın sonunda qərar verib:** “Biz həmin qərara uyğun fəaliyyət göstərəcəyik. Siyasi partiya seçkilərdə iştirak etməlidir. Biz hesab edirik ki, seçkidə aktiv iştirak etmək lazımdır. Həm də seçki qanunvericiliyinin təkmilləşdirilməsi, seçki mühitinin yaradılması, seçki komissiyalarının demokratik qaydada formalaşdırılmasına nail olmaq şərti ilə”.

❑ Etibar SEYİDAĞA

# Partiyalarda 2015 seçkisinə hazırlıqlar başlayıb

## Əli Əliyev: “Hazırda A,B,C variantlarını müzakirə edirik”

**2015-ci ilin noyabrında Azərbaycanda növbəti parlament seçkiləri keçiriləcək. Bu səbəbdən seçki ilində partiyaların nə dərəcədə aktiv olacağı da maraqlıdır. Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev modern.az-a açıqlamasında seçkilərə qatılacağını deyib: “Parlament seçkiləri bizim üçün maraq kəsb edir. Ötən ilin ortalarından 2015-ci ilin parlament seçkilərinin bir çox səbəblərdən Azərbaycanın siyasi həyatı üçün əhəmiyyət kəsb edəcəyini deyirik, indi də fikrimizdə qalırıq”.**

**Əli Əliyev** bildirib ki, seçkiyə hazırlıq üçün artıq start verilib:

“Təqvim planı hazırlanır. Bütün gücümüzlə seçkilərə qatılmaq niyyətindəyik. Müxtəlif variantlarımız var. Hazırda



Əli Əliyev



Lalə Şövkət

A,B,C variantlarını müzakirə edirik. Seçkiyə təkbaşına qatılmaq, kimlərləsə blok yaratmaq, proporsional seçki sistemi bərpa olunarsa, hansı addımlar atacağımız kimi variantlar nəzərdə tutulub. Yerlərdə namizədlərin müəyyənləşməsinə başlanılıb. İlin əvvəlindən majoritar sistem üzrə namizədliyini irəli sürəcək 3 nəfərlə danışıqlar aparmışam. İlk altı ay ərzində bu qaydada işimiz davam edəcək. Sonra hansı formatda seçkilərdə iştirak edəcəyimiz haqda qərar qəbul edəcəyik”.

“2015-ci ilin noyabrında Azərbaycanda növbəti deputat təyinatları olacaq. Biz də seçkilərə bu təyinata uyğun hazırlaşırıq”.

Bunu modern.az saytına Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan deyib. Onun iddiasına görə, bu il deputat təyinatları bələdiyyə seçkilərindəkindən daha eybəcər, tənqidəlayiq keçiriləcək.

**Əvəz Temirxan Liberal Partiyanın lideri Lalə Şövkətin seçkilərdə iştirakına da münasibət bildirib:** “Hazırda bu barədə konkret fikir deyə bilmərəm. Amma proporsional seçki sistemi bərpa olunarsa, Lalə Şövkət seçkidə iştirak edə bilər. Onun deputatlığa namizədliyi yalnız bu şəraitdə irəli sürülə bilər”.

# Avropa İttifaqından iki fərqli bəyanat

## Qurum əfvi alqışladı, AzadlıqRadiosunun bağlanmasını isə pislədi

**Avropa İttifaqı (Aİ) Azərbaycan prezidentinin bir neçə məhbusun, eləcə də bir sıra jurnalist və müxalif gənclər təşkilatı fəallarının azadlığa buraxılmasını nəzərdə tutan əfv qərarını alqışlayır.**

APA-nın məlumatına görə, bu barədə Aİ-nin Azərbaycan prezidenti İlham Əliyevin dekabrın 29-da imzaladığı əfv sərəncamı ilə bağlı bəyanatında bildirilir.

Bununla belə, bəyanatda AzadlıqRadiosunun Bakı bürosunun bağlanmasından narahatlıq ifadə olunur, Azərbaycanda söz azadlığı, azad və müstəqil medianın, qanunun aliliyinin təmin olunması kimi öhdəliklərin yerinə yetirilməsi üçün rəsmi Bakının davamlı səy göstərməli olduğu vurğulanır.

Qeyd edək ki, sərəncam ümumilikdə 87 nəfərə şamil edilib.

Sərəncama əsasən, azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 79 nəfər cəzanın çəkilməmiş hissəsindən, 3 nəfər islah işləri, 5 nəfər isə cərimə cəzasından azad edilib.

Əfv olunanlar arasında “Xural” qəzetinin baş redaktoru Əvəz Zeynallı, “P.S Nota” qəzetinin baş redaktoru Sərdar Əlibəyli, vəkil Qurban Məmmədov, NİDA Vətəndaş Hərəkatının İdarə Heyətinin üzvləri Zaur Qurbanlı və Üzeyir Məmmədli də var.

## Azərbaycan uğrunda Rusiya-Amerika rəqabəti yeni mərhələdə

# ABŞ səfiri xüsusi tapşırıqla gəlir

### Bakının böyük güclər arasında manevr imkanları sürətlə daralır; neft amilinin zəifləməsi hakimiyyəti Ağ Evə qarşı daha qəzəbli, Vaşinqtonu isə Azərbaycandakı insan haqlarına həssas edib; 2015 "suların durulacağı" il olacaq...

**Azərbaycan sanki bir "nifaq alması" kimi yavaş-yavaş Rusiya və ABŞ arasında amansız rəqabətin episentrinə gəlməkdədir. Təhlükəlisi odur ki, rəsmi Bakı özü də bu prosesə rəvac vermiş kimi görünür. Bundan da təhlükəlisi isə Azərbaycan uğrunda böyük güclərin informasiya, təbliğat savaşında hansısa məkrli çevrələrin ölkəmizi zorla tərəfə çevirmək səyləridir.**

Ötən ilin sonlarından özünü göstərməyə başlayan və güclənən bu təəssürat yeni təqvim ilinin ilk günlərində də öz aktuallığını saxlamaqdadır. Bir şey gerçəkdir ki, Güney Qafqazın, bütövlükdə postsovet məkanının ən həlledici ölkələrindən biri və hətta birincisi kimi Azərbaycan uğrunda Rusiya və ABŞ-ın mübarizəsi keyfiyyətcə yeni fazaya adlamaqdadır.

Bunu ən azı, son 1-2 həftədə Azərbaycana birbaşa bağlı yaşanmış iki olduqca mühüm hadisəyə əsasən söyləmək mümkündür. Söhbət dekabrın 21-də (bazar günü) ABŞ dövlət katibi Con Kerrinin Azərbaycan prezidenti İlham Əliyevlə telefon danışığından və cəmi bir həftə sonra - dekabrın 28-də (yenə bazar günü) Rusiya baş nazirinin müavini, odioz antiqərbçi Dmitri Roqozinin müəmmalı Bakı səfərindən gedir.

Bir müddət gizli saxlanılan hər iki təmas barədə artıq bəzi ekspert rəyləri səslənib. Burda yalnız onu qeyd eləməklə kifayətlənək ki, Roqozinin ziyarəti ABŞ Konqresinin maliyyələşdirdiyi "Azadlıq" radiosunun Bakı ofisinin möhürlənməsi, əməkdaşlarının isə istintaqa cəlb edilməsi ərəfəsinə təsadüf edib.





Söz düşmüşkən, bir neçə gündən sonra Konqres öz işinə başlayacaq. Bu, respublikaçıların qələbəsi ilə bitən aralıq seçkilərdən sonra parlamentin ilk toplantısı olacaq. Yada salaq ki, indiki Konqres yaxın iki ildə respublikaçıların nəzarətində olacaq. Respublikaçılar isə məşhur senator Con Makkeyn timsalında Rusiyaya, deməli, həm də onun dost-müttəfiqlərinə, Moskvaya loyal olanlara qarşı sərt mövqeyi ilə seçilirlər. İstisna olunmur ki, parlament bu dəfə Vaşinqtondakı Makkeyn İnstitutunun direktoru Devid Kramerin rəsmi Bakıya təcili sanksiya tətbiq eləmək çağırışını da ciddiyə alsın...

***

Məhz belə qəliz və ziddiyyətli proseslərin fonunda Birləşmiş Ştatların Azərbaycandakı yeni səfiri Robert Sekuta Bakıya gəlməyə hazırlaşır. Vəziyyətin özəlliyi ondadır ki, ABŞ-Azərbaycan münasibətlərinin yeni səfirin gəlişinə təsadüf edən hazırkı durumu onun sələfi Riçard Morninqstarın geri çağırıldığı dövrdəkindən bir az da qəliz, bir az da soyuq xarakter daşıyır.

Bəzi məlumatlara görə, situasiyanın bu həddə çatmasında, yaxud qızışdırılmasında Rusiya və onun Azərbaycandakı "5-ci kolon"çularının, məxsusən də hakimiyyətdəki odioz rusiyayönlülərin ciddi xidməti var. Digər versiyaya görə isə rəsmi Bakını Amerikaya qarşı qəzəbli və qıcıqlı edən, paralel surətdə Rusiya ilə "həmdərdə" çevirən neftin kəskin ucuzlaşmasıdır.

Hamı bilir ki, bu ucuzlaşmada Vaşinqton əsas rol oynayır, hətta belə bir ssenari ilə ABŞ-ın avtoritar rejimlərə dərs vermək, onların maddi dayaqlarını əsaslı şəkildə sarsıtmaq niyyəti güddüyü iddia olunur. Təsadüfi deyil ki, Ağ Evin bu ölkələrdə, o sırada Azərbaycanda təməl insan haqlarının durumuna diqqəti artırması müşahidə edilir.

AzadlıqRadiosunun Bakı ofisinin bağlanmasından sonra bu məsələ indi tək Obama hökuməti üçün deyil, artıq ABŞ Konqresi üçün də bir imic, sifəti qoruma məsələsi kimi görünür. Bu və digər amilləri nəzərə alsaq, ehtimal eləmək olar ki, yeni səfir Bakıya Vaşinqtonun məxsusi mesajları, yaxud tapşırıqları ilə gələcək.

***

Son qənaəti möhkəmləndirən daha bir ştrix: ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondu Azərbaycandakı durumu müzakirəyə çıxarmaq üçün yanvarın 12-də xüsusi tədbir təyin edib. Məruzəçilər sırasında isə dövlət katibinin müavininin köməkçisi, Azərbaycan iqtidarına qarşı sərt mövqeyi ilə seçilən və bir neçə dəfə Bakıya buraxılmadığı haqda xəbərlər yayılan Tomas Melia da var...

**P.S.** *Yazıdakı qeydlərlə bağlı Birləşmiş Ştatların Bakıdakı səfirliyinin mövqeyini öyrənmək istədik. Lakin Yeni il tətili ilə əlaqədar diplomatik nümayəndəlikdən münasibət ala bilmədik.*

❑ **Siyasət şöbəsi**

# ABŞ-la münasibətlərin gərginləşməsində neftin ucuzlaşması dayanır?

### **Elxan Şahinoğlu:** "Amerikanın Azərbaycanda səfirliyindən başqa heç nəyi qalmayıb..."



**Dünya bazarında neftin kəskin ucuzlaşması iqtisadiyyatı neft gəlirlərindən daha çox asılı olan ölkələrdə narahatlıq yaratmaqdadır. Belə ölkələrin hakimiyyətləri prosesin bu şəkildə inkişafından narahatlıq keçirdiklərini də büruzə verməkdədir.**

Ekspertlər hesab edir ki, narahatlıq müəyyən mənada əsaslıdır. Çünki neft faktoru bu cür hakimiyyətlər üçün həyati dərəcədə böyük əhəmiyyət daşıyır. Belə demək mümkündürsə, iqtidarların ayaq üstə qalmasında, davamlı olmasında bu amil həmişə həlledici olub.

Siyasi analitiklər onu da iddia edir ki, son vaxtlar ABŞ-ın Rusiya ilə münasibətlərinin gərginləşməsi fonunda dünya bazarında neftin ucuzlaşdırılması neft ölkələrindəki iqtidarların Qərb üçün əhəmiyyətini də azaldır. Həmin iqtidarların narahatlıq keçirməsi həm də bu səbəbdəndir. Bu mövqedə olan təhlilçilərin fikrincə, Azərbaycan hakimiyyəti ilə ABŞ arasında son vaxtlar münasibətlərin gərginləşməsinin müşahidə olunması, əsasən də hakimiyyət təmsilçilərinin ABŞ-a qarşı kəskin mövqe sərgiləməsi də neftin ucuzlaşdırılması ilə bilavasitə bağlıdır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi şərhçi Elxan Şahinoğlu isə Azərbaycan hakimiyyətinin təmsilçilərinin ABŞ-a qarşı sərt mövqe sərgiləməsinin ABŞ-ın dünya bazarında neftin qiymətini ucuzlaşdırması ilə bağlı olmadığını düşünür. E.Şahinoğlunun fikrincə, münasibətlərdə gərginliyə gətirib çıxaran bir sıra amillər var:** "Azərbaycan hakimiyyəti içərisində müəyyən qruplar və şəxslər Rusiya ilə münasibətləri strateji səviyyəyə çatdırmaq üçün ABŞ-ı hədəf götürüblər. Amma mən inanmıram ki, Azərbaycanın dövlət başçısı birdən-birə Amerika ilə münasibətləri soyutmaq və gərginləşdirmək kimi xətt yürütsün. Deməli, burada ABŞ-ın siyasətində də müəyyən məqamları axtarmaq lazımdır. Fikir verin, AzadlıqRadiosunun Azərbaycan bürosu qapandı, hansı məsələlər üzə çıxdı, Mirzə Xəzərin yazısında hansı məsələlər üzə çıxdı. Mənim özüm 15 ildən çox idi AzadlıqRadiosu ilə əməkdaşlıq edirdim. Redaksiyanın siyasəti balanslaşdırılmış siyasət idi, hətta hakimiyyət təmsilçiləri də radionun proqramlarına qatılırdılar. Amma 2006-cı ildən sonra siyasət sərtləşdi. Prezident və nazirlər daha çox tənqid olunmağa başlandı. Bu da ABŞ-la münasibətlərdə anlaşılmazlıq yaratdı. ABŞ rəsmiləri və diplomatları münasibətlərin belə vəziyyətə gəlib çıxmasında insan haqları və demokratiya məsələlərinin dayandığını deyirlər. Lakin nəzərə almaq lazımdır ki, səbəb kimi göstərdikləri bu iki məsələ əvvəllər də var idi. Odur ki, səbəbi başqa amillərdə və məkanda axtarmaq lazımdır. Məsələn, Azərbaycanla ABŞ arasında hökumətlərarası iqtisadi komissiya var. Bu komissiya 2007-ci ildə Azərbaycan prezidentinin sərəncamı ilə yaranıb. İki il öncə Vaşinqtonda bir toplantı olmuşdu. Azərbaycan tərəfdən komissiyanın həmsədri maliyyə naziri Samir Şərifovdur. Həmin toplantıda yüksək əməkdaşlıqdan, strateji tərəfdaşlıqdan danışılır. Amerikalı həmsədr, dövlət katibinin köməkçisi Azərbaycan prezidenti İlham Əliyevin siyasətini tərifləyən xeyli fikirlər söyləyir. İndi iki ildə nə baş verdi ki, bu siyasət köklü dəyişdi. Məncə, bunun əsasında o dayanır ki, rəsmi Bakı belə düşündü ki, Vaşinqtonda müəyyən dairələr Azərbaycanda hakimiyyəti dəyişmək, rəngli inqilabları Azərbaycanda da həyata keçirmək istəyirlər. Rəsmi Bakı bundan şübhələndi, ancaq Vaşinqtondan tutarlı cavablar, təkzib ala bilmədi. Əgər cavab alsaydı ki, Vaşinqton Azərbaycanda hakimiyyətin güc yolu ilə dəyişməsində maraqlı deyil, bəlkə də vəziyyət bu qədər dramatik olmazdı".

**Ekspert daha bir mühüm məqama diqqət yönəldir:** "Barak Obama hakimiyyətdə olduğu 6 ildə Azərbaycan prezidentini bircə dəfə də olsun Vaşinqtona rəsmi səfərə dəvət etməyib. Münasibətlərin indiki vəziyyətə gəlib çıxmasında bu amil də öz təsirini göstərib. Heydər Əliyevin dövründə də ABŞ Azərbaycanda demokratiya və insan haqları məsələlərindən razı deyildi. Amma Heydər Əliyev dəfələrlə Vaşinqtona rəsmi səfərə dəvət olunmuşdu. Bu səfərlər imkan verirdi ki, iki ölkənin liderləri arasında təmas, dialoq olsun. Belə bir dialoq son 6 ildə ümumiyyətlə yoxdur. Bütün bu amillər münasibətlərin gərginləşməsinə xidmət edir. Ona görə də təşəbbüsü Vaşinqton ələ almalıdır, təkliflər olmalıdır ki, bu vəziyyətdən çıxış yolu necə olsun. Ya hökumətlərarası komissiya yenidən toplanmalıdır, ya Azərbaycan prezidenti ABŞ-a dəvət olunmalıdır, yəni nəsə çıxış yolu tapılmalıdır".

**E.Şahinoğlu hesab edir ki, hazırda ABŞ-ın Azərbaycanda hakimiyyət dəyişikliyi etmək fikrində olması inandırıcı deyil:** "Vaşinqtonun belə bir fikri əvvəllər var idi. Amma indi anlayırlar ki, Azərbaycanda sosial gərginlik yoxdur, pis-yaxşı iqtisadi vəziyyət normaldır. Sosial gərginlik yoxdursa, iqtisadi vəziyyət pis deyilsə, hamıya aydındır ki, hakimiyyəti dəyişmək elə də asan məsələ deyil. Bunu ABŞ-da da anlayırlar. Məsələnin bir tərəfi də var ki, Azərbaycan hakimiyyətinin içində bu məsələləri şişirtmək istəyənlər var. Guya ABŞ-ın hakimiyyəti dəyişmək üçün çox böyük planları olub və planlar hələ də qalır. Nəticədə hakimiyyətin münasibətləri soyuyub, gərginləşib. ABŞ-ın artıq Azərbaycanda səfirliyindən başqa heç nəyi qalmayıb. Soros Fondu, Milli Demokratiya İnstitutu, Respublikaçılar İnstitutu, İREX, Sülh Korpusunun filialı qapandı. Sonuncu AzadlıqRadiosu idi ki, o da qapadıldı. Qalan bircə səfirlikdir ki, səfir də hələ gəlib Bakıya çıxmayıb. Belə vəziyyətdə münasibətləri yenidən hərəkətə gətirmək çətin olacaq. Münasibətlərin istiləşməsi üçün Vaşinqtondan təşəbbüslər olmalıdır. Məsələn, Qarabağ probleminin ədalətli həlli məsələsini ciddi şəkildə ön plana çəksələr, bu, münasibətlərin düzəlməsində stimul yarada bilər".

❑ **Etibar SEYİDAĞA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**2015**-ci ilin ilk günlərində Qarabağ münaqişəsi ilə bağlı növbəti nikbin və bədbin proqnozlar eşidilməkdədir. Vaxtilə münaqişənin həlli üçün "qızıl dövrün" yetişdiyini bəyan edən paytaxtlar indi daha ehtiyatlı mövqedən çıxış etməyə üstünlük verirlər.



# ATƏT Qarabağ problemini ikinci plana keçirir

## Vəfa Quluzadə: "ATƏT sədri reallıqdan çıxış edib, gündəlikdə Ukrayna məsələsidir"

ABŞ Dövlət Departamenti ənənəsinə uyğun olaraq Dağlıq Qarabağ münaqişəsi zonasında atəşkəs rejiminin pozulması hallarının artmasından narahat olduğunu bəyan edib. APA-nın "RİA-Novosti" agentliyinə istinadən verdiyi xəbərə görə, ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Cen Psaki bu barədə ölkəsinin mövqeyini açıqlayıb. "Dağlıq Qarabağda atəşkəsin pozulması bizi narahat edir. ABŞ əvvəlki kimi münaqişənin danışıqlar yolu ilə Minsk Qrupu çərçivəsində həllinin tərəfdarıdır. Biz hər iki tərəfi regionda sülhə gətirəcək danışıqlarda iştirak etməyə çağırırıq" deyə, C.Psaki bildirib.

**ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik isə twitter sosial şəbəkəsindəki səhifəsində zorakılıqdan çəkinməyə çağırıb:** "2015-ci il Dağlıq Qarabağda sülh və uzunmüddətli həll ili olmalıdır. Zorakılığın bərpası buna cavab deyil".

Ancaq ATƏT-də bir illik sədrliyə başlayan Serbiyanın xarici işlər naziri İviç Daçiç isə pessimist danışıb. O, Serbiyanın təşkilata sədrliyi dönəmində əsas prioritet məsələnin Ukrayna böhranı olacağını söyləyib. Bununla da qurumun sədri Qarabağ məsələsini arxa plana keçirmiş olub.

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə indiki situasiyada həmsədrlər də daxil, hər hansı nikbin bəyanatları ciddiyə almır. Onun fikrincə, ATƏT-in həmsədr ölkələrinin nümayəndələri təyin olunandan sonra rəhbərliklər tərəfindən tam unudulur:** "Vaxtilə Kerri Kavano ilə işləmişəm, Bratke, Brayzanın, digərlərinin fəaliyyətini izləmişəm. Məndə belə təsəvvür yaranıb ki, həmsədrlik çox yağlı vəzifədir. Təyin olunan şəxslər şübhəsiz ki, Dövlət Departamenti, ya XİN-də kiminsə dostudur. Çünki bu vəzifə heç bir fəaliyyət tələb etmir, yalnız turist səfərləridir. Azərbaycana, Ermənistana səfər edirlər, Parisdə, Romada, Moskvada, Londonda yığışırlar. Bir dəfə də demişəm, bunlar dünyanı gəzəndən sonra bəlkə Qarabağ məsələsi həll olundu. Çünki mən heç vaxt bunların öz ölkələrinin rəhbərliyi ilə əlaqələrini görməmişəm. İki ölkə arasında müharibə gedir, Azərbaycanın 20 faiz torpağı işğaldadır. Üstəlik, hamıya məlumdur ki, Qarabağ məsələsini yaradan Rusiyadır. Rusiya Azərbaycana da, Ermənistana da külli miqdarda silah satır, qazanır. Ermənistanın alıcılıq qabiliyyəti yüksək olmadığı üçün yarısını havayı verir. Bu məsələyə də heç bir dövlət qarışmır, açıq demir ki, təcavüzün arxasında Rusiya dayanıb. Nə vaxt Amerika, Fransa, Almaniya, İngiltərə bir masa arxasında oturacaq və bəyan edəcək ki, biz bu məsələni çözməliyik, onda həll barədə nikbin danışmaq olar". **V.Quluzadə amerikalı həmsədrin hansısa məlumata əsaslandığını güman etmir:** "Bəlkə Uorlik düşünür ki, Rusiya 2015-də çökəcək, Putin rejiminin əvəzinə daha praqmatik hakimiyyət gələcək, imperiya siyasətinə son qoyulacaq. O zaman Qarabağ məsələsi həll oluna bilər. Ancaq mən inanmıram ki, o, Obamanın fikrini səsləndirir. Əgər bu, ABŞ prezidentinin fikirdirsə, Obama bunu özü də deyə bilərdi. Artıq Qarabağ məsələsi beynəlxalq problemdir. Hamı deyir ki, müharibə ilə məsələni həll etmək olmaz. Bəs onda necə olsun? 20 illik münaqişəni çözmək barədə heç kəs normal mövqe ortaya qoymur. Yadımdadır, 1998-ci ildə Bender şəhərində Klinton, Şirak və Yeltsin birgə bəyanat qəbul etdilər ki, 1999-cu ildə Qarabağ məsələsi həll olunacaq. Burda bir prezident qeyri-səmimi idi - Yeltsin. Ancaq Ermənistan parlamenti "marsianlar" tərəfindən güllələnəndən sonra ermənilər həll prosesindən geri çəkildilər. Ona görə 2015-ci ildə



Vəfa Quluzadə

məsələnin həll olunacağı barədə deyilənlər reallıqdan uzaqdır. Vaxtilə münaqişənin həlli üçün "qızıl", yaxud "gümüş" dövr olduğunu da deyiblər. Belə çıxır ki, 2015 Qarabağ məsələsinin həllinin "brilyant dövrü"dür. Bu mənada ATƏT sədri reallıqdan çıxış edib, gündəlikdə Ukrayna məsələsidir. Ukraynanın da arxasında bütün dünya dayanıb. Qarabağ məsələsi Rusiyanın vəziyyətindən asılıdır".

**YAP-çı deputat Siyavuş Novruzov isə moderator.az-a açıqlamasında Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları və bu danışıqların nəticəsiziyi fonunda baş verə biləcək olaylara diqqət çəkib:** "Məlum olduğu kimi, danışıqlar prosesi davam edir və biz çalışırıq ki, problemi sülh yolu ilə həll edək. Məqsədimiz Qarabağ probleminin həllinə sülh yolu ilə nail olmaqdır. Lakin danışıqlar prosesi uzun müddətdir davam etsə də, ortada ciddi bir nəticə yoxdur. Belə davam etsə, hərb qaçılmaz olacaq. Çünki sülh danışıqlarının səmərəsizliyi başqa yol qoymur".

"ATƏT-in Minsk Qrupunun həmsədrləri çərçivəsində münaqişənin həllinə ümid bəsləmirəm. Ola bilsin ki, ilin ikinci yarısında münaqişənin həll olunması ilə bağlı proseslər hərbi müstəviyə keçsin və bu da çox qısa müddətli olmalıdır". Bunu isə deputat Fəzail Ağamalı bildirib.

**Bu arada Qarabağda itkilər verən düşmən ölkə Azərbaycana qarşı informasiya müharibəsinə start verib. Bakının cavabı gecikməyib.**

"Cəbhədə guya Azərbaycan Ordusunun üç hərbi qulluqçusunun öldürülməsi barədə Ermənistan kütləvi informasiya vasitələrində yayılan məlumatlar yalandır". Bunu "Trend"in sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətindən deyiblər. Müdafiə Nazirliyi bildirir ki, Ermənistan mətbuatının cəbhədəki atəşkəs rejiminin pozulması zamanı Azərbaycan Silahlı Qüvvələrinin guya üç hərbi qulluqçusunun, o cümlədən Eldar Məmmədov adlı "unter zabitin" məhv edilməsi barədə məlumatları dezinformasiya xarakteri daşıyır. Qeyd edək ki, erməni kütləvi informasiya vasitələrində bu il yanvarın 5-dən 6-na keçən gecə cəbhədə qoşunların təmas xəttində baş verən atışma zamanı Azərbaycan Ordusunun 3 hərbi qulluqçusunu itirdiyi barədə məlumatlar yayılıb. Ermənilər hətta hərbçilərimizdən birinin "adı və soyadını", eləcə də "xidmət etdiyi hərbi hissəsinin nömrəsini" də qeyd ediblər.

Ermənistan tərəfi bu gecə qoşunların təmas xəttində baş vermiş döyüşlər barədə yeni xəbər yayıb.

Virtualaz.org saytı xəbər verir ki, az əvvəl yanvarın 6-na keçən gecə cəbhədə baş vermiş "diversiyanın qarşısının alınması zamanı" Azərbaycan Silahlı Qüvvələrinin üç nəfər itki verdiyi haqda dezinformasiya yayan *(Azərbaycan Müdafiə Nazirliyi bu dezinformasiyanı artıq təkzib edib-red.)* erməni tərəfi bu dəfə öz itkilərini açıqlayıb.

Tert.am saytının məlumatında deyilir ki, yanvarın 6-na keçən gecə qoşunların təmas xəttində baş vermiş atışmalarda erməni tərəfi də itki verib.

Təmas xəttində Ermənistan ordusunun müqavilə əsasında xidmət keçən iki hərbçisi öldürülüb. Ermənistan Müdafiə Nazirliyi bu xəbərə hələlik şərh vermir.

Qeyd edək ki, Ermənistan ordusunun daha iki hərbçisi yanvarın 3-nə keçən gecə öldürülmüşdü. Bir hərbçi isə ağır yaralanmışdı.

Azərbaycan Müdafiə Nazirliyi bəyan edib ki, bu insident erməni ordusu daxilində hökm sürən vəziyyətin nəticəsidir və ordumuz təmas xəttində həmin gün heç bir diversiya əməliyyatı həyata keçirməyib.

## "Ermənistan 4 yerdən idarə olunur"



Əli Həsənov

**"Erməni girovluğunda olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı Azərbaycan prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq 7 beynəlxalq təşkilata, o cümlədən BMT baş katibinə, Avropa Şurası, Avropa İttifaqı və ATƏT-in rəhbərlərinə, Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidentinə, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına, insan hüquqları komissiyalarının sədrlərinə rəsmi müraciət göndərmişik. Dünyada elə bir mühüm beynəlxalq təşkilat qalmayıb ki, Azərbaycan hökuməti adından ora müraciət göndərməyim".**

APA-nın məlumatına görə, bunu baş nazirin müavini, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov deyib.

Ə.Həsənov girovluqda olan D. Əsgərov və Ş. Quliyevi torpağını, vətənini, xalqını sevən insanlar adlandırıb: "Onlar ölümü göz önünə alaraq, doğma yurd-yuvalarına gedirdilər, ata-babalarının məzarlarını, kəndlərini ziyarət edirdilər. Biz bununla bağlı həqiqəti bütün dünyaya nümayiş etdirdik. Ancaq ermənilər yenə də faşist əməllərindən əl çəkmirlər, bütün beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqda davam edirlər. Erməni xalqı 100 ildir türk genosidi ilə məşğuldur. Beynəlxalq təşkilatlar bölgədə dayanıqlı sülhün bərqərar olunmasını istəyir. Ermənilər isə türk dünyasından əl çəkmir, öz məqsədlərinə çatmaq üçün çirkin əməllərini davam etdirirlər. Mənə elə gəlir ki, bu əməllərə göz yuman və erməniləri açıq şəkildə müdafiə edən beynəlxalq təşkilatlar bizim girovlarla bağlı məsələnin də müsbət həllinə kömək etməyəcəklər".

**Baş nazirin müavini vurğulayıb ki, ermənilər çirkin əməllərindən əl çəkməsələr, Azərbaycan torpaqlarını və girovları düşməndən müharibə yolu ilə azad etməyə məcburdur:** "Ermənilər bütün dünyaya özlərini qeyri-konstruktiv xalq kimi göstəriblər. Dünyada elə bir ölkə yoxdur ki, 4 yerdən idarə olunsun. Ermənistanı ABŞ-dakı erməni lobbisi, Rusiya, kilsə və dövlətə rəhbərlik edən faşist erməni rejimi idarə edir. Beynəlxalq təşkilatlar açıq şəkildə Ermənistanın tərəfini tutur. Ona görə də bizə özümüzdən, dövlətimizdən başqa keç kim heç nə edən deyil".

Ə.Həsənov onu da qeyd edib ki, ölkə rəhbərliyi əsir və girovluqda olan şəxslərin azad edilməsi məsələsini daim diqqətdə saxlayır.

## Qarabağ Azadlıq Təşkilatı Qarabağa dair hesabat yayıb

**Qarabağ Azadlıq Təşkilatı (QAT) Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 2014-cü ilin yekunlarına dair hesabat hazırlayıb. Sənəddə ötən il ərzində Qarabağ ətrafında gedən proseslər, görülən işlər və sair məsələlər əhatə edilir, həmçinin Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına dair təkliflər irəli sürülür.**

Sənəddə bildirilir ki, ötən il bütövlükdə konkret nəticələrin əldə olunmaması baxımından uğursuz olub. Bu uğursuzluğun əsas səbəbi kimi beynəlxalq təşkilatların, vasitəçi dövlətlərin qeyri-obyektiv mövqeyi, həmçinin Azərbaycan hakimiyyətinin qətiyyətsizliyi, Azərbaycan cəmiyyətinin passivliyi göstərilə bilər.

QAT bildirir ki, ötən il müddətdən artıq hərbi xidmət keçənlərin orduya daha geniş miqyasda cəlb olunması müşahidə edilib: "Son 1 il ərzində Azərbaycan Silahlı Qüvvələrinə 10 min nəfərdən artıq adam, o cümlədən 300 qadın müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilib. Orduya xəstə çağırışçıların daxil olmaması üçün daxili tibbi komissiyalar yaradılıb. Orta məktəblərdə hərbi hazırlıq dərslərinin səviyyəsinin qaldırılması, ali məktəblərdə hərbi kafedraların bərpası istiqamətində müəyyən addımlar atılıb. Orduda şəxsi heyətin sosial-məişət problemləri ilə bağlı şikayətlər bir qədər azalıb. Dövlət büdcəsində hərbi xərclər yenə də artırılıb, növbəti il üçün 3,3 milyard manat (4,2 milyard dollar) müəyyən edilib".

**Sənəddə deyilir ki, cəmiyyətin mövqeyində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir qədər radikallaşma müşahidə edilib:** "Daxili təşkilatlardan Heydər Əliyev Fondu, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Cəmiyyəti (AVCİYA), Qarabağ Azadlıq Təşkilatı, xaricdəki qurumlardan Avropa Azərbaycan Cəmiyyəti daha fəal olublar, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, ölkə daxilində prinsipial mövqenin nümayiş etdirilməsi, orjinal və səmərəli mübarizə formalarının seçilməsi baxımından fəqrləniblər. Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının yardımı ilə ölkədə və xaricdə çoxlu sayda tədbirlər həyata keçirilib. Prezident Administrasiyasından Ramiz Mehdiyev, Əli Həsənov, Novruz Məmmədov Dağlıq Qarabağ münaqişəsi ilə bağlı operativ və konkret reaksiyalar veriblər. QAT "Xalq diplomatiyası" deyilən "uzdəniraq proses"in əsasən söndüyünü də xüsusi vurğulayıb. Təşkilat 2014-cü ildə özünün fəaliyyətinə də geniş yer ayırıb və ölkə daxilində, həmçinin xaricdəki çoxşaxəli fəaliyyəti barədə faktları sadalayıb.

QAT hakimiyyət və cəmiyyət səviyyəsində 2015-ci ilin "Qarabağ İli" elan olunmasını təklif edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 2 (6030) 7 yanvar 2015

# Abutalıbovun şirkəti "Velotrek"ə də sahibləndi

## "Effekt 2011" MMC köhnə avtovağzal ərazisində göydələn tikintisini sürətləndirib və velosiped meydançasının bir hissəsini də tikinti gedən əraziyə qatıb



**Bakının köhnə avtovağzal ərazisində göydələnlərin tikintisi sürətləndirilib. Uzun müddət mübahisəli ərazi olaraq qalan vağzal massivində artıq neçə vaxtdır ki, iş gedir. Ərazi hasarlanıb, ağır texnika gətirilib və tikinti işləri həyata keçirilir.**
**Əslində avtovağzalın köçürülməsindən sonra yaranmış qeyri-müəyyənlik 4 il davam etdi və hətta dövlət qurumları arasında çəkişmə də yarandı.**

Ancaq bu qarşıdurmada Bakı meri Hacıbala Abutalıbov qalib çıxdı desək, yanılmarıq. Abutalıba yaxınlığı ilə seçilən "Effekt 2011" MMC tikinti şirkətinin vağzal ərazisində gördüyü işlər intensivləşib.

Ümumiyyətlə, əvvəldən bu yerin yeni binalar üçün tikinti meydançası olacağı deyilirdi. Hətta Dövlət Layihə İnstitutunun direktoru İlqar İsbatov qeyd etmişdi ki, köhnə avtovağzal kortəbii tikildiyindən infrastruktur baxımından normal şəraitə malik deyil. Ancaq burada göydələnlər inşa etmək olar. Və belə də oldu. Hazırda ərazidə iş davam edir. 2009-cu ildən etibarən cərimə meydançası kimi istifadə olunan sahə genişləndirilir.

Yenilik ondan ibarətdir ki, köhnə avtovağzalın ərazisində göydələn tikintisi "Velotrek"in sahəsinə girməyə başlayıb. Velosiped ərazisinin bir hissəsi də onun ərazisinə qatılıb.

Axar.az-ın məlumatına görə, "Velotrek"in boş qalan hissəsi alınıb və rəsmiləşdirilib. Sayt yazır ki, vağzalın yerində yeni binalar inşa olunaraq satışa çıxarılacaq. Planda şəhərin bu hissəsini yaşayış massivinə çevirmək nəzərdə tutulub.

Elə gənclər və idman naziri Azad Rəhimov da jurnalistlərə açıqlamasında demişdi ki, orada sıxlıqdır, binalar var, insanlar çoxdur: **"Ona görə də velosiped sürmək üçün çətinliklər var. Ola bilsin ki, yeni "Velotrek" tikilsin və hazırda olan "Velotrek" isə Əmlak Məsələləri üzrə Dövlət Komitəsinə qaytarılsın".**

***

Məlumatlara görə, komitə ilə "Effekt-2011" MMC arasında məsələ həllini tapıb. Ona görə də velosiped sahəsinin bir hissəsi tikinti üçün "peşkəş" olunub. Bununla belə, vağzalın iş getməyən sahəsi hələ də avtomobillərin cərimə meydançası kimi istifadə olunur.

Məlumata görə, metroya yaxın nöqtə olduğuna görə sahəyə bir neçə məmurun gözü düşüb, amma nədənsə, yaxın gələ bilməyiblər. Bu məmurlar sırasında nəqliyyat nazirinə yaxın şəxslərin də adları çəkilirdi. Bildirək ki, "Effekt 2011" inşaat sektoruna yeni daxil olan firmalardan biridir. Həmin şirkət "Qış bulvarı" adlanan massivdə - D.Əliyeva, R.Rza və digər mərkəzi küçələrdə ev sökmə işlərini həyata keçirib. Tanınmış kinorejissor Şeyx Əbdül evinin qanunsuz söküntüsünə görə şirkəti məhkəməyə vermişdi.

Xatırladaq ki, Azərbaycan Memarlar İttifaqının məsul katibi Rəfail Həsənov mətbuata açıqlamasında köhnə avtovağzal ərazisində göydələnlərin tikilməsini məqsədəuyğun saymışdı. Mütəxəssis bildirmişdi ki, köhnə avtovağzalda kommunikasiya sistemləri, mühəndis qurğuları normal səviyyədə olub.

❑ **E.SALAMOĞLU**
**Fotolar müəllifindir**

# SOCAR Türkiyədə nağd 75 milyon dollara ofis aldı

## Şirkət İstanbulda yeni ofis mərkəzinə köçüb

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Türkiyədə yeni ofis binası alıb. Virtualaz.org saytı Türkiyə qaynaqlarına istinadən xəbər verir ki, bu ölkəyə yatırdığı investisiyaları genişləndirən şirkət daha geniş ofisə malik olmaq zərurətini nəzərə alaraq tikilməkdə olan ofis mərkəzində 12 mərtəbəli binanı alıb.**

Məlumata görə, SOCAR-ın törəmə şirkəti olan "SOCAR Türkiyə"nin ofisi indiyədək İstanbulun Maslak bölgəsində, Emlak Bankın keçmiş ofisinin yerləşdiyi biznes mərkəzinin bloklarının birində idi. İndi isə şirkət İstanbul Cenderedə, Maslaka yaxın bölgədə yeni ofis mərkəzini satın alıb. Həmin bina "Vadi İstanbul Projesi"nə daxildir. Layihədə 180 min kvadratmetrlik ofis sahəsinin tikintisi də daxildir.

Hazırda layihənin ikinci mərhələsi həyata keçirilir. "SOCAR Türkiyə"nin aldığı ofis binası 12 mərtəbəlidir və 17 min 800 kvadratmetr sahəyə malikdir. Hələlik şirkət ofis binasının alınmasına dair müqaviləni rəsmən açıqlamayıb və gözlənilir ki, sövdələşmə bu həftə açıqlanacaq.

Ancaq "Para dərgisi"nin əldə etdiyi məlumata görə, şirkət ofis binası üçün 75 milyon dollar ödəyib. Özü də nağd olaraq.

Xatırladaq ki, SOCAR Türkiyədə ən iri xarici investorlardan biridir. Şirkət bu ölkənin "Petkim" sənaye kompleksinin səhmlərinin 51 faizini 2 milyard 40 milyon dollara alıb, habelə "Tekfen" şirkətinin səhmlərinin yarısını əldə edib.

SOCAR Türkiyənin İzmir bölgəsində "Star Rafineri" adlı nəhəng neftayırma və neft-kimya kompleksinin inşasına da milyardlarla dollar yatırıb.



# "A.M.A.Y. Abdulla" məhkəmə zalından azadlığa buraxıla bilər

## Ticarət mərkəzinin həbsdə olan rəhbəri barəsində cinayət işi məhkəməyə göndərilib

**"AMAY" ticarət mərkəzinin həbsdə olan rəhbəri Abdulla Abdullayevin barəsində olan cinayət işi üzrə materiallar məhkəməyə göndərilib. Bu barədə APA-ya məlumat verən vəkil Əkbər Bağırov bildirib ki, ittiham aktı vəkillərə və təqsirləndirilən şəxslərə təqdim edilib. Ə. Bağırov cinayət işinin baxılmaq üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərildiyini deyib. Məhkəmədən isə cinayət işinin yaxın günlərdə icraata veriləcəyini bildiriblər. A.Abdullayev Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirləndirilir.**

"Yeni Müsavat"a daxil olan məlumata görə, A.Abdullayev məhkəmə zalından azad oluna bilər.

Qaynağımız qeyd edib ki, A.Abdullayevin ittiham tərəfi ilə ibtidai istintaq dövründə əldə etdiyi və sonradan pozulan razılaşması məhkəmədə gerçəkləşə bilər. Həmin razılaşmaya görə, A.Abdullayev ittiham aktında mənimsədiyi kimi göstərilən 3,5 milyon manatı büdcəyə ödəməli, bunun müqabilində barəsində seçilmiş həbs- qətimkan tədbiri dəyişdirilməlidir.

Qanunvericiliyə görə, külli miqdarda mənimsəmə faktları barədə cinayət işi başlanıbsa, mənimsənilən məbləğ tam ödənildikdə belə cinayət işinə xitam verilmir, sadəcə, həmin şəxs barəsində daha yüngül cəza tədbiri seçilir və məhkəmədə ziyanın ödənilməsini "yüngülləşdirici" hal kimi nəzərə alınır.

A.Abdullayev ötən il aprelin 4-də həbs olunub. Onunla bağlı İqtisadiyyat və Sənaye Nazirliyi yanında Sahibkarlığa Kömək Milli Fondundan daxil olmuş material Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb. A.Abdullayevin həbsi ilə bağlı Baş Prokurorluğun mətbuat xidmətinin zamanında yaydığı məlumata görə, ilkin araşdırma zamanı toplanmış sübutlar əsasında Cinayət Məcəlləsinin 179.3.2 (mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. İstintaq müəyyən edib ki, 2006-2008-ci illərdə "Birlikbank" ASC-nin Müşahidə Şurasının sədri işləmiş Abdulla Abdullayev vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə kənd təsərrüfatı, eləcə də digər sahələrin inkişafına yönəldilməsi nəzərdə tutulan ümumilikdə 3 milyon 397 min manat məbləğində vəsaiti təyinatı üzrə istifadə etməyib. İlkin istintaqın gəldiyi qənaətə görə, vəsaiti ayrı-ayrı hüquqi şəxslərin müvəkkil bank olan "Birlikbank" ASC-də açdırdığı hesablaşma hesablarına köçürülməklə həmin vəsaiti faktiki rəhbəri olduğu "A.M.A.Y" MMC-nin Xətai rayonu ərazisində yerləşən binasının təmir-tikinti işlərinə xərcləyib. Özgənin külli miqdarda əmlakını mənimsəməsində şübhələr üçün ciddi əsaslar olduğundan A.Abdullayevə Cinayət Məcəlləsinin qeyd olunan maddələri üzrə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Əfv sərəncamı İşçi Qrupu qane etməyib

## Sirac Kərimli göz ağrılarından əziyyət çəkir; Rauf Mirqədirovla bağlı istintaq hərəkəti aparılmır

**Dekabrın 30-da imzalanan əfv sərəncamı gözlənilən nəticəni vermədi. 2013-cü ilin oktyabrında təsis olunan İnsan Haqları üzrə Birgə İşçi Qrupun Əfv Komissiyasına təqdim etdiyi 27 nəfərlik siyahıdan yalnız 10 nəfər məhbus azadlığa çıxdı.**

Əfv sərəncamı verilən ərəfədə İşçi Qrupunun üzvləri azadlığa çıxacaq məhbus siyahısının geniş olacağı barədə ümidverici açıqlamalar versələr də, gözlənildiyi kimi olmadı.

**İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı** əfv sərəncamının onları qane etmədiyini söylədi: "Bütünlüklə demək olmaz ki, əfv bizi qane etmədi. 87 nəfər məhbusun həyatına biganə yanaşmaq olmaz. Amma ümumi götürəndə bizi qane etmədi. Bütün bunlara baxmayaraq, 87 nəfər ailəsinə qovuşubsa, bu müsbət haldır. Çox istərdim ki, onlar 87 yox, 187 olsun. Arzu edirəm ki, ölkəmizdə siyasi məhbuslar problemi həll olunsun. İnsanları əfv siyahısına saldırmaq çox çətindir. Bu, prezidentin səlahiyyətindədir. İşçi Qrupu, bildiyimiz kimi, oktyabrda təsis olunub. Qısa müddətdə biz məhbusların bir hissəsinin siyahısını hazırlayıb, Əfv Komissiyasına təqdim etdik. Onlardan 10-nun azad olunmasına çox sevindik. Çox istərdik ki, ölkədə amnistiya olsun. Xatırladaq ki, bir müddət əvvəl Mehriban xanım bu məsələni qaldırmış və amnistiya olmuşdur. Konkret əfv sərəncamına qiymət versək, onu deyə bilər ki, 87 nəfərin azadlığa çıxması olduqca müsbət haldır. Amma bunların içərisində siyasi məhbusların az olması bizi qane etmədi".

**Mirvari Qəhrəmanlı bundan sonra İşçi Qrupunun görəcəyi işlərdən də söz açdı:** "Əvvəlcə biz özümüz yığışacağıq. İl təzə başlayıb. Həmkarların çoxu yerində deyil. Yəqin ki, yaxın günlərdə toplaşıb, ötən ilə qiymət verəcəyik. Öz aramızda müəyyən problemi, gündəliyi müzakirə edəcəyik. Öz gündəliyimizi də hazırlayacağıq. Son iki ayda gördüyümüz işləri müzakirəyə çıxaracağıq. Mən xahiş edəcəm ki, gündəliyə ilk növbədə siyasi məhbuslar salınsın. Amnistiya təbii ki, bizlik deyil. Amma bu məsələni qaldıracağıq. Çünki İşçi Qrupunda parlament nümayəndələri də var".

**Əfvə düşməyən məhbuslardan Müsavat başqanının müavini Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah sərəncamla bağlı bunları dedi:** "Yadigar bəylə əfvdən sonra görüşməmişəm. Amma telefonla əlaqəmiz olub. O, azadlığa çıxan məhbusları təbrik etdi. Əfvə münasibəti birmənalıdır, sərəncamı uğursuz bir sənəd kimi qiymətləndirir".



**Müsavat başqanının həbsdəki digər müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin atası bayramdan sonra övladları ilə görüşdüyünü söylədi:** "Elə bir yenilik yoxdur. Müstəntiq Siracla bağlı istintaqı yekunlaşdırdığını bildirib. Hazırda övladlarım bir yerdə qalırlar. Vəziyyətləri normaldır. Fərəcin istintaqı hələ bitməyib. Siracın göz ağrıları var. Deyir ki, kitab oxuya bilmirəm. Tutulan zaman başına zərbə vurublar. Ondan ola bilər".

**"Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun vəkili Elmar Süleymanov istintaqla bağlı heç bir yeniliyin olmadığını qeyd etdi:** "Yaxın günlərdə Rauf Mirqədirovla görüşəcəm. Bayram günləri ilə əlaqədar mümkün olmurdu. İstintaqı əvvəlki qaydadadır. Formal şəkildə aparılır. Yeni istintaq hərəkəti yoxdur. Bu gedişlə həbs müddətinin yenidən artırılacağı ehtimalı yüksək olsa da, nəsə bu barədə bir fikir söyləmək olduqca çətindir. Saxlanma şəraitindən narazılığı yoxdur. İşindən Avropa Məhkəməsinə şikayətlərimizi göndərmişik".

❑ **Cavanşir ABBASLI**

# Azərbaycanlıların Tiflisdə Yeni il sərgüzəştləri



## Tiflis küçələrində az qala hər 3 maşından biri Azərbaycan nömrəsidir

**Hadisə vaqeə olur Tiflisdə. "Bu nə adətdi salersınız bura? Yediyiniz yeməyin pulu heç 200 lari eləmer, 3 ofisiantın hərəsinin civinə 100 lari basıfsınız. Qardaş, bu gürcüləri niyə pis öyrədersiniz? Siz gedersiniz, sonra biz pul verməyəndə bizə yaxşı qulluq eləmiyəjəhlər..." Cavab da maraqlıdır: "Pulum var, verirəm. İldə 1 dəfə bayramdı, qoy onlar da kef eləsinlər bizim "şotumuza"".**

Tiflisin prestijli restoranlarından birində olarkən qonşu masadakı yerli azərbaycanlı ilə Bakıdan gəlmiş qonağın bu koloritli dialoqu Kür sahilindəki bu şəhərin sadəliyi ilə Xəzər sahilindəki paytaxtın yersiz yekəxanalığına ən gözəl örnək olmaqla yanaşı bir gerçəyi üzə çıxarır: Azərbaycandan gedənlər Tiflisi "Bakının gününə" qoyurlar.

***

Qonşu Gürcüstanda yeni il keçirmək son illər az qala dəb olub. Nyu-Yorka, Parisə, Vyanaya, Romaya... pulu çatmayanlar, Bakının, Azərbaycanın bahalı olduğu qədər keyfiyyətsiz xidmətindən əsəbiləşmək istəməyənlər üçün elə ən yaxşısı da Gürcüstandır. Qışı qış, xidməti xidmət, xərci də ki... Azərbaycana baxanda xeyli az. Tiflisin, Gürcüstanın çəkiciliyi həm də ondadır ki, orada hər cibə uyğun hər keyfiyyətdə dincəlmək mümkündür. Məsələn, Yeni ili necə deyərlər, əsl qışda - qar havasında, qış turizminin bütün özəlliklərini daşıyan məkanlarda keçirmək istəyənlər Qudauriyə, Bakurianiyə gedir. Oralar gürcü aristokratiyasının, sənət adamlarının da sevimli məkanlarıdır. Sovet və yeni gürcü kinematoqrafiyasının ulduzları, gürcü ədəbiyyatının, musiqisinin tanınmışları qışda əsasən vətənlərində dincəlirlər. Tanrı Qafqaz dağlarından nə əsirgəyib ki..?

***

Orta və ortabab büdcəyə imkanı çatanlar üçün ən əlverişlisi paytaxt Tiflisdir. Tiflisdə 2-3 nəfərlik hotel odalarının qiyməti 40 dollardan başlayır. Hətta daha ucuzunu da tapmaq mümkündür... Belə "gecəqondular" gənclər üçün daha əlverişlidir - onsuz da bütün günləri çöldə-bayırda keçir. Gündüz çantanı, şəhərə yaxın şərabdan məst olan kəlləni atmaq, səhər də yuyunub yenidən Tiflisdən zövq almağa çıxmaq üçün belə ucuzvari yerlər sərfəlidir.

## Şəhəri gəzdikcə belə təəssürat yaranır ki, Bakıda ancaq yaşlılar və körpələr qalıb - qalan hamı buradadır

Daha keyfiyyətli xidmət axtaranlar üçün də seçim bolluğudur. Tiflisin mərkəzindəki Ablavar adlanan məhəllədəki kiçik otellərin qiyməti 2 nəfər üçün 50-60 dollardan başlayır. Təbii, dünya turizminin yaxşı ənənələrinə uyğun olaraq səhər yeməyi də bu qiymətin içərisindədir. 3-4 nəfərlik otaqları götürənlər üçün isə xərc bir az da ucuzlaşır. Paytaxtın mərkəzi prospekti Rustaveli, eləcə də ona bitişik əsas yollarda dünya hotel brendlərini görmək mümkündür. "Mariott" hoteldə Tiflisdə 2 nəfərlik otağın bir günlük kirayəsi 230 dollardır. Digər brend hotellərdə də qiymətlər 200-350 dollar arası dəyişir.

Bizim qonaq qaldığımız Mtsxeta Gürcüstanın qədim paytaxtıdır. Tiflisin cəmi 10 kilometrliyindədir - avtomobillə cəmi 15 dəqiqə. Görəsən, qədim gürcülər hansı səbəbdən paytaxtı o gözəl sağ sahildən sol sahilə keçirmək qərarına gəlib? Hər halda, bir səbəbləri olmalıdır. Qədim paytaxt çay kənarında, dağların arasında gözəl bir mövcədədir. Əsl qafa dincəltmək yeridir. Çox sakit, təbiətinə dalası, qışın oğlan çağında belə füsunkar, yaşıllığı əskik olmayan, hər iki addımdan gürcü mətbəxinin naz-nemətini təqdim edən kafe-restoranlarla zəngin, üzü dağlara, Kürə baxan saysız butik hotelli Mtsxeta... Zəngin gürcülərin bağ evləri də bu səmtdədir. Kürün sahilində xeyli yeni villalar görünür. Saat 6-dan sonra küçələri gəzəndə ətrafdan təndir çörəyinin qoxusu, restoranlardan canlı musiqi səsi gəlir.

Mtsxetaya əsasən Gürcüstanı yaxşı tanıyanlar gəlir. Tiflisdən "doymayanlar" hələlik buraları kəşf eləməyib. Köhnə paytaxt Tiflisin səs-küyündən uzaqlaşmaq istəyənlər üçün sözün əsl mənasında idealdır.





Burada qonaq olduğumuz restoran qədim çaxır anbarının üstündə tikilmişdi. Birinci qat - yəni zirzəminin üstü muzey-sərgidir. Burada gürcülər öz qədim şərabçılıq ənənələrinə aid ekspozisiya qurub. Geyimlər, çəlləklər, gürcü şərabının olmazsa-olmazı milli ornamentli buynuzlar - hər əşya gürcü tarixindən danışır... Könlü istəyən uzun dəstəli taxta şərabsüzəni balaca oyuqlarla dış dünyaya bağlanan şərab anbarına salıb buynuza şərab süzə də bilər. Bu balaca oyuqların üzəri şüşə ilə örtülüb. Bunun üçün para alınmır. Şərab həvəskarı əcnəbi turistlər üçün bu əsl ekzotikadır. İstəyən gürcü paltarı geyinib məxsusi olaraq düzəldilən divanda səfərdən bir xatirə şəkli də çəkdirə bilər. Bunun üçün də ödənişə ehtiyac yoxdur. Gürcülər mədəniyyətin təbliğinə yönələn belə məsələlərdən 2-3 manat umacaq qədər xırdaçı deyillər. Gürcü qüruru belə qəpikçiliyə "yaxşı baxmır".





***

Restorandakı xidmət də nümunəvi idi. Üstdəki 2 mərtəbə çox gözəl dizayn edilib. Təndir, manqal salondadır. Divarlar başdan-başa gürcü rəssamların əsərləri ilə bəzədilib. Səliqəsahman, keyfiyyətli yemək, öz işini bilən personal, canlı musiqi. 7 nəfərlik suluqunili *(eşitməyənlərə deyim, bu, ünlü gürcü pendiridir)*, çeşidli kababli, xaçapurili, açarulili, xinkalili, meyvəli, şərablı, nataxtarili - yəni hər dəm-dəstgahlı masanın xərci 320 lari oldu. Təxminən 140 manat. Yaxşı təəssüratla ayrıldıq...

***

Tiflisdə isə bunun tam əksini gördük. Şəhərdə o qədər çox turist var ki, restoranlara gedəndə gərək toqqanın altını möhkəm bərkidib gedəsən. Təəccüblənməyin, tam ciddiyik. 2 gündə Tiflisdə 3 restorana getdik - mənzərə eyni. Şəhərin mərkəzi səmtlərindən axşam çağı boş masa tapmaq müşküldür. Ofisiantların sürətlə ora-bura yüyürməsinə baxmayaraq müştərilərin üzündəki ifadə məmnunluqdan xəbər vermirdi - mətbəxlər sifarişləri sadəcə çatdırmırdı. Dağ havası, üstəlik, ucuz qiymət diş altındakı iştahı yaman üzə çıxarır, deyəsən. Hər 3 dəfədə bizim masaya yemək sifariş etdiyimiz zamandan azı 1 saat sonra gəldi. Dostların maraqlı söhbəti olmasaydı, kimdi gözləyən?

## Bayramda Azərbaycan Gürcüstan iqtisadiyyatına 2-3 milyon manat yatırıb...

***

Tiflis küçələri Azərbaycan və Ermənistan nömrə nişanlı avtomobillərlə doludur. Az qala hər 3 maşından biri Azərbaycan nömrəsidir. Ermənilər də çoxdur. Ortabab imkanı olan ermənilər Gürcüstan paytaxtına axışır. Tiflis İrəvan zənginlərini də cəlb edir - başqa haralarıı var? Bir Moskvadır, orada da indi möhkəm qanqaraçılıqdır - görənlər deyir, böhran üzlərdən gülüşü, keçmişdəki Yeni il coşğusunu qeybə çəkib. Bayramlarda imkanlı ruslar qaramat havadan qaçmağa yer axtarır.

Tiflis restoranlarında hər 3 masadan ikisində "bizimkilər"dir. Tiflisi gəzdikcə, belə təəssürat yaranır ki, Bakıda, Azərbaycanda ancaq yaşlılar və körpələr qalıb - qalan hamı buradadır. Belə ürəyiniz istəyən rahatlıqla deyə bilərsiniz ki, 2015-ci ilin ilk dəqiqələrində, saatlarında Tiflis küçələrində "Gilotsavt akhal tselis"dən çox "Yeni iliniz mübarək" sədaları eşidilib.

***

Paytaxtda gəzdikcə gördüyümüz, görüşdüyümüz tanış-bilişin sayını itirdik. Hələ biz ayın 2-də getmişdik, bayram günləri lap qələbəlikmiş. Tətilin son günü sərhəddə yaranacaq sıxlıqdan ehtiyat edənlər yanvarın ikisindən Tiflisdən Bakıya doğru "tərpənib". Çox da düz eləyiblər. Tətilin son günündə "Sınıq körpü"dəki kilometrlərlə davam edən tıxac və insan selini görəndən sonra onlara haqq verməmək mümkün deyil. "Sərhəd hekayəmiz"i o biri reportajda danışarıq.

Tiflisdən getmək kimi, Tiflisə gəlməyin də bir neçə "yolu" var - uçaq, qatar, taksi, avtobus, şəxsi avtomobil... Burada da qərarı demək olar Yer üzünün bütün problemlərində olduğu kimi - vaxt və pul verir. Bakı-Tiflis uçağına gediş-dönüş bileti 180 manatdır. Təbii, siz bayramda onu tapa bilsəniz. Qatar bileti illərdir elə satışa çıxan gün bitir. Dekabrın 20-nə yaxın dəmir yol vağzalında kassaların qarşısına belə yaxınlaşmaq mümkün deyil. Dövlət Dəmir Yolu İdarəsindən öyrəndik ki, bu il də keçən illərdə olduğu kimi Bakı-Tiflis qatarına əlavə 2 vaqon qoşulub. Sərnişinlərin tələbatını ödəmək üçün pis çıxış yolu deyil. Təxminən 30 manata axşam Bakıda mindiyiniz qatardan səhər Tiflisdə enə bilərsiz. Qatara bilet tapmayanlar 20 manatla sərhədə qədər gələ, sərhədi piyada keçib taksiyə 10-15 manat ödəyib Tiflisə çata bilərlər. Tiflisə avtobusla gedənlər 10 manat kimi simvolik məbləğ ödəsələr də sərhəddə saatlarla gözləməyi gözə almalıdırlar. Gürcüstanı gəzmək adı ilə öz avtomobilində evdən çıxanlar isə təcrübəsiz insanlardır - onlar ancaq "Sınıq körpü"nü qarış-qarış gəzəcəklər.

***

Bayram zamanı Tiflisə Azərbaycanın az qala bütün turizm agentlikləri turist səfərləri təşkil edir. Görünür, yerli məmurlar Azərbaycanda turizmin inkişafına dövlət qayğısı dedikdə bu faktları nəzərdə tuturlar... Orta hesabla Tiflisə Yeni il keçirməyə gedən 4 nəfərlik Azərbaycan ailəsi 4 gündə 1000-1200 manat xərcləyir. Kobud hesablasaq, 4 gündə Azərbaycan Gürcüstan iqtisadiyyatına 2-3 milyon yatırıb. Turistlərin sayının hər il həndəsi silsilə ilə artdığını nəzərə alaraq demək olar ki, Gürcüstan hələ çiçəklənəcək - yazının əvvəlindəki bakılının sözü olmasın, Azərbaycanın "şotuna".

**Aygün MURADXANLI**











# “El yolunda həbslər olub, olacaq da...”

## Təbrizli ustad Həsənağa Dəmirçi “Yeni Müsavat”a danışdı

**Dünya azərbaycanlılarının həmrəyliyi günü ərəfəsində Təbrizin tanınmış musiqiçisi, bəstəkar Həsənağa Dəmirçi Bakının qonağı olub. Öz millətsevərliyi və mübarizliyi ilə Dəmirçi o taylı-bu taylı Azərbaycan ictimaiyyətinə yaxşı tanışdır. Təbrizdə Azərbaycan milli musiqisinin təbliği və tədrisi ilə məşğul olan ustad bu səbəbdən dəfələrlə İran hakimiyyəti tərəfindən təzyiq və ittihamlara məruz qalıb, 6 ay həbsdə yatıb. Onunla söhbəti təqdim edirik.**

***- Dünya azərbaycanlılarının həmrəylik günü sizin üçün nə deməkdir və güneylilər bu günü necə dəyərləndirirlər?***

- Sözün düzü, güneylilərin əksəriyyəti bu gündən xəbərsizdir, yəni vəziyyət buna imkan vermir. Lakin Azərbaycanla bağlı məsələlərdə fəallıq göstərənlər bu günü çox yaxşı qarşılayır.

***- Bakıya tez-tez gəlirsiz?***

- Bura təxminən 5-6 əvvəl gəlmişdim. Abadlıq və gözəllik baxımından şəhərdə çox böyük dəyişiklik var, güvəniləsi bir paytaxt olub. Doğrudur, ətrafa baxanda görünür ki, görüləsi işlər hələ də var, lakin ümumilikdə problemlərin sayının azaldığı hiss olunur. Arzu edirəm ki, bu gözəllik təkcə Bakıda yox, digər şəhər və rayonlarda da sürətlə həyata keçirilsin, Güneydə Tehranla kifayətlənildiyi kimi, burda da bir Bakıyla kifayətlənilməsin. Şair Nizami Möcüz demişkən:

*“Səba, yolun düşsə Tehranə, söylə miri-Tehranə*
*Fəqət Tehran deyil İran, hər yan gərək işıqlansın..."*

Milli azlıqların burada azad şəkildə, heç bir təzyiq olmadan yaşayıb işlərinə davam etdiyini görürük, bu, çox gözəldir. Biz güneylilər Azərbaycanın hər bir uğurlu işinə sevinir, fəxr edirik. Onu da deyim ki, Güneydə Azərbaycanı sevməyən qüvvələr çoxdur.

***- Azərbaycan cəmiyyətində sizi qane edən və etməyən tərəflər hansılardır?***

- Az müddətdə qonaq olduğumuzdan burda baş verən prosesləri o qədər də dərindən izləyə bilmirik. Ancaq mədəni səviyyənin sürətlə inkişaf edib irəli getdiyi açıq surətdə nəzərə çarpır. Məsələn, burda olan yol mədəniyyəti bizimkilərlə müqayisədə mənim çox xoşuma gəldi. Düzdür, qanunu pozan, sərxoş sürücülərə dünyanın hər yerində rast gəlmək olur, bəlkə də təsadüfdən mənim gördüklərim hamısı yaxşı olub, ancaq görünən odur ki, sürücülər piyadalara və digər sürücülərə hörmətlə yanaşır...Və yaxud kimdənsə ev adresi, ünvan soruşanda çox mədəni surətdə tərif edirlər, bu çox xoşdur.

***- Mədəniyyətimizin inkişafı kənardan necə təsir bağışlayır?***

- İnkişaf göz qabağındadır, yəni sürətlə inkişaf edir. Amma bəzən televiziya ekranlarında bayağılığa yol verilir, mənasız və o qədər də dəyəri olmayan mahnılar baş alıb gedir. Xeyli sayda kanal ortaya çıxıb, bunun yaxşı tərəfləri olduğu kimi, mənfi tərəfləri də var. Təbii ki, bunlarla yanaşı, millətimizin tarixi, keçmişi, qan yaddaşı haqda gözəl proqramlar da hazırlanır. Məsələn, elə bu gün bir verilişi izlədim, bilmədiyim tarixi faktları öyrəndim. İncəsənətin bir çox növləri məsələn, rəssamlıq, heykəltəraşlıq getdikcə daha da inkişaf edir. Lakin çox istərdim ki, bununla yanaşı, texniki sənətlər də inkişaf etsin, hansısa material üçün digər ölkələrə üz tutulmasın. Məsələn, Təbrizdə sənət istehsalı yaradıcılığı çox inkişaf edir, təsəvvür edin ki, dövlət tərəfindən heç bir köməklik almadan insanlar öz gücü, iradəsi sayəsində texniki sənətdə qabağa gedə bilirlər. Yeni deməyim budur ki, həm dövlətin, həm də sənətkarların səyi nəticəsində texniki sənət daha qabarıq şəkildə inkişaf edə bilər.



### “Güneydə Azərbaycanı sevməyən qüvvələr çoxdur”

***- İttiham olunduğunuz məhkəmədə bildirmisiz ki, “Urmiya gölü haqda mahnı bəstələdiyim üçün fəxr edirəm”. O günləri necə xatırlayırsınız?***

- Bir igidin toyu idi. Onu da qeyd edim ki, həmin gənclərin indi bir övladlı var və adını Savaş qoyublar. Toyda mən Urmiya gölünə aid mahnımı ifa edib, oxudum. Hakimiyyətə bir qədər “ağır” gəldi. Məni sorğu-sualla tutdular ki, “niyə bunu oxumusan”, məni məhkəməyə çağırdılar. Hakim sual verdi ki, “Toy nədir, Urmiya gölü haqda mahnı nədir?” Mən də onda bu cavabı verdim ki: “Hərdən təmənnasız olaraq tanışlarımın toyuna gedərəm. Olur ki, demək istədiyim sözləri musiqi vasitəsilə ifa çatdırıram. Məsələn, insanlar bilsinlər ki, Təbrizdə bir vaxtlar bağları söküb yerində ev və yaxud idarə tikmişdilər. Bu hadisələrə görə də mahnı qoşmuşdum, onda gərək bunu da hesaba alasız. Bundan başqa bizim öz dilimiz olmalıdır, biz öz dilimizdə yazıb oxumalıyıq”. Bildirdim ki, mənim amalım budur. Beləliklə, məhkəmədə bəraət qazandım...

***- Bildiyimizə görə, hansısa səbəbdən 6 ay həbs almısınız...***

- Doğrudur, belə bir olay olub. Qaradağda zəlzələ olan zaman əhaliyə olunan yardımlarda iştirak etdik, əlimizdən gələn köməyi əsirgəməməyə çalışdıq. Bizə isə bildirilər ki, “siz gərək hakimiyyətdən icazə alıb bu addımı ataydınız”. Mən də bildirdim ki, hadisə zamanı minlərlə insan köməyə getmişdi, bu qədər insan icazə ala bilərdi? Bizə etibar edilib pul və yaxud başqa vəsaitlər verilirdi, biz də onu xalqa çatdırmışıq. Xalqa kömək etmək bizim borcumuz, vəzifəmizdir. Təsəvvür edin, insanlar uçmuş evlərin altında qalıb, biz isə bir-bir hakimiyyətdən icazə alıb köməyə getməliyimişik. Bizi ciddi-cəhdlə sorğu-suala tuturdular ki, kömək edən insanların adını açıqlayaq, amma biz bunu etmədik.... Nəticədə bizə 6 ay həbs cəzası kəsdilər. Amma olsun, millətimiz üçün hər cür fədakarlığa hazırıq. El yolunda həbslər, maddi xərclər olub, olacaq da. Hər kim ki, millətinə haqq qazandırsa gərəkdir ki, bütün əzab-əziyyətə tablaşa. Azərbaycançılıq uğrunda canını qoyan insalar çoxdur və bu belə də olmalıdır. Həmin hadisələrdə millətimiz birlik göstərirdi, bu, məni çox sevindirirdi. Zəlzələnin birinci günü biz hadisə yerinə gedəndə gözə dəyən adam çox deyildi, televiziyadan da bildirildi ki, itki o qədər də çox deyil. Lakin əhali duyuq düşdü ki, məsələ başqa cürdür, həlak olanlar və dağıntılar çoxdur. Səhəri gün insanlar 22 km yol qət edərək köməyə gəldilər. Hərə kəsin borcu olduğu kimi, bizə də bir borc düşürdü və çalışırdıq ki, bunun öhdəsindən layiqincə gələk.

***- Urmiya gölünün qurudulması hansı nəticələrə gətirib çıxarda bilər?***

- Bu haqda daha çox mütəxəssislər dolğun cavab verə bilər. Ancaq sadə bir vətəndaş kimi deyə bilərəm ki, orda olan duzlar ətrafa səpələnəcək. Gözəllik əldən gedir, oranın özəl bir gözəlliyi var ki, indi xaraba qalacaq. Bu barədə səsini çıxaran gənclərə təzyiq göstərildi, onlar dəyənəklə, sillə ilə qarşılandılar, həbs edildilər, hətta bu günəcən bu məsələyə görə zindan həyatı yaşayan və yaxud vətənindən qaçaq düşənlər var. Dövlət istəsə, bu problemi həll edə bilər, amma göründüyü kimi, gölün qurudulması bəzi dairələr üçün əlverişlidir. Burda bir siyasi amil var - türk düşmənliyi amili. Bu, türklər, xüsusən də öndə olan Azərbaycan türkləri ilə bağlı olan düşmənçilikdir. Düşmənçilik olmasa, orda iki dil rəsmiləşər.

***- İran hakimiyyəti elan etdi ki, tezliklə Azərbaycan dilində televiziya açılacaq. Sizcə, dilimizin təbliğatı barədə yenilik olacaqmı, buna inanmaq olarmı?***

- Qızım, bu hekayələri eşit, amma inanma.

***- Azərbaycan milli musiqisinin təbliği üçün açdığınız məktəb dəfələrlə hakimiyyət tərəfindən bağlanıb...***

- Doğrudur, dəfələrlə məktəbə gəlib irad bildirdilər ki, siz burda sözləri türkcə yazmısız. Mən də dedim ki, bu bizim danışdığımız dildir ki, bunu yazmışam. Dedilər ki, bu doğru deyil, rəsmi dil fars dilidirsə deməli, bu dildə yazmalıydız. Və yığışıb bir qərara gəldilər ki, məktəbi bağlasınlar. Bunlar hər cür bəhanə axtarırdılar məktəbi bağlamağa və bağladılar da. Bir neçə dəfə bağlı oldum yenidən fəaliyyət göstərsin, lakin 5 dəfə bağlandı, açıldı. Daha sonra İran qəzetlərinin birində türklərə qarşı yazı gedəndə biz ayağa qalxdıq. Apardılar məni, mühakimə etdilər ki, bu işin yaranmasında sizin də əliniz var və bir il həbs cəzası kəsdilər. Lakin 6 aydan sonra mənə bildirdilər ki, günahsızam, bəraət aldım. Gələndə isə məktəbi yenidən açmağa imkan vermədilər. İndi də məktəb fəaliyyət göstərmir, dərsləri evdə keçirəm.



### “Bizə qarşı düşmənçilik olmasa, İranda iki dil rəsmiləşər...”

***- Azərbaycan dili necə qorunub saxlanılır?***

- Hazırda dil uğrunda iki yöndə mübarizə aparılır. Onun biri budur ki, hakimiyyət çalışır fars dilini bizə yeritsin, dilimiz farslaşsın, türk sözləri yavaş-yavaş sıradan çıxsın. Digər tərəfdən isə bir sıra ziyalılarımız çalışır ki, dilimizdə olan alınma sözləri kənarlaşdırsınlar. Hətta burda - Quzeydə də dilimizdə ərəb-fars sözləri çoxdur. Məsələn, “tələbə”, bu, ərəb sözüdür. Bizdə dilin təmizlənməsinə çalışanlar “tələbə” deyil, öyrənci deyirlər. Daha bir misal, tutaq ki, muğam yarışı keçirilir, sizdə buna “müsabiqə” deyirlər, bu da ərəb sözüdür, əslində baxanda “yarış” sözü olmalıdır və s. Daha bir misal, oxuyana “xanəndə” deyirsiz. Elə xanəndə deyil, “oxuyan” desək dilimizdən bu sözlər kənarlaşar. Var olan sözlərimizdən faydalansaq, daha məqsədəuyğun olar.

Mən bir qədər muğamlarımızı haqqında danışmaq istərdim. Muğam bütün Şərq aləminə, o cümlədən azərbaycanlılarla yanaşı, özbək və ərəblərə, hindlilərə məxsusdur. Muğam aləmində aid olduğu millətin hərəsinin öz payı var, Azərbaycanın payı isə digərlərindən çoxdur. Lakin təəssüflə bildirməliyəm ki, zamanında musiqiçilərimiz muğamlarımızı ərəb, fars dili ilə adlandırıblar. Mən dərs zamanı tələbələrimə muğamları təbliğ edərkən öz ana dilimizdə müraciət edirəm. Məsələn, “Segah-Zabul”. Zabul Ərəbistan şəhərlərindən biridir. Bu muğamı biz artıq “Nisgil” adlandırırıq, çünki bizim dilə tərcümədə bu cürdür. Və yaxud “Segah”, bu söz “sevgiyə yalvarış” mənasındadır, ona görə də bunu “Sevgi” muğamı adlandırırıq. “Şur”u “Öyüd”, “Çahargah”ı isə - “Yürüş”. Çünki diqqət etsək görərik ki, bu muğam başdan-başa döyüşür. “Çahargah” muğamı haqda görkəmli şairimiz Bəxtiyar Vahabzadə öz poemasında bəhs edib. Bir dəfə şairlə görüşməyə nail oldum, muğamlar haqda fikrimi ona bildirəndə şair çox sevindi və bildirdi ki, qətiyyətlə bu məsələnin üstünə düşmək, tezliklə həll etmək lazımdır... Doğrudur, uzun müddət başqa adla tanınan muğamı indi başqa adla tanımaq bir qədər vaxt aparacaq, amma artıq indidən bunu özümüzə adət etməliyik və bu cür zəruridir. Bu barədə kitab dərsliyim də var. Çalışıram ki, bir azərbaycanlı musiqiçisi kimi öz öhdəmə düşəni yerinə yetirim, ancaq belə məsələlər gərəkdir ki, musiqi alimlərinin, bilicilərinin nəzarəti altında olsun, dəyişikliklərə onlar qərar verə bilərlər.

***- Ən çox sevdiyiniz Azərbaycan bəstəkarı kimdir?***

- Demək olar ki, hamısını sevirəm, amma deyərdim daha çox üstün olanı Üzeyir Hacıbəylidir. Klassik bəstəkarlarımızın hansı əsərinə diqqət yetirsək görərik ki, hamısı dünyəvi əsərlərdir. O tayda da usta Səlimidir.

***- Qəlbinizdə daima səslənən könül nəğməniz varmı?***

- Əlbəttə var. “Səhənd” təxəllüslü Bulud Qaraçorlunun “Yasaq” şeiri var, ona bir mahnı bəstələmişəm. O mahnı hər zaman könlümdədir...

***- Milli hərəkatın bugünkü fəaliyyəti, sizcə, qaneedicidirmi?***

- Bu hərəkat hələ də fəaliyyətini davam etdirir. Mən incəsənət, mədəniyyət aləminin adamı olduğumdan, siyasi məsələlərdən bir az kənardayam, buna görə də içəridə baş verənlərdən dolğun xəbərdar deyiləm. Amma görünən odur ki, məqam gələndə toplum şəkildə meydana çıxıb öz iradələrini göstərirlər. Qətiyyətlə deyə bilərəm ki, bu hərəkatın üzvləri çox güclü insanlardır. Axır zamanlar onlara qarşı ciddi təzyiqlər var, buna görə bir qədər çalışırlar ki, məsələləri sakitcə həll eləsinlər. Hərəkat zahirən sakit görünsə də igid cavanlarımız millət üçün öz işlərini görülər. Onu da deyim ki, cavanlarımız getdikcə savadlanırlar, bu sevindirici haldır. Əgər onlara azad fikir söyləmək imkanı versələr, biliklərinin yüksək səviyyədə olduğu aşkara çıxar. Onlar bizim Azərbaycanın əzilmiş, tapdalanmış hüquqlarının müdafiəçisi, dostlarıdır. Onlara bəzən ağır cəza kəsilir, amma məqam gələndə artıq onlar susmayacaqlar...

***- O tayda klassik musiqimizə dair dərsliklər varmı?***

- Elə keçmişdən bu taydan bəhrələnməyə çalışmışıq. Hətta televiziya olmayan bir dövrdə çətinliklə də olsa radionu quraşdırıb mahnıları, oxuyanları izləyirdik. Şəxsən mən muğam barəsində burdan çox məlumat əldə etmişəm. Bu sözü rəqslərimiz haqda da deyə bilərəm. Rəqqaslarımız burdakı milli rəqsləri öyrənir, izləyirlər. Azərbaycan rəqsləri dünyada tanınan və rəğbətlə qarşılanan rəqslərdir. Əvvəllər çox çətinlik çəkirdik, lakin indi burdan xeyli kitab, dərsliklər, disklər aparılır. Daha çox isə Azərbaycanın müxtəlif televiziya kanallarının orda yayımlanması bu işə böyük köməklik göstərir.

Qeyd edim ki, neçə əsr bundan əvvəl Təbrizdə böyük musiqi aləmi və alimləri olub. O zamanlar hamı Təbrizdən bəhrələnirdi, indi Təbriz bu taydan bəhrələnir (gülümsəyir). Əlbəttə bu təbiidir. Şükürlər olsun ki, uzun illərin ayrılığından sonra iki tay arasında gediş-gəliş azadlaşıb və biz incəsənət mədəniyyət baxımından bir-birimizi daha yaxın tanımağa nail oluruq. Elə bir mahnı yoxdur ki, burda oxunsun, amma o biri tayda bixəbər olsunlar, gənclərimizi bu barədə fəallıq göstərirlər. Lakin bu tayda olanlar güneyli mahnıları kifayət qədər tanımırlar. Məsələn, tanınmış musiqiçi ustad Səlimin mahnıları haqda burda o qədər də məlumat, bilgi yoxdur.

***- Bu günəcən yaşadığınız həyatınızda ən xoş gününüz hansı olub?***

- Belə günlərim çox olub. Bunlardan deyərdim, elə ən birincisi Azərbaycan öz istiqlaliyyətini qazandığı gündür.

❑ **Xalidə GƏRAY**

# Sinoptiklərdən xəbərdarlıq: hava kəskin dəyişəcək

## Ekspertlər qışın mülayim keçməsinin infeksion xəstəliklərin yayılmasına səbəb olacağını açıqlayırlar

**Yanvarın 7-də Azərbaycanda hava şəraiti kəskin dəyişəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Porqnozlar Bürosunun direktor müavini Gülşad Məmmədova "Trend"ə bildirib ki, yanvarın 7-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, arabir tutulacaq, gün ərzində əsasən yağmursuz keçəcək. Arabir güclənən cənub-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 3-5, gündüz 12-14 dərəcə isti olacaq. Axşam havanın kəskin dəyişəcəyi, şimal-qərb küləyinin güclənəcəyi, temperaturun 1-3 dərəcə isti olacağı gözlənilir.

G.Məmmədova qeyd edib ki, Azərbaycanın rayonlarında gecə və səhər duman və çiskin müşahidə olunacaq. Günün ikinci yarısında qərb rayonlarından başlayaraq, havanın yağıntılı olacağı, sulu qar və qar yağacağı gözlənilir. Cənub-qərb küləyi əsəcək, əsasən dağlıq ərazilərdə arabir güclənəcək. Günün ikinci yarısında güclü şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 0-5, gündüz 11-16 dərəcə isti olacaq. Dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 5-10, axşam 0-3 dərəcə şaxta olacağı gözlənilir.

Təqvimdə yanvar ayı olduğunu nəzərə almasaq, Bakıda qış fəslinin yaşandığını demək mümkün deyil. Dekabr ayı da daxil olmaqla, havaların isti keçməsi və qar yağmaması artıq insanları narahat etməyə başlayıb. Havanın temperaturu 10-15 dərəcə arasında dəyişir, bəzi hallarda bundan da yüksək olur. Ekspertlər qışın mülayim keçməsinin infeksion xəstəliklərin yayılmasına səbəb olacağını açıqlayırlar.

Bəs görəsən, hər zaman Bakını qışa hazırlıqsız yaxalayan qarın bu il belə gec yağmasının səbəb nədir? Bu hansı ekoloji proseslərin nəticəsidir?

**Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin rəhbəri Telman Zeynalov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ölkədə qış vaxtı şimal, şimal-qərb küləyi üstünlük təşkil edəcək, əgər cənub küləkləri əsəcəksə, havanın temperaturu normal olacaq:** "Qafqaz ərazisində sərt qış nadir hallarda olur. Ona görə də bu havalar Azərbaycan təbiətinə uyğundur. Bizdə adətən sərt qış fevral ayında olur. Sözsüz ki, qışın mülayim keçməsi epidemiyaların və infeksiyaların yayılmasına şərait yaradır. Bu arzuolunmaz bir haldır. Bu səbəbdən biz qarın yağmasını arzulayırıq. Biz istərdik ki, qışda yağıntı bol olsun və yayda quraqlığa tab gətirə bilək".

**Telman Zeynalovun fikrincə, digər tərəfdən, Bakı qışa hazır deyil:** "Bakı qışa hazır deyil. Çünki Bakıda yaşanan qış digər ölkələrdən fərqlənir. Bu da bir çox kommunal problemlərin yaranmasına səbəb olur. Yollar günlərlə buz bağlayır. Bu səbəbdən qar yağması insanlar üçün arzu olunan deyil".

**Ekoloq bu cür anomal havalara qlobal istiləşmə prosesinin səbəb olduğu iddiasına da münasibət bildirdi:** "Qlobal istiləşmə Amerikanın və bəzi dövlətlərin ortaya atdığı oyundur. Bu, postsovet ölkələrini inkişafdan geri salmağa hesablanıb. Karbon qazı heç zaman istilik effekti yaratmayıb və qlobal istiləşmə üçün göstərilən səbəblər əsassızdır. Bu səbəbdən qlobal istiləşmə ifadəsi real deyil, əksinə, bir oyundur" .

Ekspert onu vurğuladı ki, ölkədə bir neçə gün ardıcıl şimal küləkləri əsərsə, Bakıda qar yağacaq.

**"Yeni Müsavat"a açıqlamasında yanvar ayında havaların bu cür isti keçməsinin insan səhhətinə mənfi təsirindən danışan tibb elmləri doktoru Adil Qeybulla əhalini diqqətli olmağa çağırdı:** "Havaların bu cür isti keçməsi aldadıcı xarakter daşıyır və müxtəlif virusların fəallaşmasına şərait yaradır. Bu zaman soyuqdəymə, qrip xəstəliklərinin artması müşahidə olunur. Xüsusilə də yuxarı tənəffüs orqanlarında 15-dən yuxarı infeksiyalar fəallaşır və yuxarı tənəffüs yollarında iltihablaşmaya səbəb olur. Bu soyuqdəymə, qrip virusu yoluxucu xarakter daşıdığından sürətlə yayılır. Bu baxımdan belə anomal havalarda diqqətli olmaq lazımdır, xəstə insanlar qoruyucu maskalardan istifadə etməlidirlər, yataq şəraitində olmalıdırlar. Havanın günəşli olmasına baxmayaraq, qış fəslinə uyğun geyinmək lazımdır".

❑ **Nərgiz LİFTİYEVA**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

### Təbrik



**Mirələmov Xəlilin 5 yaşı tamam olur. Onu bu münasibətlə nənəsi Seyidnisə xanım, əmiləri Rahib, Sahib, atası Rahim, anası Tahirə xanım təbrik edirlər. Ona uzun ömür, cansağlığı, xoşbəxt gələcək, sevgi dolu həyat arzulayırlar.**

**Bu təbrikə qohumları da qoşulur.**

# "Tubzon"un qarşısında məhkum yaxınları aksiya keçirdi

## Məhkumun öldürülməsi daha bir etiraz doğurdu; Mədət Quliyevin müavini əraziyə gedib



***Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Binə qəsəbəsində yerləşən Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinin (əsasən "Tubzon" adı ilə tanınır)qarşısında etiraz aksiyası keçirilib. Bu haqda "Yeni Müsavat"a etirazçılardan biri məlumat verib. Etiraz edənlər 14 saylı cəzaçəkmə müəssisəsindən qeyd edilən müəssisəyə köçürülən məhkumların yaxınları olub.***

Onlardan biri deyib ki, 14 saylı müəssisədə məhkum Elşad Babayevin işgəncə ilə öldürülməsinə etiraz edənlərin əksəriyyəti "tubzon"a köçürülüb: "Dekabrın 22-də məhkum Elşad Babayevin öldürülməsi xəbəri yayılıb. Bundan sonra məhkumlar etiraza qalxıblar. Etiraz yatırılıb. Bundan sonra biz yaxınlarımızla danışmışıq. Onlar da baş vermiş olaya etirazın olduğunu və məhkum Elşad Babayevi öldürən müəssisə əməkdaşlarının cəzalandırılmasını tələb etdiklərini bildiriblər. Dekabrın 25-dən 26-na keçən gecə xüsusi təyinatlılar basqın edib. Gecə yarısı yatmış məhbuslar yuxudan qaldırılaraq döyülüb və "tubzon"a" köçürülüblər".

Nizami Quliyev Azərbaycanda vərəmli xəstələrə əzab verən rəis kimi ad çıxarıb. Bura köçürülən bizim yaxınlarımızdan kimsədə vərəm olmayıb. Onları bura işgəncə vermək üçün köçürüblər. Biz tələb edirik ki, yaxınlarımızla nəzarət altında olsa belə görüş versinlər. Onlara işgəncə verirlər. Belə olmasaydı bizimlə görüşlərinə imkan verilərdi. Bizə əvvəlcə deyirdilər ki, guya 14-cü "zon"dan bura köçürülən 50-yə yaxın məhkumda vərəm var. Sonra isə dedilər ki, onlar "naruşitel"lərdir (qanunu pozanlar), "kars"dadırlar. Əgər qanunu pozublarsa, qanunla ölçü götürülsün. Onlara işgəncə vermək, sağlam adamları vərəmlilərlə birgə saxlamaq qanunsuzdur. "Tubzon"un rəisi vərəmli məhbuslarla qəddar rəftarına görə ad çıxarıb".

**"Tubzon"un qarşısında etiraz aksiyasından sonra əraziyə Penitensiar Xidmətin rəis müavini, əməliyyat-rejim idarəsinin rəisi İmran Tağızadə gedib. O, etirazçı valideynlərə yaxınları ilə görüş verilməyəcəyini bəyan edib:** "İmran Tağızadə dedi ki, 14 saylı müəssisədə iğtişaş olub. Ona görə də yaxınlarımızı bura köçürüblər. Cinayət işi başlanıb. Biz yaxınlarımızla 2 dəqiqəlik də olsa görüş istədik. Onları görüb sağlıq durumları haqda xəbər almaq istədiyimizi dedik. Dedi ki, görüş olmayacaq".

**Məhkumların yaxınları bu gün Ədliyyə Nazirliyinə və Prezident Administrasiyasına gedərək üzləşdikləri durumla bağlı kömək istəyəcəklər:** "Biz öz dövlətimizdən kömək istəyirik. Yaxınlarımız qanunu pozublarsa, bunun müqabilində azadlıqdan məhrum ediliblər. Onların işgəncələrə məruz qoyulması da qanunda nəzərdə tutulmayıb. Konstutusiyamızın qarantı olan prezidentdən kömək istəyirik".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 2 (6030) 7 yanvar 2015




# Bağlanacaq bankların adı açıqlandı

## Mərkəzi Bank nizamnamə kapitalı tələbini yerinə yetirməyən banklarla bağlı son qərar verməyə hazırlaşır

**Ölkədə fəaliyyət göstərən bankların bağlanacağı barədə xəbərlər yenidən aktuallaşıb. Bu dəfə Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov açıqlama verərək bildirib ki, söhbət 6-ya yaxın bankdan gedir. "Mənə verilən məlumata görə, 2014-cü ilin dekabr ayının 30-da 6-ya yaxın bank məcmu kapitalını 50 milyon manata çatdıra bilməmişdi. Bugünkü vəziyyətin necə olduğunu deyə bilmərəm. Çox güman ki, həmin banklar ya bağlanacaq, ya da başqa banklarla birləşdiriləcək. Amma həmin banklarla bağlı son qərar hələ verilməyib" deyə, V.Əhmədov modern.az saytına bildirib.**

O qeyd edib ki, 2014-cü il yanvarın 1-dən etibarən qüvvəyə minməsi nəzərdə tutulan qanunun tətbiqi o zaman Mərkəzi Bankın qərarı ilə təxirə salınıb, sonradan bu, 2015-ci il yanvar ayının 1-i olaraq müəyyənləşdirilib.

Modern.az-ın əldə etdiyi rəsmi məlumata görə, bağlanacaq banklar bunlar ola bilər:

"EuroBank" - məcmu kapitalı 7,5 milyon manat

"Naxçıvan Bank" - məcmu kapitalı 42 milyon manat

"Bank Avrasiya" - məcmu kapitalı 22 milyon manat

"Azərbaycan Kredit Bankı" - məcmu kapitalı 5,8 milyon manat

Siyahıda adı olan "Atra Bank"ın isə məcmu kapitalının 50 milyon manata yaxınlaşdığı bildirilir.

"Azər-Türk Bank"ın məcmu kapitalı 50 milyon manatdır.

Qeyd edək ki, ötən il Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov bildirmişdi ki, ölkədə 5-6 bankın AMB-nin kapitala olan tələbini yerinə yetirməyəcəyi proqnozu var. Ekspertlərin sözlərinə görə, bankların məcmu kapitalının 50 milyon manata qaldırılması bəzi bankların kapitalının formalaşdırılması ilə bağlı öhdəlikləri yerinə yetirməməsinə gətirib çıxarıb. Ekspertlərin fikrincə, bank sektorunda təmərküzləşmə prosesləri davam etməlidir, islahatlar getməlidir.

Ekspertlər vurğulayırlar ki, məcmu kapitalı tələb olunan həddə çatdıra bilməyəcək bankları ciddi təhlükə gözləyir. Əlli milyonluq həddi keçə bilməyən banklar isə ya başqa bankla birləşməlidir, ya bazarı tamam tərk etməlidir, ya da bank olmayan kredit təşkilatına çevrilməlidir. Kredit təşkilatına çevrildikdə də əmanətlərin qaytarılması məsələsi gündəmə gəlir. Azərbaycan qanunvericiliyinə görə, bank olmayan kredit təşkilatı əmanət qəbul edə bilməz. Onun elə bir səlahiyyəti yoxdur. Banklar bank olmayan kredit təşkilatına çevriləndə əmanət məsələsini həll etməlidir. Əks halda, Mərkəzi Bank ona razılıq verməyəcək və bank bazarı tərk etməli olacaq.

**İqtisadçı ekspert Samir Əliyev musavat.com-a açıqlamasında bildirib ki, Mərkəzi Bankın məcmu kapitalla bağlı tələbinə əməl edə bilməyən bankların sayı 5-10 arası ola bilər:** "Biz ötən ildən bu barədə proqnozlarımızı açıqlamışdıq. Proseslər onu göstərdi ki, hətta bağlanmaq ehtimalı yüksək olan bəzi banklar da bu problemdən çıxa bildi. Özlərinə bir səhmdar tapdılar və problemi həll etdilər. İndi görünür ki, tələbi yerinə yetirə bilməyən 5-6 bank var. İki bank xarici bankın filialıdır, söhbət Pakistan Milli Bankından və İran Milli Bankından gedir. Onların məcmu kapitalı artırmaqla bağlı problemləri var idi. Bu, təbii ki, dövlət səviyyəsində həll olunan məsələ olduğundan, onların bağlanması daha çox dövlətlərarası razılaşmanın nəticələrinə əsasən müəyyən olunacaq. Burada artıq məcmu kapitalı o qədər də ciddi rol oynamayacaq. Qalan banklar təbii ki, əgər bu vaxta qədər bu tələbi ödəyə bilməyibsə, onlar artıq bazarı tərk etməlidirlər. Ya bank olmayan kredit təşkilatına çevrilməlidirlər, ya da ki ümumiyyətlə tamamilə maliyyə bazarını tərk etməlidirlər. Yəni artıq Mərkəzi Bank öz qoyduğu qaydanı yerinə yetirsə, həmin banklardan lisenziya alınmalıdır, onlar bank fəaliyyətini faktiki olaraq dayandırmalıdır".

**S.Əliyev qeyd edir ki, baş verənlərin bazara ciddi təsiri olmayacaq:** "Bazara ciddi təsirini gözləmirəm. Çünki bağlanacaq banklar o banklardır ki, onların bazarda payı çox cüzidir. Hətta Mərkəzi Bank bağlanmaq potensialı yüksək olan banklara artıq ötən ildən əmanət qəbul etməmək barədə göstəriş vermişdi, məhdudiyyət tətbiq etmişdilər. Nəzərə alsaq ki, əmanətlərin bir hissəsi sığortalanıb, ona görə bankların timsalında bazarda elə ciddi bir çaxnaşma gözlənilmir. Yəni ola bilər ki, müəyyən təbəqə əmanətləri geri ala bilməsin, yaxud problem olsun. Bu bankların bağlanmasının bazara neqativ təsir göstərəcəyinə də inanmıram".

Qeyd edək ki, əksər ekspertlər müştərilərin narahat olmamasını tövsiyə edir. Bildirilir ki, banklarda olan əmanətlər sığortalanıbsa, qaytarılacaq. Ancaq sığortalanan əmanətin məbləğinin 30 min manatdan çox olmaması tələb edilir. Otuz min manatdan çox olan hissə isə qaytarılmayacaq. Sığortalanmayan əmanətlərin taleyi isə bankın vəziyyətindən asılı olacaq, bankın maliyyə vəziyyəti pis deyilsə, ehtimal varsa ki, əmanətlər qaytarıla bilsin. Vəziyyət pisdirsə, əmanətlərin qaytarılması sual altına düşür. Ancaq bildirilir ki, bağlanacaq banklardakı əmanətlərin həcmi elə də böyük deyil.

Həmçinin ekspertlər düşünürlər ki, zərərdən minimum çıxmaq üçün Mərkəzi Bank proseslərə nəzarəti öz əlinə alacaq. Yəni bankların ümumi aktivlərinə nəzarət edəcək, real sektordakı kreditlərin yığılması Mərkəzi Bank tərəfindən icra olunacaq.

❑ **Röya RƏFİYEVA**

# Nikah üçün arayış, yoxsa yeni rüşvət tələsi?



## **Azad İsazadə:** "Müayinədən və nəticədən asılı olmayaraq dövlət ailə qurmağa qadağa qoymur"

**Azərbaycan prezidenti İlham Əliyevin 17 dekabr tarixli fərmanına əsasən, nikaha daxil olmaq istəyən şəxslərin icbari tibbi müayinədən keçmələri ilə bağlı tələb 2015-ci il yanvarın 1-dən qüvvəyə minib. Artıq Azərbaycanda nikah bağlamaq istəyən şəxslər müvafiq icra hakimiyyəti orqanına ərizə ilə yanaşı, tibbi müayinədən keçilməsini təsdiqləyən arayış təqdim etməlidirlər.**

Ailə Məcəlləsinə edilən dəyişikliklərə əsasən, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsi, habelə həmin şəxslərə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların müraciəti ilə yaşayış yeri üzrə dövlət və ya bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçiriləcək. Yalnız bu müayinələrdən sonra onlara arayış təqdim ediləcək. Həmin arayış vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı orqanlarına təqdim edilir. Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası və nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışın forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxsləri nikaha daxil olmaq istəyən şəxslərdən onların tibbi müayinəsinin nəticələrini tələb edə bilməz. Onu da qeyd edək ki, MDB məkanında ilk dəfədir ki, Azərbaycanda evlənmək istəyənlər üçün tibbi müayinənin vacibliyi həyata keçirilir.

Maraqlıdır, bu tələb ailə qurmaq istəyən gənclərdə hansısa qorxu yarada bilərmi? Yaxud da bunu yeni rüşvət tələsi adlandıra bilərikmi?

**Psixoloq Azad İsazadə tibbi müayinənin ailə qurmaq istəyən gənclərdə müəyyən psixoloji gərginlik yarada biləcəyini dedi:** "Uşaqlıqda, gənclikdə xəstəlik keçirib ailə qurmaq istəyən gənc psixoloji cəhətdən hansısa narahatlıq keçirə bilər. İnsan adi bir müayinəyə gedəndə istər-istəməz həyəcan keçirir ki, birdən nəsə problem olar. Yəni evlilikdən qabaq keçirilən müayinə böyük bir problem yaratmamalıdır. Müayinədən və nəticədən asılı olmayaraq, dövlət ailə qurmağa qadağa qoymur. Sadəcə olaraq, şərt qoyur ki, hər iki tərəf əvvəlcədən bilməlidir ki, kiminlə ailə qurur. İndi bəzi xəstəliklər var ki, o genetikdir. Bəzən də cütlük o baxımdan bir-birinə problem yarada bilər. Buna görə ailə qurmaq istəyən hər iki gəncin problemlərini əvvəlcədən bilməsi yaxşıdır. Ailə quranda hər iki tərəf bilməlidir ki, onları nə gözləyir və hansı problemlərlə rastlaşacaqlar. Ona görə də mən hesab etmirəm ki, bu böyük bir problemdir. Bu müayinənin yeni rüşvət tələsi olub olmamasına gəlincə isə bacaran hər yerdən pul çıxardır. Bu olmasaydı başqa cür edəcəkdilər. Evlənmədən əvvəl tibbi müayinədən keçmək qərarı ailə quranların sayında azaltma yaratsa belə, bu o qədər balaca bir rəqəm olacaq ki, hiss etməyəcəyik. Evlənmək istəyənlərin sayının azalmasında maddi, sosial vəziyyətin ağırlığı, evinin olmaması amilləri daha çox rol oynayır nəinki onun sağlamlığı. Yeni tibb müayinəsi gənclərin ailə qurmasına elə də maneçilik törətməyəcək".

Maraqlıdır ki, gənclər bu haqda nə düşünür? Bir neçə gənc arasında sorğu keçirib onların da fikrini öyrəndik.

**Günay Quliyeva tibbi müayinənin vacib olduğunu bildirdi:** "Mən bu tələbi çox bəyəndim. Düzgün qərardır. Ailə qurduğumuz insanın hansı xəstəliklərin daşıyıcısı olduğunu bilməliyik. Düşünürəm ki, bu tələb boşanmaları da azaltmış olacaq".

**Fərid Əliyev isə bunun rüşvət tələsi olduğunu bildirdi:** "Hər hansısa xəstəliyi olan insan gedib pul verəcək, o da nəticələri yaxşı yazacaq. Bu, yeni pul tələsindən başqa bir şey deyil".

**Elgün Ağayev isə ailə qurmağa hazırlaşdığını və tibbi müayinədən keçəcəklərini dedi:** "Tibbi müayinədən keçmək qərarı yaxşıdır. Amma bu heç nəyi dəyişməyəcək. Yəni ki, ailə qurduğun insanı seçmisənsə, onun xəstəliyi nə olur-olsun ailə quracaqsan. Xəstəliyinə görə kimisə atmaq olmaz. Heç kim bu müayinədən keçməyəcək. Pulunu verib arayışını alacaq".

Qeyd edək ki, ailə qurmaq istəyən gənclər nikahı bağlayan rəsmi şəxsə rüşvət verib tibbi arayış olmadan nikahlarını bağlatdırsalar, həm nikahı bağlayan şəxs, həm də tibbi müayinədən imtina edən şəxs qanunvericiliklə məsuliyyətə cəlb olunacaq.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 2 (6030) 7 yanvar 2015



# Qızının qəbrinə 12 ildir işıq çəkdirib

Türkiyənin Antalya şəhərində 2003-cü ildə dünyasını dəyişən Berna Şallı adlı qızın qəbrinin üstündə 12 ildir ki, fasiləsiz işıq yanır. Xüsusən gecələr işıqlı məzarı görənlər təəccübünü gizlədə bilmir. Qəbrinin işıqlandırmasını isə onun anası Ayşe Şallı edib. Anası bildirir ki, sağlığında qızı qaranlıqda yatmaqdan qorxurmuş: "Məzarında rahat yatması üçün qəbrini aydınlatmaq istədim. Əvvəl yanıb-sönən işıqlar taxmışdıq. Amma işıq hərəkətli olduğu üçün yoldan keçənlər qorxub. Bundan sonra normal lampa taxdırdıq. Anamın evi qəbiristanlığa yaxındır. Onun evindən çəkilən naqillər sayəsində qəbri işıqlandırdıq".

Qızına yaxın olmaq üçün illərdir yaşadığı evindən köçüb qəbiristanlığın yaxınlığında ev alan A.Şallı deyib ki, "Mən ölənə qədər o işıq yanacaq. Çünki o işığın mənim üçün fərqli bir mənası var. 12 il oldu, amma mən onun öldüyünə hələ də inanmıram. Ondan ötrü çox darıxıram. Məhz ona yaxın ola bilmək üçün qəbiristanlığın yaxınlığında özümə ev aldım".

Bernanın adına qurulan internet saytı da var. Doğumundan ölümünə qədər həyatının əks olunduğu internet saytında gənc qızı ölümə aparan əməliyyata da yer verilib. Gənc qızın şəkillərinin və özəl əşyalarının nümayiş olunduğu internet saytında onun xatirə dəftəri də yer alır.

# Bu məktəbdə hər tənəffüs zamanı rəqs edirlər

Türkiyənin Mardin şəhərindəki Artüklü bölgəsindəki bir orta məktəbdə ilginc hadisələr baş verir. Şagirdlər hər tənəffüs 5 dildə mahnıların müşayiəti ilə müəllimlərlə rəqs edirlər. Buna səbəb isə sözügedən bölgədə şagirdlər üçün hər hansı əyləncənin olmamasıdır. Kürd, ərəb, ispan, türk və ingilis dilində mahnılar çaldıraraq rəqs edən şagirdlər zaman-zaman klassik musiqi sədaları altında da dərsə girirlər. Müdiriyyət isə deyir ki, bu, şagirdlərin məktəbə bağlılığını, dərslərə motivasiyasını artırmaq və onları pis



vərdişlərdən uzaqlaşdırmaq məqsədi daşıyır. Şagird və müəllimlərlə yanaşı, zaman-zaman valideynlər də rəqslərə qoşulurlar.

# Aldığı taburetka sındı, firmadan 350 min dollar tələb edir

Yaponiyada bir restoran sahibi iri mebel firması olan İKEA-nı məhkəməyə verib. İddiaya səbəb firmadan alınan taburetkanın sınması olub. Son nəticədə isə həmin taburetkada oturan Osak şəhər sakininin barmağı sınıb. Restoran mebel firmasından 350 min dollar maddi təzminat tələb edib. 43 yaşlı restoran sahibi deyib ki, sözügedən firmadan 24 ədəd, hündürlüyü vint vasitəsilə tənzimlənən bar taburetkası alıb. Alınandan bir neçə gün sonra yaponiyalı bu stulları yoxlamaq istəyəndə isə məlum olub ki, oturan kimi taburetkalar qəfildən 10 santimetr aşağı düşür. Restoran sahibi müvazinətini itirərək qəfil yerə yıxılıb və sağ əlinin böyük barmağını yaralayıb. Restoran sahibi hazırda həmin barmağını tərpədə bilmir. Firma isə iddia edir ki, taburetkanın üstündə 100 kilodan ağır adamlar otura bilməz və restoran sahibi ağır adam olub. Amma fakt restoran sahibinin cəmi 98 kilo çəkisinin olmasıdır.






# Uşaqlar bunu analarının diqqətini çəkmək üçün edir

Türkiyəli uşaq psixoloqları müəyyənləşdirib ki, 3-11 yaşlı uşaqların valideynlərinin sözünə qulaq asmaması, onları incitməsi daha çox onların diqqət çəkmək cəhdi ilə bağlıdır. Xüsusən anaların iş qadını olduğu bu zamanda uşaqlar onlardan "oğurlanan" vaxta görə mübarizə aparırlar. Psixoloqlar müəyyən edib ki, uşaqlar bu cür asi davranışları ilə analarının onlar barədə daha çox düşünməsinə nail olmaq istəyir. Araşdırmaya rəhbərlik edən psixoloq Nadir Özdilek açıqlayıb ki, analar məhz uşaqlarının əcaib hərəkətlərindən sonra sanki silkələnir: "Analar məhz bu zaman uşaqlarına az vaxt ayırdıqlarının fərqinə varır və onların tərbiyəsinə, davranışına xüsusi diqqət ayırır. Amma uşaq bunu daim təkrarlayırsa, onu psixoloq yanına aparmaq lazımdır".

# Qoroskop




**QOÇ** - Əvvəlki günlərdən fərqli olaraq bu ərəfədə rahatlıq əldə edəcəksiniz. Hər hansı konfliktlə üzləşmə ehtimalınız da yoxdur. Sağlamlıqla bağlı sıxıntılarınız kifayət qədər səngiyəcək.

**BUĞA** - Perspektivlərinizi reallaşdırmaqda tənbəllik edirsiniz, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Sonra başqalarında günah görməmək üçün münasib addım atın.

**ƏKİZLƏR** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**XƏRÇƏNG** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Onu da nəzərə alın ki, bu təqvim qazanc üçün çox səmərəlidir.

**ŞİR** - Ay bürcünüzdə olduğundan yersiz risk etməyin. Əgər haqlısınızsa, bunu gec-tez hamı biləcək. Saat 17-dən sonra şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Təşəbbüskar özünüz olun.

**QIZ** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra şəxsi büdcənizi artırmağa şanslı olacaqsınız.

**TƏRƏZİ** - Yeni ideyalarınızı reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Günün ikinci yarısını sövdələşmələrə həsr edin.

**ƏQRƏB** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**OXATAN** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra işləriniz qaydasında gedəcək.

**OĞLAQ** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Çünki ixtiyarınızda olan bu tarix deyilən məsələlər üçün önəmli deyil. Amma səfər və səyahətlər üçün uğurlu vaxtdır.

**SUTÖKƏN** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin və imkan daxilində müqəddəs ziyarətgahlarımızdan birinə üz tutun.

**BALIQLAR** - Əsas diqqətinizi fəaliyyət istiqamətinə yönəldin. Qarşılıqlı münasibətlərdə, alış-veriş məsələlərində isə hansısa müvəffəqiyyət gözlənilmir. Axşam bütün risklərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Metroda yer vermədi, qulağını dişləyib qopardılar



Çinin cənubundakı Guangzhou şəhərində tayı-bərabəri olmayan bir dava yaşanıb. Səhər saatlarında yaşlı bir kişi ilə 28 yaşlı kişi müəllim metroda yer davası ucbatından bir-birini qanına qəltan edib. Davanın sonunda cavan müəllimin üst-başı qan içində olub. Bundan başqa, yaşlı kişi onun bir qulağını da dişləyərək qoparıb. Maraqlıdır ki, izləyənlər bu davanın cavan müəllimin xeyrinə bitəcəyini düşünsələr də, təxminləri yanlış olub. Hər iki şəxs polisə aparılıb. Məlum olub ki, yaşlı kişi ona basabas metroda yer verməyən cavanı təhqir edəndən sonra onların arasında qanlı dava başlanıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.400